AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

Bakı Dövlət Universitetinin
100 illiyinə həsr olunur

# DÖVLƏT SUVERENLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ YOLUNDA SOSİAL VƏ HUMANİTAR PROBLEMLƏRİN HƏLLİ XÜSUSİYYƏTLƏRİ

Gənc tədqiqatçıların Respublika
elmi-praktik konfransının materialları
(20 oktyabr 2021-ci il)

**III hissə**

Bakı – 2022

## TƏŞKİLAT KOMİTƏSİ

Sədr:
Hikmət Əlizadə - Pedaqogika kafedrasının professoru
Sədr müavini:
Qızılgül Abbasova - elmi işlər üzrə dekan müavini, məsul katib
Üzvlər:
Kamilə Əliyeva - Sosial və pedaqoji psixologiya kafedrasının müdiri
Rəbiyyət Aslanova - Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının müdiri
Rafail Həsənov - Sosiologiya kafedrasının müdiri
Rəna İbrahimbəyova - Gender və tətbiqi psixologiya kafedrasının müdiri
Ləzifə Qasımova - Pedaqogika kafedrasının müdiri
Rəna Qədirova - Psixologiya kafedrasının professoru
Kəmalə Pənahova - Fəlsəfə kafedrasının müdiri
Üzeyir Şəfiyev - Sosial iş kafedrasının müdiri
İranə Məmmədli - Dekan müavini
Daxil Vəliyev - Dekan müavini

## PROQRAM KOMİTƏSİ:

Sədr:
Əziz Məmmədov - Fəlsəfə kafedrasnını professoru
Sədr müavini:
Tahir Ağayev - Sosiologiya kafedrasının dosenti
Üzvlər:
Mirələm Vəliyev - Psixologiya kafedrasının dosenti
Elza Mollayeva - Pedaqogika kafedrasının professor
Qəmər Mürşüdlü - Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının dosenti
Eliza İsmayılova - Sosial iş kafedrasının dosenti
Nəzakət Kərimova - Fəlsəfə kafedrasının dosenti

# FƏLSƏFƏ VƏ FİLOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri: b/m Azər Allahverdiyev***

## AZƏRBAYCAN VƏ TÜRK DİLLƏRİNDƏ OĞUZLARA AİD EDİLƏN AD BİLDİRƏN SÖZLƏR

***Ataşlı Təhminə Varis qızı***
***BDU-nun Türkologiya kafedrasının II kurs doktorantı***
***tehmineatashli@gmail.com***

Dilin tarixini xalqın tarixindən ayrı düşünmək mümkün deyil. Türk dilləri də uzun tarixi inkişaf yolu keçərək müasir dövrə qədər gəlib çıxmışdır. Tarixi inkişaf prosesinin müxtəlif mərhələlərində Orta əsrlərin sonlarından etibarən etnososial diferensiasiya prosesini başa çatdıran türklər müstəqil xalqlar kimi formalaşmağa başlamışlar, bu isə türk dilləri arasında oxşar və fərqli cəhətlərin yaranmasına və artmasına şərait yaratmışdır. Bu oxşar cəhətlər həmin dillərin bir qaynaqdan gəldiyini sübut etdiyi kimi, fərqli cəhətlər də hər bir dilin özünəməxsus inkişaf yolu keçdiyini təsdiq edir.

Türk dilləri ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan və türk dilləri  də uzun tarixi inkişaf yolu keçmişdir. Bu dillər tarixi inkişaf prosesi zamanı aparıcı oğuz ünsürlərini qorumuş, müxtəlif dövrlərdə karluq, qıpçaq dil qruplarının, həmçinin ərəb-fars dillərinin təsirinə məruz qalmış, özünəməxsus əlamətlər qazanmış, digər oğuz dillərindən fərqlənmişdir.

Müasir Azərbaycan və türk dilləri leksikasında fərqli məqamlar kifayət qədər olsa da, hər iki dilin lüğət tərkibi oğuz sözləri ilə zəngindir. Orta əsrlərin lüğətlərində oğuzlara aid edilən sözlərin bir qismi bu gün yalnız türk və ya Azərbaycan dilində, böyük bir qismi isə hər iki dildə işlənərək bu dillərin leksikasının yaxınlığını təmin edir.  Bəzi leksik vahidlər isə

ədəbi dil səviyyəsində işlənməsə də, hər iki dilin dialekt və şivələrində özünü göstərir.

Prof. Fərhad Zeynalov qədim türk dillərinin leksikasını üç qrupa ayırır:

1) ad bildirən sözlər.

2) əlamət və keyfiyyət bildirən sözlər.

3) hərəkət bildirən sözlər.

Türk dillərinin leksikasında ad bildirən sözləri müxtəlif yarımqruplara ayırmaq mümkündür. Qohumluq əlaqəsi bildirən sözlər, bədən üzvlərinin adları, bitki və heyvan adları bildirən sözlər, gün, ay, il adları bildirən sözlər, kənd təsərrüfatının müxtəlif sahələri və məişətlə ilə bağlı ad bildirən sözlər və s. bu qəbildəndir.

Orta əsrlərin türk dilləri lüğətlərində oğuzlara aid edilən ad bildirən sözlər öz zənginliyi və əhatə dairəsinin genişliyi ilə diqqəti cəlb edir. Bu ad bildirən sözlərə müasir türk və Azərbaycan dillərində də rast gəlmək mümkündür. Təbii ki, bu sözlər əsrlər öncə olduğu kimi qalmamış, müxtəlif fonetik, sematik dəyişikliklərə uğrayaraq müasir Azərbaycan və türk dillərinin leksikasında öz yerini tapmışdır. Mənbələrdən seçilmiş bir sıra nümunələrlə bu faktı təsdiqləmək mümkündür:

**Bitik** – Kaşğari lüğətində bu sözə "oğuzca" başlığı ilə *əfsun, sehr, tilsim, cadu, talisman* mənalarında verilir. "Ət-töhfət üz-zəkiyyə fil-lüğət-it türkiyyə" əsərində isə bu sözə *yazı, kitab* mənalarında rast gəlinir. Bitik sözünə qədim türk dillərində ikinci mənada daha çox rast gəlinir (2, 385). Məsələn, qədim uyğurların fal kitabı – "Irk Bitig".

Azərbaycan dilində bu söz M.Kaşğarinin verdiyi semantikaya yaxın mənada işlənmişdir. İzahlı lüğətdə bu söz fonetik dəyişikliyə uğramış formada; *pitik* şəklində, köhnəlmiş söz kimi təqdim olunur. Lüğətdə *pitik* sözü *yazı, kitab, yazılı dua, yazılmış dua* mənalarında verilir: "Sən Allah bir duadan, pitikdən yaz". Azərbaycan dilində işlənən *cadu-pitik* sözündə də M.Kaşğarinin verdiyi semantika qorunub saxlanılır.

Müasir türk dilinin izahlı lüğətində isə bu sözə rast gəlinmir.

**Oğur** – Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərində bu söz "oğuzca" başlığı ilə *xeyir, bərəkət* mənalarında verilmişdir. "Yol oğur bolsun" deyilir ki, "Yol uğurlu olsun" deməkdir (2, 126). Kitabi-Dədə Qorqudda da bu söz *uğur* formasında eyni mənada işlənmişdir: "Yort, oğul! Uğurun açuq olsun, sağ-əsən varub gələsən" (1, 176). Bu söz hazırda türk və Azərbaycan dillərində *uğur* şəklində işlənməkdədir.

**Köpri** – körpü (4, 208). "Ət-töhfət üz-zəkiyyə fil-lüğət-it türkiyyə" lüğətində bu formada işlənən bu söz məna cəhətdən heç bir dəyişikliyə uğramasa da, fonetik dəyişikliyə uğrayaraq Azərbaycan dilində *körpü*, türk dilində isə *köprü* şəklində işlənir. Maraqlıdır ki, oğuzcada söz ortasında özünü göstərən *pr* samitlərinin ardıcıllığı müasir türk dilində qorunub saxlansa da, Azərbaycan dilində *rp* şəklində öz əksini tapmaqdadır. Bunu hər iki dildə işlənən *yarpaq/yaprak, torpaq/toprak, kirpik/kiprik* və s. kimi sözlərdə görmək mümkündür. Gorünür, qədim forma türk dilində qorunub saxlanılmışdır.

Azərbaycan və türk dilində işlənən ortaq sözlərin əksəriyyəti türk mənşəli sözlərdir. Lakin hər iki dildə xüsusən ərəb-fars dili elementlərinə rast gəlmək mümkündür. Əsrlər öncədən qədim türk xalqları ilə bu xalqların mədəniyyətləri, dilləri arasında inteqrasiya mövcud olmuşdur. Bu əlamətlər özünü istər müasir, istərsə də qədim türk dillərinin leksikasında göstərməkdədir.

**Armağan** – Fars mənşəli bu söz Kaşğari lüğətində *səfərdən qayıdan adamın yaxınlarına gətirdiyi hədiyyə* mənasında işlənmişdir (2, 195). "Ət-töhfət üz-zəkiyyə fil-lüğət-it türkiyyə" əsərində də bu sözə eyni fonetik və semantik formada rast gəlirik.

Türk dilində bu söz ilkin fonetik və semantik formasını saxlayaraq işlənsə də, dilimizdə *ərməğan* şəklində işlənmişdir. Kitabi-Dədə Qorqudda da bu söz *ərməğan* formasında eyni mənada işlənmişdir: "Yad kafər gəlsə, başın Oğuza ərməğan

göndərdi” (1, 91). Fars mənşəli bu söz müasir Azərbaycan dilinə nisbətən türk dilində daha ümumişləkdir.

Yuxarıda qeyd olunanlardan yola çıxaraq bu nəticəyə gəlirik ki, Azərbaycan və türk dillərinin lüğət tərkibində işlənən ortaq sözlər içərisində oğuzlara aid edilən ad bildirən sözlər mühüm yer tutur. Bu adlar hər iki dilin keçdiyi tarixi inkişaf yolunu, bu zaman itirdiyi və qazandığı fonetik və semantik xüsusiyyətləri, həmçinin iki xalqın ortaq tarixini, mədəniyyətini, məişətini öyrənmək baxımından olduqca qiymətlidir. Bu sözlərin tədqiq olunmasında XI-XIV əsrlərdə Şərq filoloqları tərəfindən tərtib olunmuş türk dillərinin lüğətləri xüsusi əhəmiyyət kəsb edən mənbələrdir.

## ƏDƏBİYYAT


1. “Kitabi-Dədə Qorqud”un izahlı lüğəti. Bakı, Elm, 1999, 203 s.
2. Mahmud Kaşğari “Divanü lüğat-it-türk”. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər. I cild, Bakı, Ozan, 2006, 512 s.
3. Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası. Bakı. MBM. 2008. 354 s.
4. Ettuhfet-üz-zekiyye fil-lüğat-it-türkiyye. Çeviren Besim Atalay. İstanbul. 1945.


# ОБ АКТУАЛЬНОСТИ ПРОБЛЕМ СОВРЕМЕННОЙ ТЮРКСКОЙ ФИЛОСОФСКОЙ МЫСЛИ


***Кулиев Самир Юсифович***

***Докторант кафедры Истории философии и культурологии***

***samiryusifovich@gmail.com***


Тюркская философия, являясь частью мировой философии, определенно имеет схожие с ней проблемы и в целом не противопоставляет себя ей. Вместе с тем, зная особенности возникновения и дальнейшего развития тюркской

философской мысли, можно с уверенностью утверждать, что ей присущи свои отличительные особенности и, несомненно, имманентные вызовы.

Работа над диссертацией призвана выявить как общие, так и специфические черты философии тюркских народов в компаративистском сравнении с философиями других регионов мира, прежде всего Западной и Восточной. Для этих целей нужно более детальное исследование феноменов этих самых философий. Знаний уровня магистра явно будет недостаточно, а поэтому добросовестная работа с литературой, научные контакты с историками философии из различных местных и иностранных университетов, посещение специализированных библиотек в разных странах мира в поиске как можно большего количества необходимой качественной информации – первоочередная задача.

Кроме того, в процессе написания диссертации и предшествующих ей научных статей будет предпринята попытка выяснить, имеется ли у современной тюркской философии системное начало, или она дезорганизована от одной народности к другой и не имеет четко выраженных научных школ и направлений. Конечно, на данном этапе представляется первое, но, если выяснится, что никакой подобной системы и организованности не существует, следующей задачей станет моделирование всех имеющихся философских идей тюркских народов в группы, классифицирование их по темам и, собственно, направлениям.

Перед написанием диссертации целесообразно чётко установить границы, что в существующем мире считать тюркской философией. Речь идёт о географических границах. В остальном сложностей нет, ведь у нас, азербайджанцев, как одного из ярких представителей тюркской цивилизации, есть ясное понимание того, какие народы относятся к тюркским, а какие нет. И в этом плане на центральное место выходит единение по языку. Наличие об-

щего языка является самым главным фактором, объединяющим тюркские народы. Таких факторов на самом деле много – это и мифология, и эпос, культура, обычаи, традиции и полагаю, философия. По крайней мере, работа над диссертацией призвана скорее подтвердить данное предположение, ежели опровергнуть его. Введение в активный научный оборот термина тюркская философия, не только по географическому признаку, но и по общности идей задача архиважная, жизненно необходимая. Возвращаясь к территориальным границам обязательно причисление к тюркской философии большого ареала от Турции, частично Венгрии и Болгарии на Западе до Западного Китая на Востоке, от значительной части Российской Федерации за Уралом на Севере до Ближнего Востока на Юге. Перечисление всех стран и территорий, на которых проживают тюркские народы, на стадии написания тезисов не имеет важного значения, однако в тексте диссертации не должно быть разнотолков или неопределенности по данному вопросу, все территории с характерными им свойствами тюркской философской мысли будут отражены.

Конечно, отдельный акцент в исследовании будет сделан на философских взглядах современных азербайджанских мыслителей. Не только мы сами, но и весь мир издавна считает азербайджанский народ принадлежащими к тюркской культуре и языку. Так, в Российском государственном военно-историческом архиве до сих пор хранится знаменитый «Манифест» от 15 июля 1722 года, обращённый к народам, проживающим в прикаспийских регионах, напечатанный на «тюркском» языке (1).

По мнению знаменитого азербайджанского историка Играра Алиева формирование азербайджанского народа, как тюркоязычного, завершается к III – началу VII веков н.э (2).

Не вызывает сомнений, что тюркская философия имеет под собой непоколебимую прочную основу, выраженную в богатом литературном наследии прошлых столетий, передовой средневековой науке, тесной связи с классической мусульманской философией. Правда в ходе написания диссертации, при анализе исторических предпосылок формирования современной тюркской философии, будет изучено влияние тенгрианства и других религиозных течений на философское мышление сегодняшних тюрков. Говоря об истории тюркской философии, невозможно будет пройти мимо доисламского периода её развития, почитаемой во всем мире Авесте, эпосе Манас, не написать о восточном перипатетизме, суфизме, не написать о таких великих мыслителях как Бахманьяр, Аль Фараби, Юсуф Баласагуни, Ибн Сина, Насреддин Туси и многих-многих других, не затронуть эпоху Ренессанса в тюркской философии и не рассказать о роли просветителей в ней.

Все мы знаем, что история тюркских народов уходит далеко в прошлое.  Того же мнения придерживаются и западные учёные. По мнению профессора Стивена Фредерика Старра тюркская культура существовала за несколько веков до появления Ислама (3).

Но, всё же главной задачей диссертации станет не исследование истории тюркской философской мысли от зарождения до наших дней, которому вполне достаточно будет отвести одну главу, а обусловить отношение тюркской философии к глобальным проблемам человечества, над которыми размышляет весь философский мир, это и проблемы экологии, неравномерного распределения ресурсов, глобального потепления, возможного массового голода, социального неравенства, возрастающей с каждым днём безработицы, замены человеческого труда роботизированным, внедрения искусственного интеллекта, борьбы с терроризмом, нераспространения войн и других.

Невозможно будет представить целостность диссертации без анализа актуальных политических, экономических, культурных и гуманитарных проблем, с которыми сталкивается тюркский мир, и без обоснования необходимости сплочения, в том числе через призму философии.

В дополнение к предыдущим тезисам можно констатировать, что во время исследований по теме обнаружатся и другие проблемы, обойти которые не получится, и они обязательно также найдут своё отражение в главах диссертации.

## ЛИТЕРАТУРА

1. Академия наук Азербайджана. История Азербайджана с древнейших времён до начала XX века. Баку, Элм, 1995.
2. С. Фредерик Старр. Утраченное Просвещение: Золотой век Центральной Азии от арабского завоевания до времен Тамерлана. Альпина Паблишер, 2017.
3. http://ргвиа.рф – официальный сайт Российского государственного военно-исторического архива.

## О ПРОБЛЕМАХ НАУЧНОГО ПОИСКА

***д.ф.н, профессор Эфендиев Фикрет***
***д. ф. по ф. доцент Исламов Ислам***

В современных условиях особую актуальность приобретают философско- методологические проблемы научного поиска, творчества, выявленные новых научных истин. В настоящее время все еще широко распространено мнение, что поскольку открытие нового не управляется какими-либо логическими принципами и законами, поскольку оно не допускает философско-методологического анализа. Наиболее ярко это точка зрения представлена в логиче-

ском позитивизме и критическом рационализме, которые резко противопоставляют «контекст открытия» контексту обоснования.

В философской литературе такое противопоставление уже подвергалась аргументированной критике. Справедливо отличилось, что подобный взгляд сводит. Научный поиск к явно не эффективному способу проб и ошибок. На самом деле поиск в науке всегда опирается на определенные методы, разработанные в ней в ходе развития познания. Эти эвристичны по своему характеру. Она помогают систематизировать, организовать контролировать процессе поиска истины, но не гарантирует её достижение однозначном образом.

Недостаток многих публикации, посвященных проблемам научного поиска, состоит в том, что в них не обращается внимания на структуру и характер методов, используемых в процессе открытия нового в науке. При этом отметим важной методы диалектики и принцип материализма как всеобщих установок и стратегий исследования.

В ходе исследования, поиска любой метод выступает как определенная норма исследования, придерживая который учёный, при прочих равных условиях, наиболее эффективно достигает своей цели. В отличии алгорифенических методов, приводящих к однозначному результату, эвристические методы выступают именно как методы организованного и целенаправленного поиска. Они в огромном степени сокращают простой перебор возможных решений, демонстрируя тем самым, что поиск в науке вовсе не сводится к простой процедуре проб и ошибок. Материалистический подход и диалектическое мышление обладают наиболее широким эвристическим потенциалом, но ее применение предполагает использование менее общих эвристических методов, как общенаучного, так и специального характера.

Эвристические методы обладают различной областью своего применения. В качестве наиболее общего метода поиска выступает диалектический метод и принцип материализма позволяющий охватить весь процесс поиска в целом, выявить связь и взаимодействие между поиском новых идей и их обоснованием. Диалектика может также как общая стратегия поиска исследования, а более конкретные методы поиска, как общенаучного, так и частонаучного характера вместе с регулятивными принципами в этом случае будут составлять тактику поиска.

Эвристическая роль диалектики проявляется на всем протяжении процесса поиска, тогда как более частные и специальные эвристические методы и регулятивные принципы лишь на определенных этапах поиска. Диалектика определяет, таким образом, границы применения и возможности этих методов и тем самым нельзя правильно понять ее роль в научно поиске, не учитывая ее взаимодействия с конкретными принципами.

В заключении отметим, также, что нормативный взгляд на методологии поиска тем отличается от различных не оправдавшихся попыток создания логика открытия, что он не абстрагируется от индивидуальных особенности исследователя, его опыта, таланта и других способностей. Поэтому он рассматривает методы науки прежде всего как эвристические средства достижения истины, как нормы, облегчающие его целенаправленный и организованный поиск.

## ЛИТЕРАТУРА

1. Ярмолец В.И. О специфике проявления гноселогического образа в теоретическом познании. Проблемы философии. Выпуск 59. Человек-природа-общества. Киев,1993, с 119-124.

2. Лазерев Ф.В. О природе познавательного образа в контакте открытия. Проблемы философии. Выпуск 44. Киев; 1988, с.77-78.
3. Брушлинский А.В. Воображение и творчество (трудности в трактовке воображения) научное творчестве, М; 1969, с.345,346.
4. Аманов Б.А. О месте образного мышления в научном творчестве. Проблемы философии. М; Выпуск 44,1982, с. 95,93,99.
5. Рузавин Г.И. Концепции современного естествознания. М; ЮИИТИ,2007, с.287.

## ƏLİ BƏY HÜSEYNZADƏNİN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİNİN TƏKAMÜLÜ

***İsazadə Leyla İsmayıl qızı***
***BDU-nun II kurs magistrantı***
***leilaisazadeh@mail.ru***

Başda Azərbaycan və Türkiyə olmaqla, bütün İslam Şərqinin və türk dünyasının təməl ideoloji, siyasi, mənəvi yönünün müəyyənləşməsində müstəsna rolu olan, "Türk dünyası"nın yetişdirdiyi dahi mütəfəkkir, ustad şair, mahir rəssam, musiqiçi, həkim, kamil natiq, publisist, orjinal tərcüməçi, pedaqoq, "Azərbaycan bayrağını mənalandıran üç ümdə amilin ideoloqu" Əli bəy Hüseynzadə (1864-1940) "Türkçülük hərəkatı"nın öndərlərindən biri olmuşdur. "Türkçülük hərəkatı"nın təşkilatlanması və siyasi güc qazanmasında, Azərbaycan Xalq Cümhuriyyətinin ideologiyasının fəlsəfi əsaslarının yaranmasında Əli bəy Hüseynzadə misilsiz xidmətlər göstərmişdir. Bütün həyatı Azərbaycan, Türk düşüncəsi ilə bağlı olan azadlıq carçısı, milli özünüdərk və milli azadlıq mübarizi kimi tanınan Əli bəy Hüseynzadə tarixin ən böyük mütəfəkkirlərindən birinə çevrilmişdir. Qərbin

H.Heyne, Şopenhauer, Spenser, Hartman, Volter, Ş.Monteskyö kimi filosof və alimləri ilə, Şərqin Firdovsi, Nizami, Rumi, Nəvai, Füzuli kimi böyük şəxsiyyətlərini düşüncə və təsəvvürdə bir araya gətirən, onların dünyagörüşünü, düşüncələrini mənimsəyən və bunların hər birini süzgəcdən keçirən Əli bəy Hüseynzadə yeni dövrün yeni fikir adamı, mühim mütəfəkkiri idi.

Əli bəy Hüseynzadənin dünyagörüşünün formalaşmasında onun dünyaya gəldiyi ailə, aldığı təhsil, əhatələndiyi insanlar, bir sözlə yaşadığı mühit mühim rol oynamışdır.

Atasını çox erkən yaşda itirdikdən sonra o, ana babası Qafqaz şeyxülislamı Axund Əhməd Səlyaninin himayəsində böyüyür. 1875-1885-ci illər ərzində Tiflis gimnaziyasında təhsilini davam etdirir. Babası Mirzə Fətəli Axundzadə ilə yaxın dost idi. Əli bəy daim onların söhbətlərini dinləmiş və onun ilkin düşüncə dünyasının formalaşmasında bu iki şəxsiyyətin müstəsna rolu olmuşdur (1). O zamanlar gimnaziyalarda türk dilində oxumağa icazə vermirdilər. Amma Axund türk şairlərinin əsərlərini zövqlə mütaliə etmiş və hətta Türk dilində yazılan şeirlərdən zövq aldığını dilə gətirmişdir. Avropalı tədqiqatçılar tərəfindən "Azərbaycanın Molyeri", Falev tərəfindən "Azərbaycanın Qoqolu" adlandırılan Mirzə Fətəli Axundzadə geriliyə qarşı çıxmış, milli tərəqqiyə maneə olan hər bir şeyi açıq şəkildə tənqid etmişdir. Yəni, Axund Əhmədin Şərq mədəniyyətinə, Mirzə Fətəli Axundzadənin Qərb mədəniyyətinə bələd olması Əli bəy Hüseynzadə üzərində təsirini ömrünün sonuna qədər göstərmişdir.

Əli bəy Hüseynzadəyə Türkçülüyü sevdirənlərdən biri Namiq Kamal olmuşdur. Namiq Kamalın lüğətində tez-tez istifadə olunan "Hürriyyət" və "Tərəqqi" kəlmələri Əli bəy Hüseynzadənin yazılarında da geniş yer tutur. Namiq Kamalın yazılarında "Vətən" anlayışına da yer verilirdi, lakin Hüseynzadənin "Vətən" anlayışı daha fərqli məna daşıyırdı. Belə ki, o, "Vətən" dedikdə nə Osmanlı, nə də Azərbaycanla

məhdud qalmırdı. Onun düşüncəsinə görə Türkləri birləşdirən bir torpaq, bir "Vətən" var, bu da Turandır. Hətta bu fikrini 1892-ci ildə İstanbulda tələbə olarkən "Turan" imzası ilə bir şeir yazır. Beləliklə, Türkçülük tarixində yeni bir səhifə açan ilk Turançı Əli bəy Hüseynzadə oldu. Lakin bunu vurğulamaq lazımdır ki, Əli bəy Hüseynzadənin Turançılığı heç bir zaman siyasi ölçü qazanmamışdır. Yusif Akçura yazırdı ki, "Turançılığını şiddet, keskinlik ve ısrarla savunmuş değildir. Bununla beraber onun şairane Turancılığı, 1908'den sonra İstanbul'da diğer Turancıları, başlıca Gökalp Ziya'yı yaratmışdır" (3, s.142). Burdan bizə aydın olur ki, Əli bəy Hüseynzadənin Turan kəlməsi siyasi mənadan daha çox mənəvi, mədəni məna daşımışdır. Yəni, Turan bütün Türklərin mənəvi vətəni idi.

Bu ərəfələrdə Əli bəyin düşüncəsinə təsir göstərən digər bir insan Əli Suavi olmuşdur. Onu fərqləndirən əsas ünsür "Türk" kəlməsinə ilk dəyər verənlərdən biri olması idi. Həmçinin Əli Suavi Türkçülüyün də qabaqcıllarından biri sayılırdı və dil, əlifba məsələsində Namiq Kamaldan daha da irəli getmişdi. Onun terminlərlə bağlı belə bir düşüncəsi var idi: Birincisi, Qərb dillərindən Türk dilinə keçən və tərcüməsi mümkün olan kəlmələrin Türk dilində ifadə edilməsi zəruridir. Məsələn, chemin de fer kəlməsini dəmiryolu kimi ifadə etmək lazımdır. İkincisi, Avropa elm dilində ortaq olan və tərcümə edilməyən kəlmələr Türk dilinə olduğu kimi keçməlidir. Məsələn, oxygene, photographe kimi sözlərin Türk dilində qarşılığını tapmağın vacib olmadığını söyləyirdi.

Amma Əli bəy Hüseynzadənin düşüncəsi burada fərqli idi. O düşünürdü ki, bu cür yeni sözlərin, terminlərin qarşılığı fars və ərəb dillərindəki sözlərlə verilsə daha uyğun olar.

Əli bəy Hüseynzadə ilə Əli Suavini birləşdirən digər bir məqam da İslama və Qərbə olan baxışları idi. Əli Suavi Qərb fikrini İslami əsaslarla birləşdirməyə çalışırdı. Onun fikrinə görə İslamlaşma və Qərbləşmə bir birinin tamamlayıcısıdır.

Türkçülüyü də ön plana çıxararaq İslamla Qərbləşmə yalnız Türkçülüklə bir yerə gələndə Qərb millətlərinin qarşısında güclü halda dayana bilərdi. (2, s.90-91). Sonradan Əli bəy Hüseynzadə də bu düşüncəni dərindən işləyib "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" üçlü düsturu ilə ortaya çıxarmışdır.

## ƏDƏBİYYAT


**1.** Azər Turan Əli bəy Hüseynzadə Bakı. 2008

**2.** Akçura Yusuf "Türkçülüyün tarixi" Bakı, 2006

**3.** H.Z.Ülken. Prof. Ali Turan'ın (Hüseyinzade) 1926-da Bakü'de Toplanan Birinci Türkoloji Kongresinde Aldığı Notlardan, s.143


## MARK TVENİN YARADICILIĞINDA UŞAQ OBRAZLARI


***Hacıyeva Səlimə Çingiz qızı,***
***BDU-nun Humanitar fakültələr üzrə ingilis dili kafedrası***
***salima.haciyeva@gmail.com***


Amerika yazıçısı və jurnalist Mark Tven bədii ədəbiyyat, tarixi fantastika, uşaq ədəbiyyatı, satira, esse, fəlsəfi ədəbiyyat, ədəbiyyatşünaslıq janrlarında sanballı əsərlər yazmışdır. Mark Tven uşaq ikən tam təhsil ala bilmədi, lakin mütaliə sayəsində intellektual səviyyəsini xeyli artırdı və biliklərini təkmilləşdirdi. Müəllifin ilk əsərlərində yumorla Amerika folkloru arasında ayrılmaz əlaqə müşahidə oluna bilər. Tven incə yumorun köməyi ilə gülünc, hətta faciəvi situasiyaları məharətlə təsvir edir, bəşəriyyətin əsas əxlaqi keyfiyyətlərini tərənnüm edir. Müəllif əsərlərində lovğalığı, cəhaləti, lovğalığı, dini riyakarlığı ələ salmışdır. Ədibin böyük ustalıqla qələmə aldığı "Tom Soyerin macəraları" (1876), "Şahzadə və dilənçi"

(1881), "Missisipidə keçən həyat" (1883), "Hekayələr toplusu", "Heklberri Finnin sərgüzəştləri" (1884), "Qoruyucu mələyə məktub" (1887), "Fərsiz Vilson" (1894), "Janna Dark" (1896) kimi əsərləri təkcə Amerika ədəbiyyatına deyil, ümumilikdə dünya ədəbiyyatına dəyərli töfhədir. "Amerika Birləşmiş Ştatlarının ədəbiyyatını Səmuel Lənqhom Klemens - Mark Tven (1835-1910) olmadan təsəvvür etmək mümkün deyil. O, doğma xalqının təkcə tanınmış satira və yumor ustası deyil, həm də ABŞ ədəbiyyatının gələcək inkişafının strategiyasını müəyyənləşdirən bir sənətkardır" [3, səh. 5].

Mark Tven Amerikanın ilk yumoristi kimi tez bir zamanda şöhrət qazandı və bu şöhrət zaman keçdikcə daha da artdı. Onun yaradıcılığında uşaq obrazı xüsusi yer tutur. Mark Tven təxəllüsü ilə tanınan  Semuel Lenqhorn Klemens uşaq romanlarını müəllifi kim ədəbiyyat tarixində parlaq iz buraxmışdır. Tvenin əsərlərinin əksəriyyəti Amerika xalq yumoru ənənələri ilə bağlıdır ki, bu da onun əsərlərinə xüsusi yaraşıq, parlaq milli kolorit verir. Ümumiyyətlə, Amerika ədəbiyyatında uşaq daim hərəkətdədir və həyat yolunu seçməkdə azaddır. Bir neçə uğursuz cəhddən sonra avtobioqrafik roman yaratmaq sahəsində yazıçı püxtələşdi və iki il ərzində qısa fasilələrlə "Tom Soyerin macəraları" (The Adventures of Tom Sawyer) əsərini yaratdı. Roman yazıçının uşaqlıq xatirələri üzərində qurulub. 1874-cü ildə Tven "Tom Soyerin sərgüzəştləri" əsəri üzərində işləməyə başladı və 1875-ci ildə tamamladı, bu hekayə əsasən uşaqlar üçün deyil, uşaqlıq haqqında qələmə alınmış əsər kimi düşünülmüş və yazılmışdır. Bu əsərin baş qəhrəmanı Tomdur. O, qayğısız məktəbli, üsyankar, bəzən isə kobuddur. Tom məktəbdən qaçaraq meşədə oynayır. O, hətta Polli xalanı əsəbləşdirərək evdən qaçır. Amma bu oğlan cəsur və ixtiraçıdır, dostluqda sadiqdir. "Tom  dərs oxumağı sevmir. Onun özünəməxsus fantaziyalar aləmi var. O macəra axtarır, xəzinəyə sahib olmaq istəyir. Sonda balaca Tom öz istəyinə nail olur" [1, səh. 8-9].

“Tom Soyerin sərgüzəştləri” əsəri Amerikanın Missuri ştatının kiçik Sent-Peterburq şəhərində yaşayan bir oğlanın sərgüzəştlərindən bəhs edən romanıdır. Hadisələr Amerika Vətəndaş Müharibəsi hadisələrindən əvvəl baş verir. Tom Soyer mərhum anasının bacısı Polli xala ilə birlikdə yaşayan on iki yaşlı şən və oynaq oğlandır. Tom və dostlarının müxtəlif sərgüzəştlərinin təsvir edildiyi bu əsərdə Tom Soyer, Heklberri Fin, Poli xala, Hindu Co kimi maraqlı obrazlar vardır.

Tvenin ilk əsərləri şənliyi, istehzalı, nadinc tonu ilə diqqəti cəlb edir. Amerika azadlığının reallığına sadəlövh inam bu əsərləri nikbin tonlarda rəngləyir. Bu mərhələdə Tven hələ də Amerikanın demokratik sisteminin üstünlüklərinə şübhə etmir. Tven təkcə Avropa cəmiyyətinin mürtəce dövlət-siyasi prinsiplərinə deyil, həm də insan şəxsiyyətinə qarşı istənilən zorakılığa etiraz edir. Tven yumoristik əsərlərində təkcə Qərb folklorunun üslubunu deyil, həm də onun şən atmosferini canlandıra bildi. Qərb folklorunun təsiri Tvenin yaradıcılığında ən mühüm formalaşdıran amil oldu. “Yazıları, demək olar ki, bütünlüklə avtobioqrafik idi. Uşaqkən qarşılaşdığı hadisələr onda dərin izlər buraxırdı və bu hadisələr gələcəkdə uşaqların mənəvi dünyalarının realistik formalaşmasına xidmət edəcəkdi. Bir şeyi əldə etmək üçün onun yolunda çalışmaq lazım olduğunu, öz şəxsi istəklərinə görə kimlərdənsə, nələrdənsə sui-istifadə etməməyi vicdan məsələsi bilirdi” [2].

Mark Tvenin uşaq obrazları yaratdığı “Şahzadə və dilənçi” əsəri tarixi romanıdır. Konnektikutdakı yazılan bu əsər ilk dəfə 1881-ci ildə Kanadada nəşr edilmişdir. Roman XVI əsrin mükəmməl olmayan ingilis dövləti və məhkəmə sisteminin çatışmazlıqlarını ironik şəkildə təsvir edir. 1547-ci ildə Londonun ən yoxsul bölgəsində oğlan Tom Kent acınacaqlı şəraitdə yaşayan dilənçidir. Uşaq tez-tez sərxoş ata tərəfindən döyülür, lakin buna baxmayaraq, Tom istedadlıdır, qonşu bir keşiş ona oxumağı və yazmağı öyrətdi. Sarayın hasarının yaxınlığında olan Tom şahzadə Eduard Tyudoru gördü. Lakin

qəzəbli mühafizəçi Tomun taxt varisinə baxmasına imkan vermədi, uşağı kobud şəkildə danladı. Bunu görən şahzadə yazıq oğlana yazığı gəlir və onu saraya dəvət edir. Əylənmək üçün uşaqlar paltarlarını dəyişdilər. Mühafizəçinin Tomun qoluna vurduğu zərbədən qançır olduğunu görən şahzadə, sərt mühafizəçini cəzalandırmaq qərarına gələrək saraydan qaçdı. O, cır-cındır geyinmiş şahzadəni kasıb bir adamla səhv salaraq, onu bayıra atdı. Tom baş verənləri saray əyanlarına danışmağa çalışır. Saray əyanları Toma inanmırlar və onu şahzadə kimi qəbul edirlər, "varis"in qəribə davranışını onun ağır tədris yükündən müvəqqəti dəli olması ilə izah edirlər. Kral ağır xəstə VIII Henri ilə görüşən Tom ona həqiqəti söyləməyə çalışır, lakin o, Toma inanmır və ona bu hekayəni daha da xatırlatmağı qadağan edir.

Şahzadə bir dəfə küçədə olarkən ingilis cəmiyyətinin aşağı təbəqələrinin hüquqsuzluğunu öyrənir. O, qadınların amansız edamlarını izləyir, təsadüfən özünü fırıldaqçılar dəstəsində tapır, həbsxanaya düşür və quldurlar tərəfindən komik tacqoyma mərasiminə məruz qalır. Aşağı təbəqədən olan bir adamın bütün məşəqqətlərini yaşamış, çoxlu bəla və məşəqqətlərə sinə gərmiş VI Eduard yenidən taxtına oturaraq vəziyyəti düzəltməyə, təbəələrini ədalətli və mərhəmətlə idarə etməyə and içir. Bu vaxt, Tom istəmədən şahzadənin yerini tutaraq saray davranışlarını mənimsəməyə çalışır. "Bu süjet öz bədii səciyyəsinə görə daha çox Şərq ədbiyyatının motivlərini və xalq nağıllarının məzzmunlarını xatırladır" [4, səh. 11]. İnsanların faciəsini, məmur özbaşınalığını, kasıb işçiləri görən şahzadə taxta qayıdanda həyata münasibətini dəyişir. O, var-dövlətə əhəmiyyət vermir, xeyirxah və ədalətli hökmdar olur.

Ədibin 1884-cü ildə qələmə aldığı "Haklberri Finin sərgüzəştləri" (Adventures of Huckleberry Finn) romanı yazıçının ədəbiyyata verdiyi ən mühüm töhfə hesab olunur. "Haklberri Finin sərgüzəştləri" bəzi ədəbiyyatçılar tərəfindən Amerika ədəbiyyatının ilk böyük əsəri hesab olunur.

“Haklberri Finin sərgüzəştləri” əsəri “Tom Soyerin sərgüzəştləri” romanının davamı kimi qələmə alınıb. Əsərdəki hadisələr Tom Soyerin dostu Haklberri Finnin dili ilə rəvayət edilir. Kitabda Missisipi çayı sahilində yaşayan insanların və təbiət mənzərələrinin parlaq təsviri öz əksini tapmışdır. “Haklberri Finin sərgüzəştləri” oxucuların böyük marağına səbəb olub. Haklberri Finn on üç və ya on dörd yaşında bir oğlandır. O, sərxoş atası tərəfindən tərbiyə olunub, cəmiyyətlə çətin üzləşir. Tom Soyer Haklberrinin ən yaxşı dostu və həmyaşıdıdır. Haklberrinin atası “Qoca” Finn alkoqol aludəçisidir. O, Haklberrini tez-tez döyür. Haklberri təhsilli oğlan kimi davrananda və ya geyinəndə atası əsəbləşir. Spirtli içkilərə pul çatmayanda da atasına müraciət edir.

Hekayənin dili zəngin, müxtəlif arqumentlərlə doludur. M. Tvenin əsəri bəşər tarixinin ən incə hadisəsini - köləlik faciəsini məharətlə təsvir edir. Haklberri Finn (baş qəhrəman və hekayəçi) və onun dostu Tom Soyer hər biri əvvəlki macəraları (“Tom Soyerin sərgüzəştləri”ndə təsvir olunur) nəticəsində xəzinə əldə edirlər. Haklberri çəlləkdə yatır, məktəbə getmir, ümumiyyətlə, xoşagələn həyat tərzi keçirtmir. Bu baxımdan da digər valideynlər uşaqlarına Haklberri ilə dost olmağa icazə verilmir, lakin Tom Soyer qadağanı pozur. Bir çox sərgüzəştlərdən sonra Tom və Haklberri sərvət sahinbi olurlar, məhz bu sərvət Hekin həyatını alt-üst edir.

Tomla Hek biri-virilə dost olsalar da onların xarakterləri arasında köklü fərq var. “Ancaq tezliklə məlum olur ki, bu povestdə təsvir olunan Tomla Hek heç də bir-birinə bənzəmir. Tom daha çox oxuduğu kitabların təsiri altında macəralar xülyası ilə yaşayırsa, Hek (Haklberri) real həyata can atır, o, sərbəst olmaq, azad yaşamaq istəyir. Tom özünün uydurduğu dünyada yaşayır, Hekin həyatında isə romantik uydurma yoxdur” [5, səh. 10]. Atası sərxoş olduqdan sonra qəddarlaşan Haklberri evdən qaçır. O, Cekson adasında təhlükəsiz şəkildə məskunlaşır və burada Cim ilə tanış olur. Əsərdə verilən Cimi

obrazının zənci olması heç də təsadüfi bir əhəmiyyət kəsb etmirdi, Mark Tven bu əsərdə yaratdığı zənci obrazı ilə irqçiliyə qarşı çıxır. Köləlik o dövrdə Missuridə qanuni idi, bu baxımdan da əsərdə köləlik və irçilik məsələləri dövrün mühüm problemi kimi ortaya qoyulur. Cim İllinoysdan azad Ohayo ştatına keçməyi planlaşdırır. Cim və Hek əsərdə bir çox personajla üz-üzə gəlirlər. Hek və Cim yalnız qayığa minəndə həqiqətən azad idilər. Hersoq və Kralın gəlişi ilə məsələ dəyişir. Romanın sonunda Cim sərbəst buraxılır və Hek növbəti hekayəsinə hazırlaşır.

"Haklberri Finin sərgüzəştləri" kitabı ümumilikdə 43 fəsildən ibarətdir. Əsərin "Böyük Amerika Romanı" adlandırılması heç də təsadüfi deyildir. 2010-cu ilin noyabrına qədər bu kitab ABŞ-da 275 min nüsxə satıldı. Birləşmiş Ştatların ən böyük yumoristi Mark Tvenin bu kitabı ədibin uşaqlıq xatirələri ilə zəngindir. Yazıçı hələ sağlığında kəskin satira üslubunda yazdığı bir çox əsərlərinin kəskin tənqidi ilə üzləşməli oldu. Yaşadığı dövrdə dahi yazıçınnı əksər kitablarının çapına icazə verilmirdi. Bütün bunlara baxmaraq Mark Tven yaradıcılığı dünya ədəbiyyatında özünəməxsus yer tutur. Ümumiyyətlə, Tven dünya ədəbiyyatına felyetonlardan tutmuş tarixi romanlara qədər müxtəlif janrlarda 25 cilddən çox əsər miras qoymuşdur.

## ƏDƏBİYYAT


1. Dünya şöhrətli yazıçı - Mark Tven. F. Köçərli Adına Respublika Uşaq Kitabxanası Elmi Metodika Şöbəsi. Bakı 2010. 15 səh.
2. Qurbanlı A. Amerika ədəbiyyatı onun əsərindən doğulub - Mark Tven haqqında. https://www.kultura.az/az/article/2658/
3. Mark Tven. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyat", 2005, 464 səh.

4. Mark Tven. Şahzadə və dilənçi, Oskar Uayld. Nağıllar. B.: "Öndər nəşriyyat", 2005, 336 s.
5. Uşaqları sevindirən, böyükləri düşündürən – Mark Tven: Mark Tvenin 185 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 31 s

# PSİXOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Mirələm Vəliyev***

## ORTA MƏKTƏBDƏ SOSİAL-PSİXOLOJİ ATMOSFERİN ŞAGİRDLƏRƏ TƏSİRİ

***İsmayılova Ayşən İbrahim qızı***
***ADMİU-nun II kurs magistrantı***
***ayshan-ismayilova@mail.ru***

Məktəb elə bir sosial mühitdir ki, şagirdlər formal təhsilə başladıqları andan təhsilini tamamlayana qədər günlərinin çox hissəsini burada keçirir. Məktəbdə mənfi və ya müsbət atmosfer şagirdlərin akademik göstəricilərinə, dərsə davamiyyətinə, müəllimlər və həmyaşıları ilə münasibətlərinə təsir baxımından böyük rola malikdir. Həmin psixoloji iqlim mühiti şagirdlərin məktəb haqqında fikirlərinə birbaşa təsir göstərir.

Ada təhsil və təlimdə sinif atmosferi adlanan psixoloji mühitin bütün vəziyyətlərdən təsirlənən və eləcə də, təsir edən xüsusiyyətlərə malik olduğunu bildirir və vurğulayır ki, bu mühitin ilkin şərti münasibətlərin qarşılıqlı hörmət və sevgi üzərində qurulmasıdır [1, s.205]. Belə bir mühitdə fərdlərin cəzalandırılmasına, alçaldılmasına, ideyalarına qiymət verilməməsinə yer yoxdur. Xüsusilə məktəbə yeni başlayan şagirdlər üçün ailədən sonra ikinci əsas sosiallaşma prosesi məktəbdə baş verir. Məktəbdə şagirdlərin inkişafında müəllimlərin rolu danılmazdır. Şagirdin məktəbdə vaxtının böyük bir hissəsi müəllimlərlə şifahi və qeyri-verbal qarşılıqlı əlaqədə keçir. Hallinan araşdırmasında müəyyən etmişdir ki, müəllimin tələbələri dəstəkləməsi onların məktəbə cəlb edilməsinə güclü təsir göstərir [4]. Sosial və emosional dəstək

göstərməklə müəllimlər şagirdlərə məktəbi daha çox sevdirə bilər ki, bu da onların akademik göstəricilərini və sosiallaşma nəticələrini yaxşılaşdırar [5, s.99]. Erik Erikson özünün "İnkişaf mərhələləri" konsepiyasında 7-11 yaş dövründə uşaqların müəllimlər tərəfindən qiymətləndirilməyə ehtiyac duyduğunu qeyd etmişdi. Müəllimlərin uşaqların uğurlarını qiymətləndirməsi, uşaqlara sevgisi, qayğılı münasibəti, ehtiyatlı danışıq tərzi, ədalətli davranışı, uşaqların mənfi hərəkətləri ilə rastlaşdığı zaman onunla yumşaq danışaraq cəzalandırmadan məsələni həll etməsi və s. kimi müsbət keyfiyyətlər uşaqlarda müəllimə sevgi və hörmət hissinin yaranmasına, məktəbə bağlılığına, dərslərə maraqla hazırlaşmasına səbəb olur. Əgər müəllimlər bunların əksinə olaraq mənfi davranışlar sərgiləsə, o zaman uşaq dərslərdən və məktəbdən uzaqlaşacaq və ya mənfi davranışları mənimsəyəcək. Unutmaq olmaz ki, müəllim uşaq üçün məktəbdə ən birinci növbədə nümunə olmalıdır. Müəllim uşağın şəxsiyyətini, vəziyyətini nəzərə almalı, sinifdə uşağa maksimum məhəbbət iqlimi yaratmalıdır [2, s.291]. Sinif atmosferi şagirdlərin rahat, xoşbəxt olmaqlarını, özlərini təhlükəsiz və dəyərli hiss etməklərini təmin etməlidir. Müsbət sinif iqlimi demokratiya başda olmaqla, fərdlər arasında qarılıqlı əlaqələrdən asılıdır [ 3, s.2]. Nəzərə alsaq ki, hər bir şagird fərqli ailədən gəlir və fərqli tərbiyə ilə böyüdülüb, o zaman sinifdə hörmət prinsipi əsasında qarşılıqlı münasibətlərin qurulması və qorunması müəllimin öhdəliyinə çevrilir. Bir sıra tədqiqatçılar məktəb sosial iqliminin müxtəlif kontekstual xüsusiyyətlərinin zorakılığa təsirinin araşdırılmasına yönəlib. Məsələn, yüksək konfliktli və qeyri-mütəşəkkil məktəblər, məktəb mühitində nəzarətin aşağı səviyyəsi və ya sərt intizam, təhlükəsizlik problemləri, məktəbə zəif bağlılıq və həmyaşıların mənfi qarşılıqlı əlaqəsi zorakılığın daha yüksək nəticələri ilə əlaqələndirilmişdir. Üstəlik, müəllimlər və şagirdlər arasında qarşılıqlı müsbət münasibətlər

məktəb dəyərlərinin şagirdlər tərəfindən qəbul edilməsi ehtimalını və onların davranış adaptasiyasını artırır [6, s.2353]. Belə halda, ideal məktəb mühiti necə olmalıdır? İdeal məktəb mühiti şagirdləri emosional, sosial və akademik cəhətdən uğura çatdırmalıdır [3, s.3]. Şagird məktəbdən həm nümunəvi davranışlar öyrənməli, həm də dərslərində yüksəlməyə meyil etməlidir. Sinifdə iqlim elə qurulmalıdır ki, şagirdlər həmyaşıdlarına düşmən deyil, dost kimi yanaşsın, müəllimlərini müsbət nümunə olaraq görsün və məktəbi sevsinlər.

Belə bir nəticəyə gəlirik ki, məktəbin ümumi atmosferi sinifdə qurulan psixoloji iqlim mühitindən asılıdır. Bu iqlim isə şagirdin bütün məktəb həyatına və məktəbdən sonra gələcəyinə əhəmiyyətli təsir göstərir. Şagird məktəbdə gördüklərini kənarda tətbiq edir. Buna görə də hər bir müəllim həm dərslərinin səmərəli olması naminə, həm də gələcəyə sağlam gənclər bəxş etmək üçün müsbət məktəb mühitinin formalaşmasına töhfə verməlidir.

## ƏDƏBİYYAT

1. Ada Ş. – “Sınıf içi olası sorunlara karşı alınabilecek önlemler”, 2002
2. Ağahüseyn Həsənov, Əjdər Ağayev - “Pedaqogika”, Bakı 2007
3. Bahadır Gülbahar - “ İdeal Sınıf Atmosferi Algı Ölçeğinin Geliştirilmesi: Geçerlik ve Güvenirlik Çalışması”, 2017, LAMBERT Academic Publishing, Sosyal Bilimlerde Güncel Yaklaşımlar
4. Hallinan T. M – Teacher influences on student’s attachment to school”, Sociology of Education, 81(3), 271-283
5. Mediha Sarı: Empatik Sınıf Atmosfero ve Arkadaşlara Bağlılık Düzeyinin Lise Öğrencilerinin Okul yaşam Kalitesine

Etkisi, Education Administration: Theory and Practice, 2012, cild 18, 95-119
6. Yusuf Bayar, Zehra Uçak - " School Social Climate and Generalized Peer Perception in Tranditional and Cyberbulling Status, Education Sciences: Theory & Practice 12(4), 2012, 2352-2358

## XÜSUSİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ ƏQLİ İNKİŞAFSIZLIĞI OLAN ŞAGİRDLƏRİN PEŞƏ – ƏMƏK HAZIRLIĞININ FORMALARI

***Abdullazadə Günel Tahar qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universitetin***
***Xüsusi təhsil kafedrasının II kurs magistrantı***

Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi təhsil məktəbi ümumi xalq təhsili sisteminin həlqələrindən biri olmaqla həmin şəxslərin cəmiyyətdəki sosial-hüquqi vəziyyətini müəyyən edir, təhsil almaq üçün onlara bərabərhüquqlu şərait yaradır. Xüsusi təhsilin əsas istiqaməti bu uşaqların tam yaşayıb işləməsi üçün tərbiyə və təhsilə qayğı göstərməkdən ibarətdir. Xüsusi təhsil məktəbində sağlamlıq imkanları məhdud məktəblilərin müstəqil həyata hazırlanması böyük əhəmiyyət kəsb edir. Bu proses aşağı siniflərdə ekskursiyalar və fənn dərsləri zamanı ətrafdakı reallığın obyektləri və hadisələri ilə tanışlıq prosesində, yuxarı siniflərdə - sosial yönümlü xüsusi siniflərdə, habelə ümumi təhsil sistemində həyata keçirilir. Xüsusi məktəbdə təhsil xüsusi proqramlar və dərsliklər əsasında həyata keçirilir. Sağlamlıq imkanları məhdud məktəblilərin öyrədilməsi üçün xüsusi metod və üsullar hazırlanır. Məktəblilərin əqli və fiziki inkişafındakı çatışmazlıqların korreksiyası dedikdə, bu çatışmazlıqların aradan qaldırılması və ya zəiflədilməsi bu uşaqların inkişafının normal məktəblilərin inkişaf səviyyəsinə

mümkün qədər yaxınlaşdırılmasına köməklik nəzərdə tutulur. Sağlamlıq imkanları məhdud məktəblilərə xas olan inkişaf çatışmazlıqlarının korreksiyasının effektivliyi məktəbdə bütün tədris prosesinin düzgün formalaş-dırılmasından və xüsusi tədris metodlarından istifadə edilməsindən asılıdır.

Xüsusi təhsil məktəbində əmək təlimi peşə yönümlüdür. Əmək təliminin vəzifəsi şagirdləri əməyə ümumi hazırlıq vəziyyətində tərbiyə etmək və onlara müəyyən peşə üzrə texniki və texnoloji bilik, bacarıq və vərdişlər sistemi haqqında məlumat verməklə həll olunur. Məktəblilərdə öyrənilən peşəyə sabit müsbət münasibət formalaşır. Əmək hazırlığı müxtəlif peşə növləri üzrə həyata keçirilir. Hər bir konkret məktəbdə əmək təliminin növləri şagirdlərin təhsil və əmək imkanları, məktəbin istehsalat mühitinin şəraiti, iş təcrübəsinin keçirilməsi imkanları, habelə işçilərin məşğulluq imkanları nəzərə alınmaqla yerli xalq təhsili orqanları tərəfindən müəyyən edilir. Xüsusi təhsil məktə-bində əmək tərbiyəsinin səmərəliliyi əsasən onun təşkilindən asılıdır. Eyni zamanda, şagirdlərin fəaliyyətinin təşkilinin fərdi, fərdi-qrup və kollektiv formaları birləşdirilir. Uşaqlar onlar üçün mövcud olan bütün əmək fəaliyyəti növlərinə daxil edilirlər. Tədricən daha mürəkkəb əmək növlərinə və onun təşkili formalarına keçirlər. İnkişaf pozulması olan uşaqların xüsusi təhsilinin əsas istiqamətlərindən biri onlara əmək təlimi almaq üçün real və səmərəli mühit imkanların yaradılmasıdır. Bu onunla əlaqədardır ki, məktəb məzunlarının əksəriyyəti üçün yalnız xüsusi ümumtəhsil məktəblərində peşə hazırlığına, korreksiyaya, əqli və fiziki inkişafının kompensasiyasına yönəlmiş əmək təlimi təmin edir.

Sağlamlıq imkanları məhdud uşaqların normal inkişaf edən həmyaşıdları ilə müqayisədə əmək təlimindəki fərqlər deviant inkişafı korreksiya və məzunları cəmiyyətin iqtisadi inkişafının müasir şəraitində iş həyatında tam iştiraka hazırlamaq üçün onun gücləndirilməsi zərurətindən irəli gəlir. İnkişaf pozulması

olan məktəblilərin əmək təliminin vəzifələri bunlardır: işə motivasiyalı, həyati maraq göstərən münasibət və müvafiq şəxsi keyfiyyətlərin formalaşdırılması; fiziki və əqli inkişafda olan çatışmazlıqların əmək təlimi yolu ilə korrekisyası və kompensasiyası; məktəb məzunlarına istehsalatda işləməyə imkan verən məhsuldar əmək üçün peşə hazırlığı. Bu tapşırıqlar öz əqli və psixofiziki xüsusiyyətlərinə, imkanlarına görə onların ümumi təhsil, əmək təlimi ilə təmin olunmasında ən çox çatışmayan sağlamlıq imkanları məhdud məktəblilərə münasibətdə xüsusi əhəmiyyət kəsb edir.

Xüsusi məktəbləri məzunlarının gələcək taleyi problemlidir, çünki onlar əmək bazarında normal inkişaf edən həmyaşıdları ilə rəqabət apara bilmirlər, çünki məktəblilər, bir qayda olaraq, peşəkar bacarıqların inkişafına mane olan müşayiət olunan psixo-nevroloji, fiziki və somatik ağırlaşmalara malik ola bilirlər. Sağlamlıq imkanları məhdud məktəblilərdə yaddaş və təfəkkür xüsusiyyətləri texniki və texnoloji biliklərin formalaşmasında çətinliklərə səbəb olur ki, bu da öz növbəsində bilik və bacarıqların şüurluluğuna və hərəkətliliyinə təsir göstərir. Alimlərin araşdırmaları göstərdiyi kimi, sağlamlıq imkanları məhdud məktəblilərin peşə hazırlığı sisteminin və metodlarının təkmilləşdirilməsi təkcə onların təhsili üçün istifadə olunan texnologiyanın səmərəliliyindən deyil, həm də peşə hazırlığı olan təhsil müəssisəsinin təhsil sisteminin özünü təşkil etməsindən asılıdır. Sağlamlıq imkanları məhdud məktəblilər üçün peşə hazırlığı sisteminin inkişafı cəmiyyətimizin yeni sosial-iqtisadi şəraitində xüsusi təhsiln məktəblərinin şagirdlərinin əmək bazarına çıxarılmasının uğurunu və onun bu məktəblilərə münasibətini təmin etməlidir.

## ƏDƏBİYYAT

1. Васенков Г.В. Формы и методы профессионально-трудовой подготовки умственно отсталых учащихся в новых экономических условиях // В сб. Инновации в Российском образовании (коррекционная педагогика).- М.; 1999.
2. Дульнев Г. М. Основы трудового обучения во вспомогательной школе. – М.: Просвещение, 1969.
3. Титова, Я. Б. "Уроки трудового обучения для детей с ограниченными возможностями здоровья: опыт работы" / Я. Б. Титова. — Текст: непосредственный // Школьная педагогика. — 2019. — № 3 (16).

## POSTTRAVMATİK STRESSİN YARATDIĞI FƏSADLAR

***Babazadə Aytən***
***BDU-nun II kurs magistrantı***
***babazade.aytan@gmail.com***

Posttravmatik stress pozuntusu (PTSP) şok, qorxulu və ya təhlükəli bir hadisə yaşamış bəzi insanlarda inkişaf edən bir xəstəlikdir.

Travmatik vəziyyət zamanı və sonrasında qorxu hiss etmək təbiidir. Qorxu, təhlükədən qorunmaq və ya ondan qaçmaq üçün bədəndə bir neçə saniyəlik dəyişikliklərə səbəb olur. Bu «savaş və ya uçuş» cavabı insanı zərərdən qorumaq üçün xarakterik bir reaksiyadır. Təxminən hər kəs travmadan sonra bir sıra reaksiyalar yaşayacaq, lakin insanların çoxu ilkin simptomlardan təbii şəkildə sağalır. Problemləri yaşamağa davam edənlərə PTSP diaqnozu qoyula bilər. PTSP olan insanlar, hətta təhlükə altında olmadıqda belə, stresli və ya qorxmuş hiss edə bilərlər (2).

Travma almış insanların əksəriyyəti, lakin hamısı deyil, qısa müddətli simptomlarla qarşılaşsa da, əksəriyyəti davamlı (xroniki) PTSP inkişaf etmir. PTSP olan hər kəs təhlükəli bir hadisədən keçməmişdir. Sevilən birinin qəfil, gözlənilməz ölümü kimi bəzi təcrübələr də PTSP-yə səbəb ola bilər. Semptomlar adətən erkən, travmatik hadisədən 3 ay sonra başlayır, lakin bəzən illər sonra başlayır. Semptomlar bir aydan çox davam etməli və PTSP hesab edilmək üçün əlaqələrə və ya işə müdaxilə edəcək qədər şiddətli olmalıdır. Xəstəliyin gedişi fərqlidir. Bəzi insanlar 6 ay ərzində sağalır, bəzilərində isə daha uzun müddət davam edən simptomlar olur. Bəzi insanlarda vəziyyət xroniki olur.

Tipik olaraq, PTSP olan bir şəxs davamlı olaraq travma ilə əlaqəli düşüncələrdən və duyğulardan qaçır və travmatik hadisəni müzakirə edir və hətta hadisə ilə bağlı amneziya əlamətləri göstərə bilər. Bununla belə, hadisə adətən müdaxilə edən, təkrarlanan geri dönüşlər və kabuslar vasitəsilə canlandırılır.

Hər kəs hər yaşda PTSP inkişaf edə bilər. Buraya müharibə veteranları, uşaqlar və fiziki və ya cinsi təcavüzə, zorakılığa, qəzaya, fəlakətə və ya digər ciddi hadisələrə məruz qalmış insanlar daxildir. PTSP üçün Milli Mərkəzin məlumatına görə, hər 100 nəfərdən təxminən 7 və ya 8-i həyatının bir nöqtəsində PTSP ilə qarşılaşacaq. Qadınlar kişilərə nisbətən PTSP inkişaf etdirmək ehtimalı daha yüksəkdir və genlər bəzi insanların PTSP inkişaf etdirmə ehtimalını digərlərindən daha çox edə bilər.

PTSP olan hər kəs təhlükəli bir hadisədən keçməmişdir. Bəzi insanlar bir dost və ya ailə üzvü təhlükə və ya zərərlə qarşılaşdıqdan sonra PTSP inkişaf etdirir. Sevilən birinin qəfil, gözlənilməz ölümü də PTSP-yə səbəb ola bilər.

PTSP simptomları travmatik bir hadisəyə həddindən artıq reaktiv adrenalin reaksiyası nəticəsində beyində dərin nevroloji iz buraxır. Bu nümunələr stress reaksiyasına səbəb olan

hadisədən sonra uzun müddət davam edə bilər və bu, insanı gələcək oxşar vəziyyətlərə daha həssas edir. Travmatik təcrübələr zamanı yüksək səviyyəli stress hormonları hipotalamusun fəaliyyətini boğur, bu da PTSP inkişafında əsas amil ola bilər.

PTSP beyində və bədəndə depressiya kimi digər psixi pozuntulardan fərqli olan biokimyəvi dəyişikliklərə səbəb olur. PTSP diaqnozu qoyulmuş şəxslər, klinik depressiya diaqnozu qoyulmuş şəxslərə nisbətən deksametazon supressiya testinə daha güclü cavab verirlər. PTSP olan insanların əksəriyyəti aşağı kortizol sekresiyası və yüksək sidik katekolamin ifrazı nümayiş etdirir. Beyində yüksək səviyyəli katekolamin və kortikotropin lizinq faktoru konsentrasiyaları yüksəkdir. Bu məlumatlar hipotalamus-hipofiz-adrenal sistemin oxunda anomaliya olduğunu göstərir (2).

Tədqiqatlar göstərir ki, PTSP-dən əziyyət çəkən insanlarda narahatlıq, əsəbilik, aqressivlik, intihar və dürtüsellik kimi ümumi əlaqəli davranış əlamətlərinə kömək edən xroniki olaraq aşağı serotonin səviyyələri var. Serotonin də qlükokortikoidlərin istehsalını sabitləşdirməyə kömək edir.

PTSP olan bir insanda dopamin səviyyələri simptomların inkişafına kömək edə bilər. Aşağı dopamin səviyyələri anhedoniya, apatiya, diqqət pozuntusu və motor çatışmazlığına səbəb ola bilər. Yüksək dopamin səviyyələri psixoz, həyəcan və narahatlıq yarada bilər.

Amigdala xüsusilə qorxu ilə əlaqəli olan emosional xatirələrin formalaşmasında fəal iştirak edir. Yüksək gərginlik dövründə xatirələrin məkan və zamanın düzgün kontekstində yerləşdirilməsi ilə əlaqəli olan hipokampın fəaliyyəti sıxışdırılır. Bir nəzəriyyəyə görə, belə hal PTSP olan insanlara təsir edə biləcək xatirələrin səbəbi ola bilər. PTSP olan biri travmatik bir hadisəyə bənzər stimullara məruz qaldıqda, yaddaş heç vaxt düzgün qeyd olunmadığı üçün bədən hadisənin yenidən baş verdiyini qəbul edir (2).

Klinik təsnifatda sindrom müəyyən şərtlər altında, bir sıra səbəblərə görə (fərdi dəyişikliklər baş verə bilər) xəstədən xəstəyə müntəzəm olaraq baş verən simptomlar və əlamətlər toplusu kimi müəyyən edilir. Bu tərifdə PTSP, travmatik stressorlara və ya insanın gündəlik təcrübələrinin normal diapazonundan kənarda qalan bir sıra travmatik stress təcrübələrinə məruz qaldıqdan sonra baş verən davranış və emosional pozğunluqların sindromudur.

PTSP hər hansı bir cins və ya yaşa məhdudlaşdırılmır. Hər kəs, kişi və ya qadın, uşaq və ya böyüklərdə PTSP inkişaf edə bilər. Ancaq həmişə eyni simptomlara sahib olmaya bilərlər. Uşaqlarda posttravmatik stress pozğunluğunun simptomları aşağıdakılarla özünü göstərə bilər:

- Enurez;
- Danışmağı unutmaq kimi geriləmə davranışı;
- Səbəbsiz göz yaşlarına və ağlamağa meylli;
- Qaraltılar çəkmək, kədərli şeyləri ifa etmək - adətən, bu, onların çəkdikləri travmanı ifadə etmək üsuludur.

Genetika, dözümlülük, ətraf mühit, travmaya məruz qalma tarixi və sosial dəstək kimi bəzi amillər bəzi insanların PTSP-nun inkişaf etməsində rol oynaya bilər. İnsanlar isə eyni travmatik hadisədən keçsələr belə, hər bir şəxsdə travmaya münasibət bu amillərdən asılı olaraq müxtəlif olur. Məsələn, təcavüzə məruz qalan və baş verənlər barədə ailəsinə sirrini deyə bilən, onların sevgi və dəstəyini alan bir qız, çox güman ki, terapevtlə danışmaq üçün, mühakimə qorxusundan və ya dəstək sistemi və müraciət edəcəkləri heç kim olmadığı üçün bu barədə danışa bilməyən bir qızdansa baş verənlərlə daha yaxşı vəziyyətdə məşğul olacaq.

PTSP gözlənilməz bir xəstəlikdir, çünki dərhal inkişaf etmir. Simptomlar bir neçə həftədən bir neçə aya və ya hətta illər sonra özünü göstərməyə başlaya və uzun bir müddətdə inkişaf edə bilər [4].

PTSP-i müəyyən etmək çətin ola bilər, çünki yalnız müəyyən simptomları vardır ki, digər xəstəliklərə aid edilə bilməz, əksər simptomlar başqa xəstəliklərdə də müşahidə olunur. PSTP həm də beyninizdə və zehninizdə böyük ölçüdə oynayan bir xəstəlikdir. Pozuntunun şiddətindən və yaşanan travmadan asılı olaraq insanlar ətraf aləmə müəyyən fiziki reaksiyalar göstərə bilər. Məsələn, kimsə təyyarə qəzası keçiribsə, bir yerə uçmaq və ya yenidən təyyarəyə minmək fikri ilə qarşılaşdıqda tər tökə və ya panik atak keçirə bilər.

DSM 5-ə əsasən, Posttravmatik Stress Pozuntusu diaqnozu aşağıdakı meyarların hər birindən ən azı bir və ya daha çox simptom yerinə yetirildikdə qoyulur.

Stressor. Travmaya nə səbəb oldu? Bu meyar fərdin travmatik hadisəyə necə və hansı şəkildə məruz qaldığına baxır. Onlar: Birbaşa iştirak edir?, Qurban rolunda olub?, Onlar travmatik hadisənin şahidi olublarmı?, Travma bir ailənin və ya sevilən birinin başına gəlib?, İşi ilə əlaqədar məruz qaldılarmı? Məsələn, polis işçiləri, həkimlər, veteranlar və s.

Müdaxilə. Xəstə travmatik hadisəni ağlından çıxarmaq üçün çox cəhd etsə də, qorxulu hadisə tez-tez təxmini olaraq gündəlik hadisələrdə və ya gecə qorxulu yuxularda müdaxilə edən obrazlar şəklində şüura yol tapmağa çalışır. Ekstremal hallarda, xəstə həmin hadisəyə xəyalında geri dönmələr yaşaya bilər və ya qavrayış və emosional səviyyədə travmatik səhnəyə qayıda bilər, bəzən cari reallıqla əlaqəni itirir. Bunlar özünü aşağıdakı hallarda biruzə verir:

- Qarabasmalar və geri dönmələr;
- Narahat edən xatirələr,
- Onlara travmanı xatırladan bir şeylə qarşılaşdıqlarında emosional və fiziki narahatlıqlar yaşamaq. Bəzən travmatik hadisənin ildönümləri də qıcıqlandırıcı fəaliyyət göstərir.

Qaçma və inkar. Travmatik hadisə haqqında düşünməkdən çəkinir, hadisəni xatırladacaq məqalələr, radio proqramları, televiziya proqramları görmək istəmir. “Mən bu hadisə barədə

danışmaq istəmirəm”. Bu standart cavabdır və xəstə hadisənin vacib hissələrini unutmaq istəyir. Bunlardan bəziləri travmatik hadisə haqqında xatırlatmalardan qaçmaq üçün şüurlu cəhdlər, digərləri isə gələn təhlükə stimuluna qarşı donma təmin edən şüursuz davranışlardır.

Düşüncə və əhval-ruhiyyədə baş verən dəyişikliklər. Bunlara aid edilir: Travmatik hadisə baş verdikdən sonra başlayan, daha da pisləşən düşüncələr, duyğular və hisslər, məsələn: Sosial və ya gündəlik fəaliyyətlərə marağın olmaması; təcrid hissinin getdikcə artması; başqalarından uzaqlaşmaq; özləri və ətrafdakı hər şey haqqında mənfi və aşağı qiymətləndirmə; müsbət şeylər haqqında düşünməkdə çətinlik çəkmək və ya ümumiyyətlə müsbət hiss etmək; travmatik hadisə ilə bağlı əsas detalları xatırlamaqda çətinlik; travmatik hadisədə özünüzü və ya başqalarını günahlandırmaq. Müzakirə olunan simptomlardan ən azı ikisi bu meyarlara cavab verməlidir.

Reaktivlik və Oyanma Simptomları: Travmaya bağlı, ağırlaşan və ya yalnız travmatik hadisə baş verdikdən sonra başlayan reaksiyalardır. Aşağıdakı simptomlardan ən azı biri mövcud olmalıdır:

- Aqressiv və ya əsəbi davranışlar göstərmək;
- Yuxu problemləri;
- Diqqətin mərkəzləşməsi və davamlılığı ilə əlaqəli problemlər;
- Riskli və ya təhlükəli qeyri-adi və dağıdıcı davranışların olması;
- Artan oyanıqlıq və daim bir təhlükə hissi və ya birinin onlara hücum edib və zərər verə biləcəyi hissi;
- Asanlıqla qormağa və ya diksinməyə meyilli olmaq.

Narahatlıq. Xəstə daim artan narahatlıq və narahatlığın sərbəst üzən vəziyyətini təsvir edir. Dəhşətli bir şeyin baş verəcəyinə dair daimi, içində hər hansısa bir narahat bir hiss var. O, ətraf aləmdə yaranan müəyyən təhlükələrə qarşı həddən

artıq diqqət edir. Panik atak təsadüfi və ya tez-tez baş verə bilər.

Fizioloji stimullaşdırma. Xəstənin avtonom sinir sistemi hər zaman qırmızı həyəcan vəziyyətindədir. Onlar əzələ gərginliyi və ya «düyünlər», sarsıntı və ya titrəmə, narahatlıq, yorğunluq, ürək döyüntüsü, tənəffüs çətinliyi, huşunu itirmə, baş ağrıları, mədə ağrıları, bağırsaq pozğunluqları və ya menstrual dövrü ilə bağlı problemlər şəklində artan bədən stressini yaşayırlar. PTSP xəstələrinin təxminən yarısı da diksinmə reaksiya verir. Klassik gözlənilmədən qapı döyüldükdə, zəng çaldıqda və ya sadəcə onların adı ilə çağırılanda xəstə qəfildən həqiqətən də stuldan “tullana” bilər, bir neçə dəqiqə qorxu və narahatlıqdan titrəyərək keçir.

Qıcıqlanma. Daim qəzəb hissi, səbirsizlik, yumor hissini itirmə, xırda məsələlərdə belə əsəbilik müşahidə olunur. Dostlar onu əsəbiləşdirə bilər, iş yoldaşları xəstəyə qarşı ehtiyatlı ola bilər, ailə üzvləri müdaxilə edə və ya uzaqlaşa bilər. Xüsusilə ən çox rast gəlinən şikayətlərdən biri də xəstənin uşaq səs-küyünə və ailənin yorucu suallarına qarşı həssaslığının artmasıdır.

Təkrarlanan qarabasmalar. Yuxu bir az səthi ola bilər. Bəzən xəstənin qarabasmalarında ilkin travmatik hadisən təkrarlana bilər; əsasən, yuxular hadisənin ümumi mövzusunu əks etdirir, lakin əsas kontekstlərdən kənaraçıxma halları ola bilər. Məsələn, yol-nəqliyyat hadisəsi nəticəsində travma alan xəstə onun uçurumdan yıxıldığını və ya divarın üstünə düşdüyünü; cinsi zorakılığa məruz qalan bir şəxs vəhşi itlərin hücumuna məruz qaldığını və ya çirkli hovuzda boğulduğunu görə bilər. Yuxu materialının simvolik şəkildə yenidən qurulması, şübhəsiz ki, Freydin psixoanalitik nəzəriyyəsinin əsas sütunlarından biridir.

Konsentrasiya və Yaddaşın pozulması. Şəxs «çaşqın», «beynin dumanlanması» və ya «başgicəllənməsi» olduğundan şikayət edə bilər. O, adları xatırlamaqda, əşyaları səhv

yerləşdirməkdə, söhbətin gedişatına, işə, hər hansı materialı oxumağa, ailə fəaliyyətinə və s diqqətini yönəltməyə çətinlik çəkə bilər. Xəstə beyin zədəsi olduğundan narahat ola bilər və ya «ağlımı itirirəm» deyə düşünə bilər.

Cinsi meyl pozuntuları. PTSP qurbanlarının 10-dan çoxu cinsi fəaliyyətin və ya marağın olmadığını bildirir. Bu, onsuz da gərgin olan evlilik münasibətlərini daha da gərginləşdirməyə səbəb ola bilər. Bəzi hallarda xüsusən də travmatik hadisə cinsi təcavüzlə əlaqəli olarsa cinsi zəiflik və ya soyuqluq baş verə bilər.

Geri çəkilmə və ya izolyasiya. Xəstə dostlarından, qonşularından, ailəsindən çəkinə və ya sadəcə tək qalmaq istəyə bilər. Gündəlik həyatın lazımsız narahatlıqlarına heç səbrləri olmur -hesabatlar, qeybətlər, xəbərlər kimi- və bu cür şeylərlə darıxdıqda əsəbiləşə bilər. Onun rədd etdiyi ağrı hissləri qisas almaq üçün qaçışlara səbəb ola bilər; bu, rədd edilmə və qarşılıqlı ittihamın sonsuz dövrünü yaradır.

Dürtmələnmək və Qərarsızlıq. Daha nadir hallarda travmadan sağ qalanlar qəfil məzuniyyətə çıxa, bir yerdən başqa yerə köçə, işi tərk edə, içki masasında sərxoş ola, qumar oynaya və ya romantik görüşlərə gedə, həddindən artıq pul xərcləyə və ya təhlükəli fiziki və kimyəvi risklər götürə bilər. Bu, travmanın xəstəni, “Həyat qısadır!” düşüncəsinə yönəltməsidir. Açıq-aşkar məsuliyyətsiz davranışın hər bir nümunəsi üçün travma günahlandırıla bilməz, lakin bu cür fəaliyyətlər şəxsin xarakterindən kənardırsa və müəyyən edilə bilən travmatik hadisəni izləyirsə, travma ilə hər hansısa bir əlaqəsindən şübhələnmək olar. Bununla belə, travmadan sağ çıxanların çoxu belə həyatdan uzaq, darıxdırıcı, yorğun bir sükut içində yaşayırlar (3).

Müharibə cəmiyyətdə və fərddə müxtəlif sahələrdə dəyişikliklərə səbəb olur. Bir çox ruhi xəstəliyin ortaya çıxması, cəmiyyətdə və fərdlərdə şiddət və təcavüzün artması, əsas insani dəyərlərin itirilməsi, fərdin özündən və əlaqəli

olduğu cəmiyyətdən uzaqlaşması və inkişafının mənfi və daimi təsirləri. şəxsiyyətin inkişafı ilə bağlı yeni nəsillər bu dəyişikliklərin başlıca səbəbləridir. Posttravmatik stress pozuntusu (PTSP), depressiv pozuntu, ümumiləşdirilmiş narahatlıq pozuntusu və alkoqol/maddə istifadəsi pozuntuları müharibədən sonra baş verən psixiatrik xəstəliklərdir (3).

PTSP, travmatik hadisədən sonra hadisəni yenidən yaşamaq simptomları ilə xarakterizə olunan, şiddətli bir qorxu və daim təhlükədə olmaq kimi hislər yaşayan, hadisə ilə əlaqədar vəziyyətlərdən qaçan və həddindən artıq qorxu ilə xarakterizə olunan ruhi bir xəstəlikdir. PTSP, müharibədən sonra ən çox yayılmış psixiatrik xəstəliklərdən biridir və digər psixi pozuntular da tez-tez rast gəlindiyi aşkar edilmişdir.

Kriteriyalara cavab vermək üçün simptomlar (PTSP olan insanların travmatik xatirələrini və onun emosional məzmununu tənzimləməkdə yaşadıqları gizli çətinlikləri üstələyir) ən azı 1 ay davam etməli və funksional pozğunluğa səbəb olmalıdır. Xəstəliyin müddəti PTSP-nin kəskin (< 3 ay), xroniki (> 3 ay) və ləngimə ilə differensiallaşdırılması üçün əsas verir, simptomologiyanın başlanğıcı travmadan 6 aydan artıqdır. Mübarizə nəticəsində yaranan PTSP nadir hallarda simptomların gec başlaması, xroniki kurs, gecikmiş yardım axtarma davranışı və əhəmiyyətli xəstələnmə ilə əlaqələndirilmir. ABŞ-da kişilərdə görülən PTSP-nin böyük bir hissəsini birbaşa döyüşə məruz qalma təşkil edir. Zorakılıq və ölümün nəticələrinin şahidi olmaq kimi dolayı məruz qalmanın narahatlıq, qəzəb və aqressiv davranış və somatik şikayətlər, həmçinin PTSP üçün risk yaratdığı göstərilmişdir (1).

Məsələn, həm genetik amillər, həm də ortaq bədbəxtliklər və ailə narahatlıqları riskə səbəb olur. Müharibə zonasının tələbləri və həyat üçün təhlükənin dərk edilməsi də uzunmüddətli adaptasiyanın vacib determinantlarıdır. Bundan əlavə, döyüş təcrübələrinin spesifik xarakteri (məs. tezliyi və ekspozisiyanın intensivliyi), bu təcrübələrə dərhal subyektiv

reaksiyalar, kəskin gərginlik reaksiyalarının miqyası bütün bunlar döyüş növlərində PTSP-nin inkişafı ilə sıx bağlı olmuşdur. PTSP-nin inkişafı üçün bütün bir sıra risk faktorları empirik olaraq təsdiqlənsə də, müdafiə amilləri üzərində yalnız bir neçə sistematik sorğu mövcuddur. Müdafiə amillərindən biri sosial dəstəkdir. Sosial dəstək və PTSP-nin inkişafı arasındakı əlaqə bir araşdırmada göstərdi ki, insanlararası zorakılığa məruz qalan dinc əhali ilə müqayisədə döyüş veteranlarında çox möhkəmdir. Cəmiyyətdə fəal iştirak edən veteranların da PTSP-nin inkişaf etmə ehtimalının az olduğu düşünülür (1).

Araşdırmalar PTSP diaqnozu qoyulan qrupun 84% -nin ən az bir başqa psixi pozuntu üçün diaqnostik meyarlara cavab verdiyini bildirmişdir. Ən çox görülən müşayiət olunan xəstəlik alkoqol/ narkotik maddə istifadəsi pozuntularıdır (4).

PTSP ilə alkoqol/narkotik maddə istifadəsi pozuntuları arasındakı əlaqə Vyetnam qaziləri və vətəndaş nümunələri üzərində aparılan araşdırmalarda bildirilmişdir. Ancaq tədqiqatlar araşdırıldıqda, bu əlaqəni izah edən mexanizmlərin hələ də yetərli olmadığı anlaşılır. Bu əlaqəni izah edə biləcək bir neçə mexanizm müzakirə olunur. Genetik faktorlar, ətraf mühit faktorları, sosyodemoqrafik xüsusiyyətlər, travma növü, travmanın xüsusiyyətləri və fərd tərəfindən necə qəbul edildiyi hələ də müzakirə olunan ən əhəmiyyətli problem sahələridir (4).

Digər tərəfdən, mədəni fərqlərin alkoqol istifadəsinin yayılmasına və onu müşayiət edən digər psixi xəstəliklərə də təsir göstərdiyi vurğulanır. Bununla birlikdə, bu sahədə tədqiqatlar əsasən aparılır.

Müharibədə, bir çox əsgər əziyyət çəksə və təcrübələri ilə çətinlik çəksə də, onlardan yalnız bəzilərində PTSP inkişaf edir. Başqa sözlə, müharibə travmasına məruz qalma PTSP-nin yaranması üçün zəruri, lakin kifayət deyil. Hazırda veteranlarda şəxsiyyətdaxili, tarixi və ətraf mühit amillərinin, eləcə də

posttravmatik bərpa dəyişənlərinin PTSP-nin yaranmasında müharibə travmasına məruz qalma kimi vacib olduğunu göstərmək üçün inandırıcı tədqiqatlar var.

## ƏDƏBİYYAT


1. War and post-traumatic stress disorder/ March 2006 /South African Journal of Psychiatry
2. https://probolezny.ru/rasstroystvo-stressovoe-posttravmaticheskoe/
3. https://www.betterhelp.com/advice/stress/what-is-post-traumatic-stress-disorder-dsm-5-criteria-symptoms-and-treatment
4. https://www.nimh.nih.gov/health/topics/post-traumatic-stress-disorder-ptsd


## ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ШКОЛЬНИКОВ С ГИПЕРАКТИВНОСТЬЮ И ДЕФИЦИТОМ ВНИМАНИЯ


***Джабарова Малейка Агасадыг г.***
***магистрант II курса АГПУ***


Наиболее распространенной формой хронических расстройств поведения у детей является гиперактивность. По данным большинства зарубежных эпидемиологических исследований, его заболеваемость колеблется от 4% до 9,5% среди детей дошкольного и младшего школьного возраста. Синдром гиперактивности и дефицита внимания проявляется в виде моторного дефицита и импульсивного поведения. Импульсивность всегда наблюдается у гиперактивных детей, как в различных поведенческих ситуациях, так и при выполнении школьных заданий. Это выражается в том, что ребенок часто двигается, не задумываясь. С трудом дожидается своей очереди на занятиях, перебивает

других, неадекватно отвечает на вопросы, не дослушивает до конца. Он может самовольно вставать в классе, прерывать разговор или работу находящихся рядом людей, не соблюдать правила при игре со сверстниками. Из-за импульсивности гиперактивные дети могут попадать в опасные ситуации, не задумываясь о последствиях своих действий (вмешиваться в драки, убегать на обочину и т. п.). Но делают они это все бесцельно, импульсивно. Помимо гиперактивности в двигательной сфере, у таких детей обычно плохая координация движений, плохая моторика и плохое освоение практики.

Появление основных жалоб при синдроме дефицита внимания с гиперактивностью связано с ранним детским возрастом. С началом дошкольного воспитания (т. е. моментом резкого увеличения нагрузки на центральную нервную систему) заметен дефицит внимания. Ребенок невнимателен (часто теряет вещи, забывает сделать уроки), не может сосредоточиться более нескольких минут и не может сосредоточиться на том или ином виде деятельности, тревожен, легко отвлекается и быстро меняет род занятий. По словам учителей и родителей, дети не могут усидеть на месте во время уроков и при выполнении домашних заданий. Хотя эти проявления являются достаточно высоким интеллектом, они свидетельствуют о низкой успеваемости детей с дефицитом внимания и синдромом гиперактивности.

Лечение синдрома дефицита внимания и гиперактивности комплексное, включает поведенческие модификации с использованием специально разработанных для родителей и педагогов алгоритмов, методик психологической коррекции, психотерапии, медикаментозной терапии и немедикаментозных методов. Психолог совместно с педагогами и родителями проводит психологическую коррекцию эмоциональной сферы и поведения ребенка. Основная задача

родителей – обеспечить в целом эмоционально нейтральную среду для развития и воспитания ребенка. Педагог осуществляет процесс обучения ребенка с учетом рекомендаций специалистов, с учетом его индивидуального развития и особенностей поведения, семейного окружения. Только при таком комплексном подходе можно последовательно воспитывать и обучать гиперактивного ребенка, что способствует реализации потенциала ребенка и снижению его эмоционального напряжения.

Симптомы гиперактивности уменьшаются в подростковом возрасте, но сохраняются импульсивность и дефицит внимания. Подростки с дефицитом внимания и гиперактивностью неуверенны в себе, безответственны, неинициативны и по-прежнему не могут выполнять задачи в течение длительного периода времени, часто нарушая социальные нормы. Примерно 3-6% детей дошкольного и школьного возраста страдают синдромом дефицита внимания и гиперактивности, что свидетельствует о высокой социальной значимости проблемы и о том, что мальчики чаще страдают этим синдромом, чем девочки. Гиперактивность может исчезнуть «естественным образом» по мере взросления, но статистика показывает, что 70% детей с диагнозом гиперактивность в дошкольном и младшем школьном возрасте имеют сходные качества в подростковом возрасте, и риск общественно опасного поведения среди таких подростков очень высок.

## ЛИТЕРАТУРА

1. Заваденко Н. Н. Гиперактивность и дефицит внимания в детском возрате: учебное пособие для вузов. 2018.
2. Заломихина И. Ю. Синдром дефицита внимания с гиперактивностью у
детей. 2007.

# HİPERAKTİVLİK VƏ DİQQƏT DEFİSİTLİYİ OLAN KİÇİK MƏKTƏBYAŞLI UŞAQLARIN PSİXO-PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

***Əhmədli Nərgiz Ceyhun qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universitetin***
***Xüsusi təhsil kafedrasının II kurs magistrantı***

Xroniki uşaq davranış pozulmalarının ən çox yayılmış forması hiperaktivlikdir. Əksər xarici epidemioloji tədqiqatlara görə, məktəbəqədər və kiçik məktəbyaşlı uşaqlar arasında onun tezliyi 4 %-dən 9,5 %-ə qədərdir. Hiperaktivlik və diqqət defisitliyi sindromu motor sahədə olan çatışmazlıqlar və impulsiv davranış formasında özünü göstərir. Hiperaktiv uşaqlarda həm müxtəlif davranış vəziyyətlərində, həm də məktəb tapşırıqlarını yerinə yetirərkən impulsivlik daim müşahidə olunur. Bu, uşağın çox vaxt düşünmədən hərəkət etməsi ilə ifadə edilir. Sinifdə çətinliklə öz növbəsini gözləyir, başqalarının sözünü kəsir, sualları yersiz cavablandırır, sona qədər dinləmir. O, icazəsiz sinifdə yerindən qalxa, yaxınlıqdakı insanların söhbətinə və ya işinə mane ola, həmyaşıdları ilə oynayarkən qaydalara əməl edə bilməyə bilər. Hiperaktiv uşaqlar impulsivliyə görə öz hərəkətlərinin nəticələrini düşünmədən təhlükəli vəziyyətlərə düşə bilirlər (davalara qarışırlar, yolun kənarına qaçırlar və s.). Lakin onlar bütün bunları məqsədsiz olaraq, impulsiv şəkildə edirlər. Motor sferasında hiperaktivliklə yanaşı, bu cür uşaqlarda adətən hərəkətlərin koordinasiyası pozulur, incə motor bacarıqları və praktikası zəif formalaşır.

Diqqət defisitliyi və hiperaktivlik sindromu zamanı əsas şikayətlərin başlanğıcı kiçik məktəb yaşı dövrünə aiddir. Məktəbəqədər təhsilin başlanğıcı ilə (yəni, mərkəzi sinir sisteminə yükün kəskin artması anından) diqqət defisitliyi nəzərə çarpır. Uşaq diqqətsizdir (tez-tez əşyalarını itirir, ev

tapşırıqlarını yerinə yetirməyi unudur), bir neçə dəqiqədən çox diqqəti saxlaya bilmir və müəyyən fəaliyyət növünə cəmləşə bilmir, narahatdır, diqqəti asanlıqla yayındırır və məşğuliyyətini tez dəyişir. Müəllimlərin və valideynlərin qeyd etdiyi kimi, uşaqlar dərs zamanı və ev tapşırıqlarını həll edən zaman sakit otura bilmirlər. Bu təzahürlər kifayət qədər yüksək intellektə baxmayaraq, diqqət defisitliyi və hiperaktivlik sindromu olan uşaqların aşağı akademik göstəricilərini müəyyən edir.

Yeniyetməlik dövründə hiperaktivlik əlamətləri azalır, lakin impulsivlik və diqqət defisitliyi davam edir. Diqqət defisitliyi və hiperaktivliyi olan yeniyetmə özünə güvənməyən, məsuliyyətsiz, təşəbbüskar deyil və hələ də uzun müddət tapşırıqları yerinə yetirə bilmir, tez-tez sosial normaları pozur. Məktəbəqədər və məktəb yaşlı uşaqların təxminən 3-6%-i diqqət defisitliyi və hiperaktivlik pozulmasından əziyyət çəkir ki, bu da bu problemin yüksək sosial əhəmiyyətindən xəbər verir və oğlanlar qızlara nisbətən bu sindromdan daha çox əziyyət çəkirlər. Onlar böyüdükcə hiperaktivlik "təbii şəkildə" yox ola bilər, lakin statistika göstərir ki, məktəbəqədər və ibtidai məktəb illərində hiperaktivliyi aşkar edilən uşaqların 70 %-i yeniyetməlik dövründə də oxşar keyfiyyətləri saxlayır və belə yeniyetmələr arasında sosial mühitdə təhlükəli davranış riski çox yüksəkdir.

Diqqət defisitliyi və hiperaktivlik sindromunun müalicəsi mürəkkəbdir, valideynlər və müəllimlər üçün xüsusi hazırlanmış alqoritmlərdən, psixoloji korreksiya üsullarından, psixoterapiyadan, dərman terapiyasından, eləcə də qeyri-dərman üsullarından istifadə etməklə davranışın dəyişdirilməsi üsullarını əhatə edir. Psixoloq müəllim və valideynlərlə birlikdə uşağın emosional sferasının və davranışının psixoloji korreksiyasını aparır. Uşağın inkişafı və təhsili üçün ümumi emosional neytral şəraitin təmin edilməsi valideynlərin əsas vəzifəsidir. Müəllim mütəxəssislərin tövsiyələrini nəzərə

alaraq, uşağa onun fərdi inkişaf və davranış xüsusiyyətlərini, ailə mühitini nəzərə alaraq, tədris prosesini həyata keçirir. Yalnız belə inteqrasiya olunmuş yanaşma şəraitində hiperaktiv uşağın ardıcıl yekdil tərbiyəsi və təlimi həyata keçirilir ki, bu da uşağın potensialını həyata keçirməyə və onun emosional stressini azaltmağa kömək edir.

## ƏDƏBİYYAT


1. Заваденко Н. Н. Гиперактивность и дефицит внимания в детском возрате: учебное пособие для вузов. 2018.
2. Заломихина И. Ю. Синдром дефицита внимания с гиперактивностью у детей. 2007.
3. Чутко Л. С. Синдром дефицита внимания с гиперактивностью и сопутствующие расстройства. 2007


## BULLİNQ VƏ BEYİNDƏ GEDƏN DƏYİŞİKLİKLƏR


***Ağayeva Kəmalə***
***BDU-nun II kurs magistrantı***
***kaghayevawall@gmail.com***
***Elmi Rəhbər Professor Elnarə Şəfiyeva***
***BDU, Psixologiya Kafedrası***


Amerikan neyroendokrinoloqu Robert Sapolsky həyatının otuz ildən çoxunu stresin insan sağlamlığına fizioloji təsirini tədqiq etməyə həsr etmisdi. O, Tanzaniyada babunlar üzərində təcrübə apararkən belə bir maraqli halla qarşılaşmışdı. Babunlar içərisində bir dəstə aqressiv babun var idi ki, onlar digər babunlara qarşı, xüsusən də dişi cinsdən olanlara, həmçinin kicik yaşlılara, özlərindən zəif olanlara qarşı çox aqressiv hərəkət edirdilər. Bir dəfə təsadüf nəticəsində bu qrup babun vərəmlə yoluxmiş ət yedikdən sonra xəstələnib öldülər.

Bundan sonra bir müddət Sapolsky həmin qrup üzərində tədqiqatları dayandırdı, bir müddətdən sonra ora qayıtdıqda isə müşahidə etdi ki, qalan babunların fiziki və psixi sağlamlığı yaxşılaşmış, onlarda stres hormonlarının miqdarı azalmışdı [1]. Babunların bu aqressiv davranışını bullinq adlandıra bilərik. Çünki onlar qida, yaxud dişi erkək üçün bir-biri ilə dalaşmırdılar, məhz özlərindən zəif olanlara qarşı heç bir səbəbsiz yerə aqressiya göstərirdilər.

Bullinqi ilk dəfə sistemli şəkildə öyrənmiş Dan Olveus onun tərifini bu cür vermisdi ki, bullinq məqsədyönlü şəkildə olan, özünü müdafiə edə bilməyən birinə qarşı yönəlmiş təkrarlanan aqressiv davranışdır [2]. UNESCO-nun məlumatına görə bütün dunyada usaqlarin üçdə biri bu və ya digər formada bullinqə məruz qalir [3]. Bullinqin müxtəlif təsnifatları verilmişdir. Formasına görə bullinq fiziki, verbal, sosial, mülkiyyətə ziyan vurmaq və kiberbullinq kimi qruplara bölünür [4]. Qızlar arasinda əsasən verbal və sosial bullinq, oğlanlar arasinda isə fiziki bullinq daha çox yayılmışdır. Kiçik yaşlı usaqlarda daha çox fiziki və verbal bullinq yer alir, böyüdükcə isə sosial bullinq daha çox olur. Son zamanlarda kiberbullinq artmaqdadır. Kiberbullinq istənilən formada bullinqin kompüter və telefon vasitəsilə həyata keçirilməsidir. Bullinqin həmişə əsas 3 iştirakçısı olur: bullinq edən, bullinq qurbanı və şahidlər. Bildiyimiz kimi istənilən növ bullinq bullinq iştirakçılarının psixoloji sağlamlığına təsir edir və qisa müddətli zərərləri ilə yanaşı uzun müddətli də izlər qoyur. Bullinqin sağlamlığa vurduğu təsir şəxsin özünə, ailəsinə, ümumiyyətlə cəmiyyətə çox böyük ziyan vurur. Bullinqin profilaktikası maddi cəhətdən də həm ailələrə, həm də cəmiyyətə çox böyük xeyir verə bilər [5]. Bullinqə məruz qalanlarda depressiya, özünə qapanma, özünə inamsızlıq, təşviş, aqressiya, müxtəlif psixosomatik simptomlar (baş ağrısı, ürək bulanma, yorğunluq və sair), iştahasızlıq, yaxud həddən çox qida qəbulu, yuxu pozğunluqları, sui-qəsd fikirləri, sosial

adapatsiya çətinlikləri, zərərli maddələrdən istifadə və sair kimi problemlər olur [7,8,9]. Bullinqin psixoloji sağlamlığa təsiri həm bullinqə məruz qaldıqdan dərhal sonra qısa müddət ərzində, həmçinin uzun illər keçdikdən sonra – uzunmüddətli ola bilər. Bullinqin təsirlərini internallaşdırma və externallaşdırma problemləri olmaqla iki böyük qrupa bölmək olar. İnternallaşdırma problemləri dedikdə insanın özünə yönəlmiş, daxilində olan problemlər nəzərdə tutulur. Bunlara depressiya, özünə qapanma, qorxu, təşviş, özünə zərər yetirmə və sair aiddir. Eksternallaşdırma problemlərinə isə ətrafdakılara, digərlərinə yönəlmiş davranış nəzərdə tutulur. Bunlara zərərli maddələrdən istifadə, aqressiv davranış, impulsiv davranış və sair aiddir. İnternallaşdırma problemləri daha çox qızlarda rast gəlinir. Eksternallaşdırma problemləri isə daha çox oğlanlarda olur [14].

Bəs bullinqin psixoloji sağlamlığa zərərli təsiri nə ilə əlaqədardır? Müxtəlif tədqiqatlar göstərir ki, bullinq nəticəsində beyində struktur dəyişiklikləri gedir. Bu da uzun müddətli psixoloji problemlərə səbəb olur. Erin Burke Quinlan və kolleqalarının apardığı tədqiqat zamanı Avropada 14-19 yaş arasında 682 nəfərlə sorgu apararaq onların bullinqə məruz qalıb qalmadığını müəyyənləşdirmişdi. İlk dəfə 14 yaşında onlarda MRT vsitəsilə beynin şəkli çəkilmiş, sonra isə 19 yaşında onları yenidən müayinə edərək MRT vasitəsilə beyin ölçülərini, eyni zamanda stres, təşviş və hiperaktivlik əlamətlərini yoxlamışdılar. Bu zaman bullinq qurbanı olanlarla bullinqə məruz qalmayanlar arasinda göstəriciləri müqayisə edərək belə nəticəyə gəlmişdilər ki, bullinq qurbanlarında bütün bu göstəricilər fərqlidir. Onların beynində sol quyruqlu nüvə (caudate) və sol skorlupa (putamen) ölçüsünə görə digər qrupla müqayisədə daha kicik idi. Depressiya, təşviş və hiperaktivlik isə daha çox rast gəlinirdi [6]. Bullinq qurbanı olan uşaqlarda beyin qabığının qalınlığının daha çox olduğu görünür, xüsusən də 37-ci Brodman sahəsinin bir hissəsində.

Bu sahə təpə-gicgah qabıq sahəsi də adlanır və yüksək səviyyədə vizual proseslərə cavabdehdir və sifətin tanınması üçün vacib sahədir. Bullinq qurbanları onlara qarşı aqressiya törədənlərin sifətlərini yadda saxlayır və sonradan da onlarda aqressiv, qəzəbli sifətlərə qarşı həssaslıq yarana bilər. Bu da onlarda sosial təşviş probleminin inkişafına səbəb ola bilər. Bullinq edənlərdə isə bu cür qalınlaşma qeyd edilməmişdi. Lakin bullinqin təsirinə aid aparılmış bir çox tədqiqatlar kimi bu tədqiqatda da uzun müddətli müayinələr aparmaq və bu qalınlaşmanın bullinqə görə olduğunu, yoxsa bullinqdən qabaq olduğunu demək çətindir. Ola da bilsin ki, 37-ci Brodman sahəsində olan qalınlaşma əvvəldən olsun və bu özü də bullinq qurbanına çevrilmək riskini göstərsin [15]. Həmçinin tədqiqatlar göstərmişdir ki, uşaq yaşlarında bullinqə məruz qalan böyüklərdə beynin ağ maddəsində dəyişikliklər görünür. Bullinqin uzun müddətli zərərli təsirlərindən olan depressiyanı da bununla əlaqələndirirlər. Eyni zamanda bu fərq 14-17 yaşlı yeniyetmə dövründə bullinqə məruz qalanlarda daha aydın görünürdü [16]. Beyində sosial ağrı şəbəkəsi fiziki ağrı zamanı xoşagəlməz hisslərə və sosial problemlər zamanı mənfi emosiyalara cavabdehdir. Bura kəmər qabığı aiddir (cingular cortex). Sosial bullinq zamanı bu sahə aktivləşir. Yeniyetmələr bu zaman emosional problemi fiziki ağrı kimi hiss edirlər [17]. Buna görə də yeniyetmələr arasında uzun müddət ağrikəsici qəbulu,səbəbi izah edilə bilməyəcək ağrı olarsa psixososial stress və bunun səbəbi kimi bullinqdən şübhələnmək olar.

Bullinq zamanı stres hormonu olan kortizolun səviyyəsi normadan yüksək olur. Bu zaman bullinqin növü, yaxud bullinq qurbanının hansı cinsə mənsub olması nəticələrdə əsaslı fərq etmir [11]. Bəzi tədqiqatlar isə göstərmişdir ki, bullinq zamanı kortizolun səviyyəsi həm normadan artiq, yaxud normadan az ola bilər. Tədqiqat nəticəsində məlum olmuşdur ki, təsadüfi bullinqə məruz qalan qurbanlarda kortizolun səviyyəsi artır. Müntəzəm olaraq bullinqə məruz qalan

qurbanlarda isə kortizolun səviyyəsi bullinqə məruz qalmayan usaqlara nisbətən az olur. Bu da depressiya və təşviş pozğunluşuna səbəb olur. Xronik bullinq zamanı kortizolun səviyyəsinin digərlərinə nisbətən aşağı olmasını uzun müddət stresə məruz qaldıqda bu funksiyanın kütləşməsi ilə izah edirlər [10]. Monoziqot əkizlər üzərində aparılmış digər bir təcrübədə də eyni nəticələr əldə edilmişdi. Təcrübə biri bullinq qurbanı olan, digəri isə bullinqə məruz qalmayan 12 yaşında otuz cüt monoziqot əkizlər üzərində aparılmışdı. Təcrübə zamanı uşaqlarda psixososial stres testə reaksiya kimi kortizolun ifrazı yoxlanılırdı. Nəticələr göstərdi ki, uzun müddət bullinqə məruz qalan uşaqlarda digərlərinə nisbətən psixososial stres testi zamanı kortizolun hasili az olur [12]. Digər bir tədqiqat zamanı da məlum oldu ki, bullinq çox olduqda bullinq qurbanlarında kortizolun səviyyəsi ilə fiziki aqressiyanın səviyyəsi tərs mütənasib idi. Yəni daha çox bullinqə məruz qalanlarda kortizolun səviyyəsi aşağı olduqda fiziki aqressiya çox, kortizolun səviyyəsi çox olduqda fiziki aqressiya az olurdu. Bullinq az olduqda isə kortizolun səviyyəsi çox olduqda fiziki aqressiya da çox, kortizolun səviyyəsi az olduqda isə fiziki aqressiya da az olurdu [13]. Bullinq stresə reaksiya sistemini (hipotalamus-hipofiz-adrenal sistem) aktivləşdirir. Buna görə də bullinqə məruz qaldıqdan qısa müddət sonra kortizolun səviyyəsi yüksək olur. Qısa müddətli, yaxud təsadüfi bullinq zamanı da vəziyyət bu cür olur. Uzun müddət, xroniki bullinqə məruz qalanlarda isə bu reaksiya kütləşir və kortizolun səviyyəsi aşağı olaraq qalır [14]. Bütün bunlar onu göstərir ki, usaq və yeniyetmə yaşlarında bullinqə məruz qalmaq onların beyninin inkişafına, beyində hasil olan hormonlara da təsir edir. Erkən dövrdə bullinqin qarşısını almaq gələcək problemlərin qarşısını ala bilər.

# ƏDƏBİYYAT


1. (2004) Emergence of a Peaceful Culture in Wild Baboons. PLoS Biol 2(4): e124. https://doi.org/10.1371/journal.pbio.0020124
2. Dan Olweus: Bullying at School. Publisher Wiley-Blackwell; 1st edition (December 8, 1993), 152 pages
3. Behind the numbers: Ending School violence and bullying. 2019 by UNESCO
4. https://www.cdc.gov/violenceprevention/youthviolence/bullyingresearch/fastfact.html
5. Wolke, D., & Lereya, S. T. (2015). Long-term effects of bullying. *Archives of disease in childhood*, *100*(9), 879–885. https://doi.org/10.1136/archdischild-2014-306667
6. Quinlan, E.B., Barker, E.D., Luo, Q. *et al.* Peer victimization and its impact on adolescent brain development and psychopathology. *Mol Psychiatry* **25,** 3066–3076 (2020). https://doi.org/10.1038/s41380-018-0297-9
7. Esbensen F-A, Carson DC. Consequences of Being Bullied: Results From a Longitudinal Assessment of Bullying Victimization in a Multisite Sample of American Students. Youth & Society. 2009;41(2):209-233. doi:10.1177/0044118X09351067
8. Due, P., Holstein, B.E., Lynch, J., Diderichsen, F., Gabhain, S.N., Scheidt, P., Currie, C., & Health Behaviour in School-Aged Children Bullying Working Group. (2005). Bullying and symptoms among school-aged children: international comparative cross sectional study in 28 countries. European Journal of Public Health, 15, 128–132
9. Sourander, A., Jensen, P., Ronning, J. A., Niemel ¨ a, S., Helenius, H., Sillanmaki, L., Almqvist, F. (2007). What is the early adulthood outcome of boys who bully or are bullied in childhood? The Finnish “From a Boy to a Man” study. Pediatrics, 120, 397–404. doi: 10.1542/peds.2006-2704

10. Rossouw, The Late Pieter. (2012). Bullying: a neurobiological perspective.. Neuropsychotherapy in Australia. 3-9.
11. Guanghui, Chen & Kong, Yanhong & Deater-Deckard, Kirby & Zhang, Wenxin. (2017). Bullying Victimization Heightens Cortisol Response to Psychosocial Stress in Chinese Children. Journal of Abnormal Child Psychology. 46. 10.1007/s10802-017-0366-6.
12. Ouellet-Morin I, Danese A, Bowes L, Shakoor S, Ambler A, Pariante CM, Papadopoulos AS, Caspi A, Moffitt TE, Arseneault L. A discordant monozygotic twin design shows blunted cortisol reactivity among bullied children. J Am Acad Child Adolesc Psychiatry. 2011 Jun;50(6):574-582.e3. doi: 10.1016/j.jaac.2011.02.015. Epub 2011 Apr 22. PMID: 21621141; PMCID: PMC3743243.
13. Vaillancourt, Tracy & Brittain, Heather & Haltigan, John & Ostrov, Jamie & Muir, Cameron. (2018). Cortisol Moderates the Relation Between Physical Peer Victimization and Physical Aggression in Preschoolers Attending High-Quality Child Care: Evidence of Differential Susceptibility Across Informants. Merrill-Palmer Quarterly. 64. 101. 10.13110/merrpalmquar1982.64.1.0101.
14. National Academies of Sciences, Engineering, and Medicine. (2016). Preventing Bullying Through Science, Policy, and Practice. Washington, DC: The National Academies Press. doi: 10.17226/23482.
15. Muetzel RL, Mulder RH, Lamballais S, Cortes Hidalgo AP, Jansen P, Güroğlu B, Vernooiji MW, Hillegers M, White T, El Marroun H, Tiemeier H. Frequent Bullying Involvement and Brain Morphology in Children. Front Psychiatry. 2019 Sep 24;10:696. doi: 10.3389/fpsyt.2019.00696. PMID: 31607968; PMCID: PMC6771170.
16. Graziano RC, Bruce SE, Paul RH, Korgaonkar MS, Williams LM. The effects of bullying in depression on white

matter integrity. Behav Brain Res. 2019 May 2;363:149-154. doi: 10.1016/j.bbr.2019.01.054. Epub 2019 Jan 30. PMID: 30710613.
17. Rudolph, K. D., Miernicki, M. E., Troop-Gordon, W., Davis, M. M., & Telzer, E. H. (2016). Adding insult to injury: neural sensitivity to social exclusion is associated with internalizing symptoms in chronically peer-victimized girls. *Social cognitive and affective neuroscience*, *11*(5), 829–842. https://doi.org/10.1093/scan/nsw021

## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KOXLEAR İMPLANTLI EŞİTMƏ POZULMASI OLAN UŞAQLARDA KOMMUNİKATİV VƏRDİŞ VƏ BACARIQLARIN İNKİŞAF ETDİRİLMƏSİ

***Kərimova Jalə Şöhrət qızı***
***ADPU-nun II kurs magistrantı***

Son illər həm ümumi, həm də xüsusi məktəbəqədər təhsil müəssisələrində koxlear implantlı uşaqların sayı durmadan artır. İstər ümumi, istərsə də xüsusi uşaq bağçalarında eşitmə və ağır nitq pozulması olan uşaqlar üçün kompensasiya və ya ümumi inkişaf yönümlü qruplar təşkil olunur. Uşaq bağçalarında bu kateqoriyadan olan uşaqların sosial mühitə reabilitasiya və adaptasiyası üçün kompleks məqsədəyönlü reabilitasiya işləri aparılır, onlar üçün müasir tədris və təşkilati-hüquqi model çərçivəsində elmi-metodiki və təşkilati -pedaqoji şərait yaradılır. Bu qruplarda koxlear implantasiyadan sonra uşaqlar üçün reabilitasiya işi aşağıda qeyd edilən mərhələlər üzrə təşkil olunur:

1) ilkin - Kİ ilə eşitmə və eşitmə-vizual qavrayışın inkişafı;
2) əsas - eşitmə və eşitmə-nitq qavrayışının inkişafı;
3) dil - nitqin və öz nitqinin qavranılmasının inkişafı və kommunikativ vərdiş və bacarıqların inkişafı.

İlkin mərhələdə tərbiyəçilərin əsas diqqəti: səsin aşkarlanması; məkanda səs mənbəyinin lokallaşdırılması; səsə şərti-hərəki reaksiyasının yaradılması;

ayrı-ayrı nitq səslərinin, sözlərin imitasiyası; dinləmədə oturqanlıq vərdişinin formalaşdırılması.

Əsas mərhələdə tərbiyəçi koxlear implantlı eşitmə pozulması olan uşaqlarda: nitq və nitqsiz səsləri fərqləndirmək; nitqsiz səslərin tanınmaq və fərqləndirmək; müxtəlif nitq siqnallarını (fonem, söz) tanımaq və fərqləndirmək ; sözün tələffüz surəti, onun müəyyən etdiyi obyekt / hadisə arasında əlaqələrin davamlı formalaşdırmaq kimi vərdişlərin yaradılmasına xüsusi diqqət yetirir.

Yekun dil mərhələsində əsas iş Kİ -li uşaqların müxtəlif nitq siqnallarını (fonem, söz və ifadələri) müəyyən etməsinə, tanıma və fərqləndirməsinə; sözlərin mənasını başa düşməsinə və impressiv lüğət ehtiyatının toplamanmasına; morfologi ya və sintaksis qaydalarını mənimsəməsinə; bir neçə sözdən ibarət ifadə qurmaq bacarığının formalaşdırılmasına, ekspressivi lüğətin toplanmasına; uşaqlara gündəlik həyatda ünsiyyət qurmağa, gördükləri haqqında danışmağa, mahnı oxumağa imkan verən rabitəli nitqin formalaşmasına yönəldilir.

Məktəbəqədər təhsil müəssisəsi şəraitində eşitmə pozulması olan, o cümlədən də koxlear implantlı uşaqların eşitmə - nitq inkişaf səviyyəsini nəzərə alaraq, onlar üçün faydalı "ineqrasiyalı" təlim prosesi seçilir və normal eşidən həmyaşıdları ilə birgə oyun fəaliyyətlərinə daxil olmaq imkanı yaradılır. Oyun uşağın əxlaqi keyfiyyətlərini formalaşdırmaq, sosial təcrübə toplamaq, rollu davranışı inkişaf etdirmək, həmyaşıdlarına humanist münasibət tərbiyə etmək üçün təsirli bir vasitədir. Oyun prosesində uşaqlar ətraf aləmin məzmununu, etik norma və davranış qaydalarını mənimsəyir. Buna görə də, koxlear implantlı məktəbəqədər yaşlı uşaqların sosial və kommunikativ bacarıqlarının inkişafı oyun zamanı daha uğurla həyata keçirilir. Oyun söz və ifadələrin xüsusi

yadda saxlanması vəzifəsini qoymur, lakin oyunun özü materialın qeyri-ixtiyari mənimsənilməsini təmin edir [5]. Didaktik oyunlardan istifadə, dramlaşdırma koxlear implantlı uşağın təkcə ümumi kommunikativ mədəniyyətinin deyil, həm də başqalarına qarşı mehriban münasibət kimi müsbət xarakterik xüsusiyyətlərinin formalaşmasına təsir göstərir, ona sosial rolları sınamağa kömək edir.

İmplant edilmiş uşaqların eşidən həmyaşıdları ilə birgə oyun fəaliyyətinin təşkili uşaqların bir-biri ilə ünsiyyətinin və əlaqələrinin inkişafına kömək edir və bu müddət ərzində uşaq sosial və tarixi təcrübəni öyrənir, özünün və başqa insanların imkan, şəxsi keyfiyyət və qabiliyyətləri haqqında təsəvvürləri əldə edir [4].

Aparılan müşahidələrə görə, oyunların spesifik xüsusiyyətlərinə baxmayaraq, öncədən oyunun gedişi ilə tanış olan, eşidən həmyaşlarnın istifadə etdiyi nitq növləri nə bilən implant edilmiş uşaqlar, özlərinin naqisliyini hiss etmədən onlarla sərbəst ünsiyyət qura bilirlər. Yekun dil mərhələsində didaktik oyun metodu Kİ -li uşaqların həm sosiallaşması, həm də kommunikativ vərdiş və bacarıqlarının inkişafı üçün çox effektivdir [1].

Oyunlar təşkil edərkən tərbiyəçi onun bütün mərhələlərində həm nitqi, həm də kommunikativ vərdiş və bacarıqları inkişaf etdirir. Məsələn: böyük yaş qrupu uşaqlarla "Hansı rəng?" oyunu. Bu oyun zamanı Kİ -li uşaqlarda məsələlər: eşitmə-nitq qavrayışı, qramma tik bacarıqlar (sifətləri isimlərlə əlaqələndirmək bacarığı: qırmızı alma,sarılimon, gözəl qız və s.), eşitmə diqqəti, sözlü-məntiqi təfəkkür, ətraf aləm haqqında təsəvvürlər, eşitmə-nitq yaddaşı inkişaf etdirilir.

Oyun gedişində istifadə edilən ünsiyyət növlərinə tapşırıq üzərində işləmək, dialoqda iştirak etmək, müraciəti başa düşmək, suallara cavab vermək daxildir. Tərbiyəçi / müəllim uşaqlarla "Hansı rəng?" oyununun təşkili zamanı uşaqlara: "Gəlin, bir oyun oynayaq. müraciət edir və onun qaydaların

belə izah edir: "Yarımdairə şəklində oturun, topu atacağıq. Kim istəyir? Uşaqlar: Mən topu atmaq istəyirəm. Tərbiyəçi / müəllim: Topu kimə istəyirsən atıb deyəcəksən, məsələn: pomidor. Siz topu tutacaqsınız və onun hansı rəngdə olduğunu söyləyəcəksiniz.

Oyunun gedişi: Müəllim: Topu tut, Dilarə, xiyar. Uşaqlar: Yaşıl. Uşaqlar: Topu tut, Yaşar! Uşaqlar: Armud və s.

Beləliklə də, tərbiyəçi / müəllimin təşkil etdiyi oyunlar uşaqların oyun planı qurmağı, oyunun mümkün variantlarını müzakirə etməyi, müstəqil oyun mühiti yaratmağı, oyun əşyalarından istifadə etməyi öyrənirlər. Uşaqlar asanlıqla ünsiyyət qurmağı, sərbəst şəkildə dialoqa girməyi və davam etdirməyi, nitq etiketinə riayət etməyi, həmsöhbətini dinləməyi, ifadəli jest və mimikalardan, nitq intonasiyalarından istifadə edərək üzərinə götürülmüş rolun öhdəsindən gəlməyi öyrənirlər.

## ƏDƏBİYYAT

1.Беляева О. Л., Сопинская Т. В., Викулина Л. М. Командный подход к орга низации и планированию индивидуальных занятий с кохлеарно импланти рованными дошкольниками в ДОУ // Психолого-педагогическое сопровож дение реализации программ развития ребенка / Сборник статей / Краснояр. гос. пед. ун-т им. В. П. Астафьева. — Красноярск, 2015. — с. 162–164.

2. Беляева О. Л., Дядяева Г. В. Обеспечение доступной среды в дошкольном образовательном учреждении для детей с нарушениями слуха, пользующихся кохлеарнымимплантом // Сибирский вестник специального образования. 2013. № 2 (10). с. 7–14. 21

3 Кобрина Л.М. Особенности диагностической и коррекционной работы с неслышащими детьми в условиях интеграции // Рос. оториноларингология. - 2006. -№2(21).

4.Королева И.В. Реабилитация детей с кохлеарными имплантами. Пособие для врачей. – СПб, 2004. – с. 44.].

## EKSPRESSİV ALALİYA ZAMANI İNTONASİYANIN İNKİŞAFI ÜÇÜN İSTİFADƏ OLUNAN ƏSAS METODLAR

***Mehdiyeva Nazpəri Asəf qızı***
***ADPU-nun II kurs magistrantı***

Ekspressiv alaliya zamanı müşahidə edilən pozulmalardan biri də nitqin prosodik tərəfinin, yəni intonasiya hissəsinin formalaşmasında baş verən pozulmalardır. Ekspressiv alaliyalı uşaqlarda intonasiyanın öyrənilməsinə uyğun olaraq bir sıra metodikalardan istifadə olunur. Hər bir metodika intonasiyanın müxtəlif xüsusiyyətlərinin öyrənilməsi üçün nəzərdə tutulmuşdur. Bir hissə metodikalar səs gücünün və hündürlüyünün modulyasiyalarını və səs tembrinin öyrənilməsinə istiqamətlənmişdir.

Digər hissəyə aid olan metodikalardan isə fasilənin, ritmin, məntiqi vurğunun, tempin öyrənilməsi üçün istifadə edilir. Həmçinin intonasiya strukturlarının araşdırılmasına uyğun olan bir sıra üsullar da mövcuddur. Metodikalardan müxtəlif məqsədlər üçün istifadə edilir və onlara qeyd edilən xüsusiyyətləri araşdırmaq aiddir:

- Səsin hündürlük səviyyəsi;
- Səs gücünün modulyasiyasını və dəyişməsi;
- Səs tonunun qavranılması;
- Səs tonunda olan dəyişiklikləri fərqləndirmə bacarığı;
- Səsləri fərqləndirə bilmə qabiliyyəti;
- Nitq tempini anlamaq və ya qavramaq imkanları;
- Nitq tempində olan dəyişiklikləri qavramaq qabiliyyəti;
- Ritmi qavrama qabiliyyəti;
- Vurğulanan sözü qavramaq qabiliyyəti;

- Nəqli cümlələrdə intonasiyanın qavranılması;
- Sual cümlələrində intonasiyanın qavranılması;
- Nida cümlələrində intonasiyanın qavranılması.

Korreksiya işləri müxtəlif istiqamətlərdə həyata keçirilir. İlk istiqamət aşağıdakılardan ibarətdir:

- Səs hündürlüyünün qavranılması;
- Nitq melodiyasının qavranılması;
- Anlayışların fərqləndirilməsi;
- Anlayışların assimilyasiyası;
- Eşitmə qavrayışının inkişafı.

İkinci istiqamət məntiqi vurğunun qavranılmasına yönəlmişdir.. Bu zaman müəyyən vəzifələr yerinə yetirilir:

- Məntiqi vurğu ilə əlaqəli olan anlayışların mənimsənilməsi və fərqləndirilməsi;
- Məntiqi vurğunun qavranılmasının inkişafı;
- Ekspressiv nitqdə məntiqi vurğunun mənimsənilməsi.

Üçüncü istiqamət nəqli cümlələrdə intonasiyanın qavranılması və onun inkişaf etdirilməsi üçün nəzərdə tutulmuşdur. Bu zaman aşağıda qeyd edilən vəzifələr yerinə yetirilir:

- Nəqli cümlələrdə intonasiya və onun nümayiş edilmə üsulları ilə tanışlıq;
- Nəqli cümlələrdə intonasiyanın qavranılması;
- Bu intonasiyanın sual və nida cümlələrindəki intonasiyadan fərqləndirilməsi;
- Ekspressiv nitqdə nəqli cümlənin intonasiyasının mənimsənilməsi.

Dördüncü istiqamət səs tembrinin emosional xarakterinin qavranılmasının inkişafına yönəlmişdir. Bu istiqamətin əsas vəzifələrinə daxil edilir:

- Müxtəlif emosional hallarla tanışlıq, yəni sevinc, kədər, qəzəb, kin, qorxu, təəccüb və s;
- Başqa insanların nitqində müxtəlif emosional vəziyyətlərin müəyyən edilməsi;

- Səs tembrinin emosional xarakterinin inkişafı.

Sonuncu istiqamət böyüklər və öz həmyaşıdları ilə ünsiyyət prosesində öyrənilən intonasiya strukturlarının diferensiallaşdırılmasından ibarətdir..

Məktəbəqədər yaşlı ekspressiv alaliyalı uşaqlarda intonasiyanın inkişafı üçün bir sıra oyunlardan istifadə edilir. Bu oyunlara aiddir: "Ailə", "Söz", "Günəş", "Təbil", "Mənim kimi təkrar et", "İfadəni təkrar et" və s. Qeyd edilən bu oyunlardan birini nəzərdən keçirək:

"Söz" oyunu. Söz oyununun əsas məqsədi bunlardır:

- Səsin hündürlük səviyyəsini təyin etməyi öyrənmək;
- Ümumi motor bacarıqları inkişaf etdirmək.

Oyunun gedişatı: Uşaqlar dairə ətrafında gəzirlər. Əgər söz aşağı səslə deyilərsə uşaqlar aşağı əyilirlər. Sözlər orta səslə deyildiyi zaman uşaqlar sadəcə olaraq dairənin ətrafında gəzirlər. Yüksək səslə deyildiyi zaman isə dizlərini yuxarı qaldıraraq yeriyirlər.

Bu oyundan loqarifmik dərslərdə də istifadə edilə bilər.

## ƏDƏBİYYAT

1. Фотекова Т.А., Ахутина Т.В. Диагностики речевых нарушений школьников с использованием нейропсихологических методов. – 2-е изд., испр. И доп. – М.: Айрис – пресс, 2007. – 176 с.
2. Копачевская Л.А. Логопедическая работа по формированию правильной интонации у детей с речевыми нарушениями. - 2001.-С. 70-78
3. Лопатина Л.В., Позднякова Л.А. Логопедическая работа по развитию интонационной выразительности речи у дошкольников с речевыми нарушениями. - СПб.: ЦДК проф. Л.Б. Баряевой, 2010. - 143с.

# ƏQLİ GERİLİYİ OLAN UŞAQLARIN ƏYANİ-OBRAZLI TƏFƏKKÜRÜNÜN FORMALAŞDIRILMASI

***Mustafayeva Tellixanım Teymur qızı***
***ADPU-nun ll kurs magistrantı***

İxtisaslaşmış elmi ədəbiyyatda əqli geriliyi olan uşaqların təfəkkürünün nəzərdən keçirilməsinə baxmayaraq, böyük məktəbəqədər yaşda bu qrup uşaqların təfəkkürünün inkişaf səviyyəsinə dair tədqiqatlar praktiki olaraq yoxdur. Bu baxımdan əqli geriliyi olan uşaqlarda bilavasitə vizual-obrazlı təfəkkürün inkişafına yönəlmiş çox az sayda metodlar işlənib hazırlanmışdır.

Əyani - obrazlı təfəkkürün formalaşdırılması prosesi üç hissəyə bölünür, onların hər biri öz növbəsində bir sıra tapşırıqlara bölünür.

Birinci bölmə: Şəkillərdə təsvir olunan vəziyyətin vahid qavrayışının formalaşdırılması. Tapşırıqlar :

1. Əyani - əməli plan üzrə məsələlərin həllindən əyani-obrazlı təfəkkürə keçid üçün ilkin şərtlərin formalaşdırılmasına yönəlmiş tapşırıqlar.
2. Obyektlərdə dinamik dəyişikliyi nəzərdə tutan süjetdəki hərəkətin daxili məntiqi haqqında anlayışın formalaşmasına yönəlmiş tapşırıqlar.
3. Uşaqlarda bir-biri ilə əlaqəli hadisələrin dərk edilməsinə yönəlmiş tapşırıqlar, səbəb-nəticə əlaqələri.
4. Şəkillərdə təsvir olunan hadisələrin ardıcıllığını başa düşmək üçün tapşırıqlar.
5. Şəkillərdə təsvir olunan personajlar və obyektlər arasında əlaqəni müəyyən etmək, əsaslandırmaq, nəticə çıxarmaq və mühakimələri əsaslandırmaq bacarıqlarının inkişafına yönəlmiş tapşırıqlar; gizli mənaları olan hekayələrin təhlili.

İkinci bölmə: Obyektlərin xassələri və keyfiyyətləri haqqında ümumiləşdirilmiş təsəvvürlərin formalaşdırılması,

əvəzetmə və modelləşdirmə hərəkətlərinin mənimsənilməsi. Tapşırıqlar:

1. Obyektlərin xassələri və keyfiyyətləri haqqında ümumiləşdirilmiş təsəvvürlərin formalaşmasına yönəlmiş oyunlar-məşqlər.

2. Əvəzedici hərəkətlərlə uşaqların bilikləri mənimsəməyə yönəlmiş oyunlar.

3. Məkanda oriyentasiyanın, vizual modelləşdirmə qabiliyyətinin inkişafına yönəlmiş oyunlar-məşqlər.

Üçüncü bölmə: Söz və obraz arasında əlaqənin formalaşması.

Bu bölmə təxəyyüldə istirahət üçün təsvirlərin obrazlı istifadə mexanizminin əsasını təşkil edir. Tapşırıqlar:

1. Şifahi təsvirə görə oyuncaq tapmaq bacarığını inkişaf etdirməyə, ətraf mühit haqqında fikirləri birləşdirməyə yönəlmiş tapşırıqlar.

2. Şifahi təsvirə uyğun olaraq personajların hərəkətlərini əks etdirən uyğun şəkil seçmək üçün formalaşmağa yönəlmiş tapşırıqlar.

3. Şifahi mətni müvafiq illüstrasiya ilə müqayisə etmək və əlaqələndirmək bacarığını inkişaf etdirməyə yönəlmiş tapşırıqlar.

Təfəkkürün inkişafı üçün uşaqların əsas fəaliyyət növü olan oyundan istifadə olunur. Oyun uşaqlara yeni bacarıqlar əldə etməyə, möhkəmləndirməyə və inkişaf etdirməyə imkan verir. Belə çıxır ki, əsas vəzifə oyunu mümkün qədər faydalı, maraqlı və eyni zamanda effektiv etməkdir.

Uşaqlara parlaq, çox rəngli kublar, dizayner detalları (seçim olaraq düymələr) təklif edilir. Uşaq onları müxtəlif xüsusiyyətlərinə görə ayırmalıdır: rənginə görə, ölçüsünə görə, formasına görə. Böyük uşaqlar üçün oyuncaqlar arasında mebel tapıb vurğulamaq olar: qablar; heyvanlar; nəqliyyat vasitələri.

## ƏDƏBİYYAT

1. Стребелева, Е. А. “Формирование мышления у детей с отклонениями в развитии”, Владос, 2005.
2. Борякова Н.Ю. “Ранняя диагностика и коррекция задержки психического развития” М: Педагогика, 1999.

## GENDER MƏSƏLƏLƏRİNİN PSİXOLOGİYADA NƏZƏRI – TARIXI TƏHLİLİ

***Nuriyeva Nişan Çingiz qızı***
***BDU-nun Psixologiya kafedrasının dissertantı***
***heybetlin@mail.ru***

Hər keçən gün dünya daha da dəyişkən və gözlənilməz hadisələrlə şərtlənir, insanı əhatə edən sosial gerçəklik, həyat şəraitidə dəyişir ki, bu da şəxsiyyətin dünyanı dərk etməsinə, subyektiv fəaliyyətinin xüsusiyyətlərinə və ümumi rifahına təsir göstərir. Məhz bu səbəbdən son zamanlar insanlar kişi və qadın təsnifatına daha çox diqqət yetirməyə və onun müxtəlif məna aspektləri barədə suallar verməyə başlamışlar. Bu sıralama da yer alan problemlərlə bağlı tədqiqatçı alim və psixoloqların fikri olduqca vacibdir, beləki onlar diqqəti davranışımızı "maskulin" yaxud "feminist" kimi formalaşdıran norma və rollara yönləndirir.

Dərc olunan bir sıra elmi ədəbiyyatlarda "cins" əvəzinə "gender" sözündən istifadə edilməyə başlanıldı. Elmi mübahisələr nəticəsində cins və gender anlayışları arasında dəqiq sərhəd qoyuldu. Cins konkret bir insanın – qadın yaxud kişi olduğunu bildirir və həmin insanın bioloji statusunu göstərir. Gender isə - insanın əsas baza xüsusiyyətlərindən olub, onun psixoloji və sosial inkişafına təkan verir. Cəmiyyətdə qadınların və kişilərin hüquq bərabərliyinin bərqərar olmasını əks etdirən gender problemləri sosial həyatın

bütün sahələrini əhatə edir. Hazırda cinsi bərabərlik məsələləri ən aktual siyasi, iqtisadi və sosial problemlərdən biridir.

Gender ən mürəkkəb və qeyri-müəyyən elmi kateqoriyalardan biridir. Hər şeydən əvvəl, bu anlayış bir-birinə zidd olan generativ (latınca genero - doğururam, istehsal edirəm) və əlaqəli xüsusiyyətlər toplusunu ifadə edir. Gender tədqiqatları - ilk növbədə cinsin sosial, psixoloji və sosial mədəni xüsusiyyətləri aspektindən öyrənilməsidir. Əlbəttə, burada iqtisadi, siyasi, psixoloji və sosial mühit də nəzərə alınır. Dünya ölkələrində gender anlayışı tədricən inkişaf etməyə başladı və müxtəlif vaxtlarda tədqiqatlar müxtəlif aspektlər üzrə məsələn: gender kişi və qadınların sosial rol bölgüləri kimi, gender güc münasibətlərinin ifadə üsulu kimi, gender kişi və qadın davranışına sosial nəzarət sistemi kimi, gender - xüsusi sosial institut kimi və s.

Qərbdə gender tədqiqatlarının inkişafini şərti olaraq üç mərhələyə ayırd etmək olar. Birinci mərhələ, təxmini vaxt kimi 1970-ci illər nəzərdə tutulur. Nəzərdən keçirilən dövr ərzində sosial, siyasi və psixologiya elmlərində funksionalist struktur nəzəriyyəsi üstünlük təşkil edirdi, buna görə də cinslər arasındakı əlaqə gender-rol bölgüsü anlayışı ilə müəyyən edilirdi (T. Parsons). Əgər ailə modeli üzərindən misal çəksək, qadının ailədəki funksiyası ekspressivlik yəni ailədaxili müsbət münasibətlərin formalaşdırılması, kişinin funksiyası isə instrumentallıq yəni ailədə və digər sosial strukturlarda münasibətlərin tənzimlənməsi və s.

Bu illərdə Liberal feminizm cərəyanıda insanların diqqətini çəkməyə başlamışdı. Bu cərəyanın əsas ideologiyası cinsindən asılı olmayaraq *hər bir şəxs istənilən sahədə potenisal dəyərlərinə uyğun olaraq fəaliyyət göstərə bilər* şüarı idi.

Gender tədqiqatlarının inkişafının ikinci mərhələsi 1980-ci illərin birinci yarısına təsadüf edir. Həmin illərdə digər bir feminist cərəyan olan radikal feminizm cərəyanı geniş yayılmışdı. Liberal feminizmdən daha sərt mövqeydən çıxış

edən bu cərəyan əsas ideoloji fikir kimi qadınların əsrlər boyu cəmiyyət tərəfindən alçaldılaraq istismar olunduğunu söyləyirdi. Məhz həmin illərdə bəzi Qərb ölkələrində qarşıdurma və çaxnaşmaların başında bu cərəyanın tərəfdarları olan qadınlar dururdu.

Gender tədqiqatlarının inkişafının üçüncü mərhələsinin başlanğıcı 80-ci illərin ikinci yarısı dövrü ilə əlaqələndirilir. Bu dövrün feminist hərəkatı bir neçə qolla xarakterizə olunurdu: rəngli feminizm, postmodern, humanist, ekzistensial, mədəni feminizm və s. Bu dövr də "gender" və "cins" anlayışlarını ayırmağa həsr edilmişdir. Tədqiqtaçı alimlər bədən sxematikasından daha çox gender rol bölgüsünə dair tədqiqatlara üstünlük verməyə başladılar. Bu gün gender problemləri təkcə sosioloqların deyil, həm də psixoloqların, antropoloqların və tarixçilərin diqqətini cəlb edən tədqiqat sahəsidir. Bununla belə, psixoloqları daha çox fərdin gender sosiallaşması problemi, kişi və qadın rollarının fərdi səviyyədə mənimsənilməsi, eləcə də kişi və qadın arasındakı psixoloji fərqlər (məsələn, yaradıcılıq, əqli qabiliyyətlər, aqressiya kimi aspektlərdə), sosioloqları isə daha institusional səviyyədə kişi və qadınlar arasında sosial fərqlər və bu fərqlərə təsir edən amillər maraqlandırır.

Gender psixologiyası iki əsas sualın kəsişməsində :

1. Kişi və qadın arasında fərqlər (fiziki olanlardan başqa) varmı və əgər varsa, onlar nədir?

2. Sosial fərqlər - kişi və qadınların sosial rolları necə izah edilə bilər? Təbiət və ya tərbiyə digər sözlə desək fiziki xüsusiyyətlər və ya sosial amillər?

Freydin nəzəriyyəsini kişilər və qadınlar arasında psixoloji fərqlərin öyrənilməsi problemi ilə məşğul olan ilk psixoloji nəzəriyyələrə aid etmək olar. Psixoanaliz ideyalarına görə, gender xüsusiyyətlərinin formalaşması daha çox bioloji amil, eləcə də ailə tərbiyəsinin ilkin mərhələləri ilə müəyyən edilir.

Ənənəvi psixoanaliz kişilər və qadınlar üçün diametral şəkildə zidd olan davranış nümunələrindən danışır.

Freydin hərəkət etdiyi istiqametdə irəliləyən və onun özünüdərkin çoxölçülük ideyasını yaradıcı şəkildə inkişaf etdirən K.Q.Yunq belə bir nəticəyə gəlmişdir ki, kişinin təhtəlşüurunda zahiri həyatda sıxışdırılıb çıxarılmış, onu tamamlayan qadın əlaməti, qadının təhtəlşüurunda isə kişi əlaməti vardır. Kişi özünün qeyri-şüuri tamamlayıcısını qadın obrazı vasitəsi ilə, qadın isə – kişi obrazı vasitəsi ilə qəbul edir.

Psixologiyada gender tədqiqatlarının inkişafındakı başqa bir istiqamət qadın psixologiyasının öyrənilməsinə aid edilə bilər. Bu nəzəriyyə Qərb feminist ideologiyasının və daxili femininologiyanın təsiri altında inkişaf edir. Bu cərəyanın nümayəndələri qadın psixologiyasının kişi psixologiyasından fərqli olaraq daha mükəmməl olması (xarici psixoloqların (K.Gilliqan, M.Klein, K. Horney), yerli psixoloqların (L.V. Popova, O.V. Mitina) feminist psixoloqların fikirlərini bölüşürlər.

XXI əsrin əvvəlləri gender problemlərinin təhlilinə "daha yumşaq" yanaşma, gender fərqlərinin əsas mexanizminə maraq ilə xarakterizə olunur. Tədqiqatçıların diqqət mərkəzində müxtəlif cinslərin nümayəndələrinin psixoloji xüsusiyyətləri, kişi və qadınların davranışları, onların şəxsiyyətləri (V.V.Znakov, İ.S.Kletsina, S.A.Filippova), müxtəlif fəaliyyət sahələrində gender rolları (T.V. Andreeva, T.V. Berkovskaya), gender şəxsiyyətinin formalaşması mexanizmləri (P. Bourdieu, K. Gilligan), dünyanın gender mənzərəsi və s. dururdu. Bu tedqiqatların fonunda isə gender sosializasiyası, gender identikliyi, gender sterotipləri, maskulinizasiya, feminizasiya və s. anlayışları formalaşmağa başladı.

## ƏDƏBİYYAT

1. Abbaszadə N.D. Gender probleminin psixoloji aspektləri. Mühazirələr kursu / Müəllif-tərtibatçı- Bakı, Qərb Universitetinin Nəşriyyat-Poliqrafiya mərkəzi, 2002.
2. Ялизадя Я.Я. Ъинси диморфизм вя шяхси гаршылыглы мцнасибятлярин формалашмасынын психоложи проблемляри. Психол. елм. доk. дис. Бакы, 1975
3. Берн Ш. Гендерная психология. Санкт-Петербург, 2001.
4. Майерс Д. Социальная психология. Санкт-Петербург, 2000.
5. Хорни К. Самоанализ: Психология женщины. Новые пути в психоанализе. Санкт-Петербург, 1998.

## EŞİTMƏ POZULMASI OLAN UŞAQLARDA DİSQRAFİYANIN ARADAN QALDIRILMASI METODLARI

***Quliyeva Samirə Aqşin***
***ADPU-nun II kurs magistrantı***

Məlumdur ki, nitq insanlar arasında əsas ünsiyyət vasitəsi kimi çıxış etdiyindən hər bir insanın həyatında mühüm funksiyaya daşıyır. Bunsuz insanların birgə fəaliyyətin təşkil etməsi, eləcə də qarşılıqlı anlaşmanın əldə etməsi çətin olardı. Nitq vasitəsilə tam hüquqlu ünsiyyətin həyata keçirilməsi normal insan təmaslarının saxlanması üçün vacib şərtdir ki, bu da müvafiq olaraq uşağın onu əhatə edən ətraf mühit haqqında anlayışını əhəmiyyətli dərəcədə genişləndirir.

Bu onunla bağlıdır ki, hər il ağır nitq pozğunluğu olan uşaqların sayı artır və bu da müvafiq olaraq yazılı nitqin mənimsənilməsində müxtəlif çətinliklərə səbəb olur. Ona görə ki, insana xas olan mürəkkəb ali psixi funksiyalardan biri məhz

onun nitqidir ki, bu da beynin müvafiq fəaliyyəti ilə təmin edilir. Nitqin inkişaf etməsi üçün vacib olan şərtlərdən birincisi eşitmənin normal səviyyədə olmasıdır. Bəzi şəxslərdə eşitmənin müxtəlif səbəblərdən itirilməsi baş verir. Eşitmənin müxtəlif dərəcədə pozulması uşaqlarda şifahi nitqlə yanaşı, yazılı nitqin də pozulmasına səbəb olur.

Kiçik yaşlı eşitmə pozulması olan məktəblilər arasında yazılı və şifahi nitqin pozulması problemi məktəb təhsili üçün ən aktual problemlərdən biridir, çünki ibtidai təhsilin məqsədindən yazmaq və oxumaq şagirdlərin gələcək biliklərin mənimsənilməsi vasitəsinə çevrilir. Bu istiqamətdə bir sıra mütəxəssislər şagirdlərdə yazı pozuntularının korreksiyası ilə bağlı tədqiqatlar aparmışlar (İ.N.Sadovnikova, A.F.Spirova, A.V.Yastrebova). Bəzi tədqiqatlarda yazının pozulması ilə bağlı müvafiq mexanizmlər təhlil edilmişdir (O.B.İnşakova, A.N.Kornev, R.E.Levina). Bununla belə, məktəbdə yazının öyrədilməsi zamanı yaranan çətinliklərin öyrənilməsinin bəzi nəzəri aspektləri əlavə tədqiqat tələb edir. Hal-hazırda disqrafiyası olan kiçik yaşlı eşitmə pozulması olan şagirdlərdə şifahi və yazılı nitq pozuntularının aradan qaldırılmasına yönəlmiş loqopedik işin korreksiyasının həyata keçirilməsinin effektivliyinin artırılması surdopedaqogikanın aktual vəzifəsidir.

Buna əsaslanaraq, eşitmə pozulması olan uşaqlarda disqrafiyanı aradan qaldırarkən də L.S.Svetkovanın irəli sürdüyü bir neçə korreksiyaedici fəaliyyət metodundan istifadə oluna bilər:

1.Səsə uyğun hərfin tanınması metodu.

2.Sözün qrafik sxemi metodu.

3.Baş hərfin söz və şəkil ilə əlaqələndirilməsi metodu.

4.Ebbinghaus metodu (Əksik hərfləri olan sözlər).

5.Səhvlərin düzəldilməsi metodu (vizual).

6.Səs-hərf analizi metodu.

7.Struktur metodu.

Yuxarıda göstərilən məlumatlar bildirməyə imkan verir ki, nitq pozulmaları olan kiçik yaşlı məktəblilərdə disqrafiyanın

aradan qaldırılması üçün loqopedik iş nitq pozulmalarının xarakteri və strukturu nəzərə alınmaqla, mərhələlərlə, qurulmalı və aparılmalıdır. Didaktik prinsiplərə məcburi riayət etməklə uşağın inkişafı prosesində elementar və ali psixi funksiyaların nisbəti; müvafiqlik, şagirdlərə fərdi yanaşma əsasında həyata keçirilməlidir Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək olar ki, disqrafiya pozulmaları zamanı göstərilən metodlardan düzgün istifadə müsbət nəticənin özülü ola bilər.

## ƏDƏBİYYAT

1. Ağayeva T.H, "Kar uşaqlarda nitq vərdişlərinin formalaşdırılması". Metodiki vəsait. Bakı-2018. ADPU-nəşriyyat. Səh. 125.
2. Цветкова, Л.С. Нейропсихология счета, письма и чтения: нарушение и восстановление [Текст] / Любовь Семёновна Цветкова. – М.: Юристъ, 2005. 208 с.

## PSİXİ İNKİŞAF LƏNGİMƏSİ OLAN UŞAQLARIN KLİNİK TƏSNİFATI VƏ PSİXO-PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

***Qəhrəmanova Sevda Xəyyam qızı***
***ADPU-nun II kurs magistrantı***

Hal-hazırda PİL-in əmələ gəlməsinin patogenetik mexanizmlərinin iki əsas variantı müəyyən edilir:

1. Emosional-iradi sahənin və şəxsiyyətin inkişafsızlığı, yəni psixi infantilizmlə bağlı idrak fəaliyyətinin pozulması;
2. Davamlı astenik və serebroastenik şəraitə görə idrak fəaliyyətinin pozulması.

PİL olan uşaqların bir neçə təsnifatı vardır. Bu kateqoriyadan olan uşaqlarla iş təcrübəsində ən çox istifadə olunan K.S.Lebedinskayanın təsnifatını nəzərdən keçirək:

1. Konstitusional mənşəli PİL (harmonik əqli və psixofiziki infantilizm): pozulmanın strukturunda emosional və psixi ləngimə əlamətləri ön plana çıxır. Uşaqlar affektiv davranış, eqosentrizm, isterik reaksiyalar və s. kimi əlamətlərlə xarakterizə olunur. Konstitusional mənşəli PİL olan uşaqlarda müəyyən funksiyaların irsi ləngiməsi qismən vardır: qnozis, praksis, vizual və eşitmə yaddaşı, nitq.

2. Somatogen mənşəli PİL ürəyin, böyrəklərin, endokrin sistemin və s.-nin xroniki somatik xəstəlikləri olan uşaqlarda yaranır. Məhz bu səbəblər uşaqların motor və nitq funksiyalarının inkişafının ləngiməsinə səbəb olur, "mənlik" şüurunun formalaşmasını ləngidir. Özünəxidmət bacarıqları, obyekt-oyun, elementar təhsil fəaliyyətinin formalaşmasına mənfi təsir göstərir.

3. Psixogen mənşəli PİL psixo-travmatik amillərin erkən yaranması və uzun müddət saxlanması ilə uşaq nevrotik pozulmalara, patoloji şəxsiyyət inkişafına səbəb olan neyropsixi sahədə davamlı dəyişikliklərlə qarşılaşa bilər (K. S. Lebedinskaya).

4. Serebral-üzvi PİL emosional-iradi və koqnitiv sahələrin aşkar pozulmaları ilə xarakterizə olunur. Müəyyən edilmişdir ki, PİL-in bu variantı özündə inkişafsızlıq xüsusiyyətlərini və bir sıra psixi funksiyaların müxtəlif dərəcəli zədələnməsini özündə birləşdirir. Nisbətindən asılı olaraq, uşaqlar iki kateqoriyaya bölünür:

- Üzvi infantilizm növünə görə emosional sahənin inkişafsızlığı üstünlük təşkil edən uşaqlar, yəni PİL psixoloji strukturunda emosional-iradi sahənin inkişafsızlığı birləşir (bu hadisələr üstünlük təşkil edir) və koqnitiv fəaliyyətin inkişaf etməməsi (nevroloji simptomlar aşkar edilir). Eyni zamanda, uşaqların iradi fəaliyyətinin pozulmasında açıq şəkildə özünü göstərən ali psixi funksiyaların qeyri-kafi formalaşması, tükənməsi və çatışmazlığı qeyd olunur;

- Davamlı ensefalopatik pozulmaları, kortikal funksiyaların qismən pozulması olan uşaqlar. Belə uşaqlarda qüsurun strukturunda əqli pozulmalar, proqramlaşdırma və idrak fəaliyyətinə nəzarət sahəsində nizamsızlıq üstünlük təşkil edir.

T.A.Vlasova 1966-cı ildə PİL olan uşaqların öyrənilməsinə böyük töhfə vermişdir. M.S.Pevzner PİL-in klinik sistematikasını aşağıdakı kimi müəyyənləşdirmişdi:

- idrak fəaliyyətinin zəif inkişafı ilə psixofiziki infantilizm;
- tam intellektlə emosional-iradi sahənin inkişaf etmədiyi psixofiziki infantilizm;
- neyrodinamik pozulmalarla mürəkkəbləşən idrak fəaliyyətinin zəif inkişafı ilə psixofiziki infantilizm;
- nitq funksiyalarının inkişaf etməməsi ilə mürəkkəbləşən idrak fəaliyyətinin zəif inkişafı - psixofiziki infantilizm. PİL olan uşaqların intellektual fəaliyyəti qeyri-mütənasibdir: problemin həllinin vizual effektiv şəkildə həyata keçirilə biləcəyi və obyektiv dəstəyin olduğu hallarda, uşaqlar normal inkişaf edən həmyaşıdları kimi çətinlik çəkmir və tapşırıqları uğurla yerinə yetirirlər. Klinik və psixo-pedaqoji məlumatlara əsasən PİL olan uşaqlarda yaddaş pozulmalarına aşağıdakılar aid edilir:

- ixtiyari əzbərləmə formalarının qeyri-ixtiyari formadan üstün olması;
- yadda saxlama məhsuldarlığının azalması;
- rasional yadda saxlama üsullarını tətbiq edə bilməmək (məsələn, mətnin yadda saxlanması planı, təsnifat və s.);
- yaddaşın həcminin azalması;
- reproduksiya edilmiş rəqəmsal və şifahi materialın nizamının pozulması, özünü idarəetmə funksiyasının inkişaf etməməsi ilə izah olunur;
- aşağı yaddaş seçiciliyi.

PİL olan uşaqların diqqəti bir sıra xüsusiyyətlərlə xarakterizə olunur:

- diqqətin sabitliyinin azalması, diqqətin konsentrasiyasının azalması, təlim tapşırıqlarını tam şəkildə yerinə yetirməyin mümkünsüzlüyünə səbəb olur;

- diqqətin həcminin azalması;

- diqqətin seçiciliyinin azalması;

- eyni anda bir neçə hərəkəti yerinə yetirməyin qeyri-mümkünlüyündən ibarət olan diqqətin paylanmasının azalması.

PİL olan uşaqlarda qavrayışın aşağıdakı spesifik xüsusiyyətlərini ayırd etmək olar:

- obyektləri məqsədyönlü və sistemli şəkildə yoxlamaq bacarığının olmaması;

- bütövlüyün pozulması (uşaqlar tədqiq olunan obyekti hissə-hissə qəbul edir, ikinci dərəcəli detallara diqqət yetirir, əsas xüsusiyyətləri vurğulamaqda çətinlik çəkir);

- təlim məlumatlarının qavranılması və emalı sürətinin ləngiməsi;

PİL olan uşaqların psixoloji xüsusiyyətlərinə aşağıdakılar daxil edilir:

- İdrak fəaliyyətində tez - tez yorğunluq, motivasiyanın aşağı olması
- Psixomotor funksiyaların inkişafında ləngimə;
- Motor bacarıqların həyata keçirilməsi zamanı yaşla bağlı qabiliyyətlərdə ləngimə müşahidə olunur.

## ƏDƏBİYYAT

1. Ağayeva T. H. Korreksiyaedici Pedaqogika. Bakı – 2020. – 98s
2. Лубовский В. И. Специальная психология. – М.: Академия, 2005. – 464с
3. Певзнер М.С. Дети с отклонениями в развитии. М., 1966.

# ОПРЕДЕЛЕНИЕ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ И ПРИЧИНЫ РАЗВИТИЯ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ

***Исмайылова Гюльниса Алибала***
***Магистрант II курса БГУ***
***g.ismaylova@landauschool.com***

Основными понятиями в дидактике являются «обучение» и «образование». Дистанционное обучение и дистанционное образование – новое явление в педагогике, и поэтому важно вначале выяснить смысл понятия «обучение».

Ряд авторов определяют данное понятие как специально организованный, целенаправленный процесс взаимодействия учителей и учеников, направленный на усвоение знаний, умений и навыков, формирование мировоззрения, развитие умственных сил и потенциальных возможностей обучаемых, выработку и закрепление навыков самообразования в соответствии с поставленными целями, или как упорядоченное взаимодействие педагога с учащимися, направленное на достижение поставленной цели, или как специфический процесс познания, управляемый педагогом.

Дистанционное образование – комплекс образовательных услуг предоставляемых широким слоям специалистов и населения с помощью специализированной информационно-образовательной среды на любом расстоянии от учреждений образования.

Под информационно-образовательной средой понимаем системно организованную совокупность средств передачи данных, информационных ресурсов, протоколов взаимодействия, аппаратно-программного и организационно-методического обеспечения, ориентированную на удовле-

творение осознанных и интуитивных потребностей пользователей.

В основу дистанционного образования положена определенная модель передачи знаний. Источниками знаний являются информационные ресурсы сети, как специальным образом подготовленные, так и уже существующие в базовой телекоммуникационной среде, например: базы данных, информационные системы. Дистанционное образование может иметь целью как систематическое обучение (сертифицированная подготовка, повышение квалификации, переподготовка специалистов), так и открытое образование (повышение общеобразовательного и культурного уровня населения, популяризация научных знаний).

Функции преподавателя сводятся к отслеживанию процесса обучения, его соответствия поставленным задачам, к консультированию курсантов по проблемным вопросам, организации и проведению дискуссий по изучаемому вопросу, а также контролю за уровнем усвоения учебного материала.

Исследования американских ученых показывают, что результаты дистанционного обучения не уступают и даже превосходят традиционные формы обучения. Студенты дистанционного обучения изучают большую часть учебного материала самостоятельно. Это улучшает запоминание и понимание изученных тем. А умение сразу применять полученные знания на практике помогает закрепить их. Кроме того, использование новейших технологий в учебном процессе делает его более интересным и живым.

Трудно преподавать специальности, которые вовлекают большое количество практических упражнений дистанционно. Даже самые современные тренажеры не заменят будущих врачей или преподавателей «живой» практики.

## ЛИТЕРАТУРА

1. Дистанционное образование. Характеристика понятия. (Елизаров А.А., Ястребов Л.И., Гужеля Д.Ю.)
2. Методика дистанционного обучения. Учебное пособие для вузов
Книга, Виктория Шитова, М. Вайндорф-Сысоева, и Татьяна Грязнова
3. Карпов, А. С. Дистанционные образовательные технологии. Планирование и организация учебного процесса.

## HƏYƏCAN TERAPİYASINDA EMDR TƏTBİQİ

***Yükmen Adıyaman***
***BDU-nun II kurs magistrantı***

Son 25 il ərzində EMDR terapiyası ilə bağlı kifayət qədər klinik tədqiqat aparılıb ki, bu yanaşma travmanın effektiv müalicəsi kimi geniş şəkildə qəbul edilib. EMDR haralarda istifadə edilir?

Shapironun inkişaf etdirdiyi standart EMDR protokolu zaman içərisində müxtəlif psixoloji narahatlıqlarla çalışan kliniklər tərəfindən inkişaf etdirilmişdir.

Edilən işlərdə EMDRnin yalnız travma sonrası stress pozğunluğunun (TSSP) müalicəsində deyil,bir çox dəyişik psixoloji narahatlıqların müalicəsində fəaliyyət göstərdiyi müxtəlif işlərlə göstərilmişdir.

EMDR'nin aşağıda göstərilən psixoloji narahatlıqların müalicəsində fəaliyyəti,edilən işlərlə dəstəklənmişdir.

1) İraq, Əfqanıstan, Vyetnam, Koreya və 2. Dünya Müharibəsində döyüşmüş TSSP simptomları göstərən və müalicəyə müqavimətli əsgərlərlə edilən işlərdə EMDR seanslarından sonra məsləhətləşənlərin TSSPna bağlı

yaşadıqları flashbacklərin (hadisəyə geri dönmə),kabusların və digər TSSP simptomlarının itdiyi görülmüşdür.

2) Fobiya, panik pozğunluq və geniş yayılmış itirmə Pozğunluğu yaşayan şəxslərin EMDR'dən sonra qorxuları və simptomlarında sürətli azalma olduğunu ifadə ediblər.

3) Cinayətdən zərər çəkənlər,polislər,xilasedicilər və sahə işçiləri kimi hücuma məruz qalan və ya işlərinin təbiəti gərəyi sıx stress altında çalışan kəslərin,EMDR'dən sonra bunlara bağlı narahatlıqlarının itdiyini ifadə etmişlər.

4) Bir yaxının itkisinə bağlı olaraq sıx kədər və yas yaşayan kəslərin EMDR seanslarından sonra yas müddətini daha rahat keçirdikləri müşahidə edilmişdir.

5) Uşaqlar və yeniyetmələrin yaşamış olduqları zədələrə bağlı inkişaf edən simptomlarda yaxşılaşma görülmüşdür.

6) Təbii fəlakət və ya insan əliylə yaradılan fəlakət qurbanları normal həyatlarını davam etdirə bilməkdədir.

7) Qəza,əməliyyat,ya da yanıqlara məruz qalan və buna bağlı olaraq duyğusal və fiziki baxımdan narahatlıq duyan kəslərin EMDR seanslarından sonra məhsuldar həyatlar yaşamağa başladıqları müşahidə edilmişdir.

8) Ailə,evlilik problemləri və cinsi problemlər yaşayan kəslərin sağlam əlaqələr qura bilməsini təmin edən təsirli bir texnika olduğu görülmüşdür.

10) Dissosiativ pozğunluğu olan şəxslərin yaxşılaşma prosesinin EMDR ilə,ənənəvi müalicə metodlarına nəzərən,daha qısa müddətdə reallaşdığı görülmüşdür.

11) Performans qayğısı yaşayan,ya da məktəbdə,işdə,sənət və idman sahələriylə məşğul olarkən əksiklik yaşayan fərdlərin performansının artırılmasında təsirli bir şəkildə istifadə edilməkdədir.

12) Somatik və ya somatoform pozğunluq, migren ağrısı, xroniki ağrı, xroniki ekzema, mədə-bağırsaq problemləri, mənfi bədən forması yaşayan fərdlərin müalicəsində istifadə edilməkdədir.

13) Kəskin travma,travma sonrası stress pozğunluğu və travma əsaslı şəxsiyyət problemlərinin müalicəsində bilinən ən təsirli psixoterapiya texnikalarından biridir.

## ƏDƏBİYYAT

1. Бессер-Зигмунд, К. EMDR в коучинге / К. Бессер-Зигмунд, Х Зигмунд; пер. с нем Н. Густ. – СПб.: Издательство Вернера Регена, 2007. – 160 с.
2. Шапиро, Ф. Психотерапия эмоциональных травм с помощью движений глаз: основные принципы, протоколы и процедуры /Ф. Шапиро; пер. с англ. А.С. Ригина – М.: Независимая фирма «Класс» – 1998 – 496 с.
3. Perkins, B.R., & Rouanzoin, C.C. A critical evaluation of current views regarding eye movement desensitization and reprocessing (EMDR): Clarifying points of confusion. Journal of Clinical Psychology, 58 – 2002 – pp. 77–97.

## MÜASİR DÖVRDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN TƏHLİLİ

***Məmmədov Samir Mahir oğlu***
***BDU-nun II kurs magistrantı***

Müasir dövrdə ailə problemlərinin tədqiqi, onların qloballaşan ictimai-siyasi, sosial-psixoloji proseslər zəminində öyrənilməsi psixologiyanın aktual problemlərindən biri kimi diqqəti daha çox cəlb edir. Ailə həyatı mürəkkəb və çoxcəhətlidir. Ailə həyatının vektoru bilavasitə ailə münasibətləri ilə şərtlənir. Onlarm araşdırılması ailə psixologiyasının önəmli vəzifələrindən biridir. Ailə həyatının sosial-psixoloji effektləri hər şeydən öncə ailə konfliktləri məhz ailə münasibətləri zəminində əmələ gəlir və inkişaf edir. Ailə tərbiyəsi, ailədaxili münasibətlərin öyrənilməsi, tədqiqata

cəlb olunması bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Ailə tərbiyəsi, ailə-nikah, ailədaxili münasibətlərə bu qədər maraq və diqqətin artması bir neçə başlıca şərtlə bağlıdır. Birincisi, ailə münasibətləri birbaşa, açıq şəkildə cəmiyyət həyatında baş verən proseslərlə bağlıdır. Cəmiyyət daxilində gedən yeniləşmə qeyd-şərtsiz ailə həyatına da ciddi və güclü şəkildə təsir edir. İkincisi, ictimai mühit, cəmiyyətin inkişafı ailənin, insanların fiziki və mənəvi sağlamlığını təmin edən sosial institutun necəliyindən çox asılıdır. Üçüncüsü və daha əsası ondan ibarətdir ki, son dövrlərdə ailə həyatında, onun sosial funksiyalarında bir sıra neqativ hallar artmaqdadır. Bunları başlıca olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1) boşanma hallarının çoxalması;

2) ailədə uşaqların sayının azalması;

3) problemli ailələrin sayının artması;

4) ailənin uşaqların tərbiyəsi ilə bağlı funkiyasını yerinə yetirə bilməməsi;

5) ailə qurmaq istəməyən gənclərin sayının artması və s

Ailə münasibətlərinin kökünü vəhdətdə olan ər-arvad və valideyn-uşaqlar arasındakı münasibətlər təşkil edir. Ənənəvi ailə həmin şaxəli sütun üzərində yaranmış və inkişaf etmişdir. Müasir ailədə isə bu baxımdan mahiyyətcə yeni cəhətlər əmələ gəlmişdir. Vaxtilə sosioloqlar və psixoloqlar ailənin möhkəmləndirilməsindən danışanda, diqqəti, ilk növbədə, valideynlərlə - övladlar arasındakı münasibətlərə cəlb edirdilər. İndi isə bir çox sosioloqlar və demoqraflar valideynlik münasibətlərini ər-arvadlıq münasibətlərindən təcrid edirlər. Ailə münasibətlərinin möhkəmləndirilməsi yollarının təkcə ər-arvad münasibətlərində axtarır, onlann cinsi tələbatlarının təmin olunmasına, intim əlaqələrinə daha çox diqqət yetirirlər. Bəzi psixoloqların fikrincə, müasir ailədə, xüsusilə şəhər ailəsində, şəxsiyyətlərarası münasibətlərin psixoloji mərkəzi dəyişilmiş, ərin və arvadın şəxsiyyəti birinci dərəcəli əhəmiyyət kəsb etmişdir. Ər-arvad münasibətləri nisbi

müstəqillik kəsb etmiş və ailə həyatında daha mühüm rol oynamağa başlamışdır. Valideynlərlə uşaqların qarşılıqlı münasibətlərinin əhəmiyyəti böyük olsa da, onlar müasir ailədə artıq ikinci plana keçmişdir. Bəzi müəlliflər hətta ər-arvadın mənafeyinin öz-özlüyündə ailənin mənafeyindən daha üstün olduğunu iddia edirlər. 70-80-ci illərdə sosiologiyada, demoqrafıyada, psixologiyada ailə bu ölçülərlə təhlil olunub.Ailə münasibətlərində ər-arvad münasibətlərinin ön plana keçməsini humanizmin təntənəsi, zəfər çalması hesab ediblər. Lakin indi mütəxəssislər ailənin böhran vəziyyətində olmasından və ya böhran həllinə çatmasından daha çox narahat olmağa başlamışlar. Sən demə, ailə münasibətlərində valideynlər - övladlar arasındakı münasibətlərin arxa plana keçməsi ilə ailənin möhkəmliyini şərtləndirən mənəvi-psixoloji dayaqlar sarsılmışdır. Boşanma zəminində dağılan ailələrin həddi-hüdudu yoxdur. Artıq bir çox sosioloqlar və demoqraflar belə hesab edirlər ki, ailə münasibətlərini təkcə ər-arvad münasibətləri ilə məhdudlaşdırmaq birtərəflidir. Ailəni möhkəmləndirməyin başlıca şərti valideynlər - övladlar arasındakı münasibətlərin optimallaşdırılması ilə bağlıdır.

Ailə sosial-psixoloji baxımdan hər şeydən əvvəl sosial qrup olduğuna görə, digər sosial qrup və kollektivlər üçün səciyyəvi olan bir çox psixoloji fenomenlər ailə üçün də səciyyəvidir. Bunlara psixoloji mahiyyət kəsb edən birgə fəaliyyətin məqsədləri və motivlərini, ailənin bir qrup kimi qarşısında duran funksiyaları yerinə yetirməyə hazırlıq səviyyəsini, ailəni dağıda biləcək daxili və xarici təsirlərə qarşı onun möh - kəmlik dərəcəsini, ailənin məq sədləri və ideya sərvətləri, dəyərləri ilə şərtlənən ailədaxili münasibətlərin xarakterini və psixoloji iqlimini, emosional idenktikliyi, yekdilliliyi, ailədaxili uyuşmanı və.s aid etmək olar. Ailə həyatının dayanıqlı olmasının mühüm psixoloji amillərdən biri birgə yaşamağa alışma və qarşılıqlı adaptasiyadır.Ailədə ər arvad arasında qarşılıqlı münasibətin formalaşmasında mühüm amil olan

adaptasiya öz mahiyyəti etibarı ilə psixoloji fenomendir. Bu məsələdən bəhs edən rus psixoloqu S.V.Kovalev ailədə ər-arvad arasında adaptasiyanın 3 əsas tipini fərqləndirir.

1) maddi-məişət;

2) mənəvi-psixoloji;

3) şəxsi – intim;

Onun fikrincə maddi-məişət səviyyəsində adaptasiya ərarvadın ev işlərini yerinə yetirmələrində hüquq və öhdəliklərini razılaşdırmalarını, ailə büdcəsini hər ikisini qane edən səviyyədə planlaşdırılmasını və bölünməsini əks etdirir. Mənəvipsixoloji səviyyədə adaptasiya dünya görüşlərinin, ideallarıın, maraqların, sərvət meyllərinin, ustanovkaların, habelə, ər-arvadın şəxsi və xarakterik xüsusiyyətlərinin uyğunluğuna əsaslanır. Şəxsi-intim səviyyədə adaptasiya ər-arvadınn seksual tələbatlarında uyğunluğu, intim münasibətlərdən yalnız fizioloji deyil, həm də mənəvi-psixoloji baxımdan hər ikisinin məmnunluğunu ifadə edir

Haqqında danışdıqlarımızı ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, hər bir ailədə ailədaxili münasibətlər müxtəlif səpgidə qurulur. Ailə münasibətlərində kişi və qadınların ailə həyatına yanaşmalarında da fərqlər mövcuddur. Ailədəki münasibətlər ərlə-arvadın, valideynlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərinin ümumi səciyyəsi ilə müəyyən edilir və obrazlı desək, birbaşa onları təcəssüm etdirir.

## ƏDƏBİYYAT


1.Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: 2008

2.Bayramov Ə.S., Əlizadə Ə.Ə.Ümumi psixologiya. Bakı:Maarif,1989

3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Dərslik. Bakı: 2003

4.Гришина Н.В. Психология конфликта. Питер, СПБ, 2006

5. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: Bilik, 2012, 232 s.

## TRANZİTİV CƏMİYYƏTDƏ NƏSİLLƏRARASI MÜNAQİŞƏLƏR

***Həsənli Şəbnəm Razi qızı***
***BDU-nun II kurs magistrantı***
***shabnamhasanly@gmail.com***

Müasir dövrümüzdə qloballaşma prosesləri sürətlə inkişaf edir, innovasiyalar baş verir. Bəşəriyyət inkişaf etdikcə "atalar və övladlar" problemi çoxalır. Bu ziddiyyətlərin əsasında cəmiyyətin transformasiya etməyi durur. Cəmiyyət dəyişir, transformasiya edir, modernləşir, inkişaf edir. Belə cəmiyyət tranzitiv cəmiyyət adlandırılır. "Tranzitiv cəmiyyət" anlayışının elimdə geniş şəkildə istifadə olunur [1; 2; 5; 7].

İnsan və cəmiyyət arasındakı qarşılıqlı əlaqənin xarakteri cəmiyyətin dəyişikliklərin subyekti kimi müəyyən edilməsini ehtiva etməsidir, bu da davam edən dəyişikliklərin mövcud davamlılığını göstərir. G.M. Andreeva hesab edir ki, dəyişikliklər təkcə sosial mühitin fundamental xarakteristikası kimi deyil, həm də ümumi ontogenetik hadisə kimi müəyyən edilir: fərddə baş verən hər hansı dəyişiklik sosial mühitdə transformasiyalara səbəb olur və əksinə, sosial mühiti dəyişdirməklə insan özünü dəyişir [4].

İnformasiya sosiallaşmasının əməliyyat tərəfi müxtəlif nəsillər arasında ciddi uyğunsuzluğa gətirib çıxarır. İnternet texnologiyalarının (yeni şəbəkələr, informasiya kanalları, əməliyyat alətləri) daim ortaya çıxması nəsillər arasında daha da böyük fərqlərə səbəb olur [6].

Müasir reallıqda nəsillərin diferensiallaşdırılması problemi də əksini tələb edir: simvolik və sosial məkanda boşluq – meqapolislər və kiçik şəhərlər, şəhərlər və qəsəbələr arasında

və s.; müasirləri ilə digər həyat aləmlərinin nümayəndələri arasında mədəni və psixoloji zaman boşluğu.

Nəsillərarası münasibətlər problemi mədəni dəyərlərin ötürülməsi ilə bağlıdır, çünki tranzitiv cəmiyyətdə əvvəlki nəsillərin təcrübəsi, mədəni dəyərini itirməsə, gündəlik həyat təcrübəsi kimi əhəmiyyətini itirir.

Müasir dinamik cəmiyyət özünütəsdiq və inkişaf yollarını seçməkdə hər bir yeni nəsil qarşısında daim yeni problemlər və vəzifələr qoyur. Belə bir cəmiyyətdə əvvəlki nəsillərin təcrübəsi indiki gələcəyin çağırışlarına tam cavab verə bilməz. Təcrübənin ötürülməsi mexanizmləri dəyişir, nəticədə hər bir nəslin "imici" formalaşır. Yaşlı nəsil öz dəyərlərinə əsaslanır və yeniliklərə uyğunlaşmaqda çətinlik çəkir, yeni nəsil isə daha çox yeniliyə can atır. Bu səbəbdən nəsillər arasında münasibətlərdə müxtəlif növ münaqişələr yaranır. Nəsillərin qarşıdurmasının əsas amillərindən biri də bunlardır:

- Yaşlıların sosial vəziyyətinin aşağı salınması.
- Elmi-texniki inkşafın sürətlənməsi nəticəsində sənaye cəmiyyətində əməyin xarakterini dəyişməsi.
- Yaşlı nəsillərin toplanmış təcrübəsinin gənclər tərəfindən qiymətləndirilməməsi.
- Pensiya yaşına çatmış şəxslərin işdən uzaqlaşdırılması ilə bağlı susqun dövlət siyasətinin yayılması.

Anlaşma, hörmət və qarşılıqlı dəstək insanların bir-biri ilə isti münasibət saxlamalı və münaqişələrdən qaçmağa kömək edəcək üç əsas komponentdir [3].

V.Satir nəsillərin konfliktini hələ də vahid baxışın formalaşmadığı, qarşılıqlı anlaşmanın əldə olunmadığı problemlər silsiləsi kimi müəyyən edir. Onun nöqteyi-nəzərindən, həm valideynlər və nənə babalar, həm də valideynlər və uşaqlar arasında münaqişə var. Münaqişədən çıxmaq üçün V.Satirin fikrincə, bir-birini həqiqətən tanımaq, bir-birinin individuallığını görmək lazımdır. Ailənin yaşlı və gənc üzvləri arasında yaranan problemlərin əksəriyyəti

yaşlıların qoca roluna alışması ilə bağlıdır. Ətrafdakı bütün insanlar artıq unudublar ki, onların da qəlbi, ruhu var, onların hələ də sevgiyə, qayğıya ehtiyacı var, həyatın mənasını hiss etmək onlara da lazımdır. Bunu yaşlılar özlərində unudublar [8].

## ƏDƏBİYYAT


1. Агранович В. Б. Инновации в транзитивном обществе: социально-философский анализ: дис. филос. наук. Томск, 2007
2. Анкудинова О. А. Социально-философский анализ властных отношений в контексте транзитивного общества: дис. ... канд. филос. наук. Томск, 2005
3. Вдовина М. Специфика межпоколенных конфликтов. // «Демографические исследования». 2010, №4.
4. Дубовская Е.М. Экономическая социализация в транзитивном обществе. Введение в проблему // Социальная психология и общество. № 4. 2013
5. Дунаева Н. Н. Трансформация структурных компонентов массового сознания в условиях транзитивного российского общества (региональный канд. филос. наук. Ростов н/Д, 2001
6. Марцинковская Т.Д. Человек в транзитивном и виртуальном пространстве: новые вызовы модальности // Психология в России: современное состояние. 2019. Том. 12 (2). С. 165—176.
7. Пашков С. Н.Общество в условиях интенсификации канд. филос. наук. аспект): дис. социального транзитива: дис. Нальчик, 2007.
8. Сатир В. Как строить себя и свою семью. - М.: Педагогика-Пресс, 1992. - 190

# NİTQİN QRAMMATİK STRUKTURUN FORMALAŞDIRILMASI

*Məmişov Daşqın Rauf oğlu*
*ADPU-nun II kurs magistrantı*

Məktəbəqədər yaş dövrü uşaqların nitqinin intensiv inkişafı ilə xarakterizə olunur. Bu dövrdə lüğət ehtiyatının genişlənməsində keyfiyyət sıçrayışı baş verir və söz yaradıcılıq bacarıqlarının tədricən formalaşması ilə uşaq nitqin bütün hissələrini fəal şəkildə istifadə etməyə başlayır. Normal nitq inkişafı ilə, 5 yaşına qədər uşaqlar genişlənmiş frazalı nitqdən, mürəkkəb cümlələrin müxtəlif quruluşlarından sərbəst istifadə edirlər. Bu yaşda lüğət ehtiyatı kifayət qədər olur, söz əmələ gətirmə və fleksiya bacarıqlarına malikdirlər. Bu zamana qədər düzgün səs tələffüzü, səs analizi və sintezinə hazırlıq nəhayət formalaşır.

Ancaq bütün hallarda bu proseslər tam şəkildə getmir: hətta normal eşitmə və zəkaya sahib olan uşaqlarda dilin hər bir komponentinin formalaşması kəskin şəkildə ləngiyir: fonetika, lüğət ehtiyatı, qrammatika. Bu pozulma halı ilk dəfə R. E. Levina tərəfindən müəyyən edilmiş və ümumi nitq inkişafı ləngiməsi (ÜNİL) kimi müəyyən edilmişdir. Ümumi nitqi inkişaf etməmiş bütün uşaqlarda həmişə səs tələffüzü pozulur, fonematik qavrama zəif inkişaf edir, lüğət və qrammatik quruluşun formalaşmasında aydın görünən bir geriləmə olur. Nitqin leksik və qrammatik tərəfinin pozulması ümumi nitqin inkişafı ləngiməsinin strukturunda aparıcı qüsurdur.

R.I. Lalayeva, N.V. Serebryakova, ümumi nitq inkişafının ləngiməsi olan uşaqlarda nitqin qrammatik quruluşunun formalaşması aktiv və passiv lüğətin mənimsənilməsindən daha böyük çətinliklərlə baş verir. Bu onunla bağlıdır ki, qrammatik mənalar həmişə leksik mənalardan daha mücərrəd olur və dilin

qrammatik sistemi çoxlu sayda dil qaydaları əsasında təşkil olunur.

ÜNİL olan uşaqlarda nitqin leksik-qrammatik tərəfinin pozulmalarını aradan qaldırmaq üçün onun pozulması mexanizmini öyrənmək, səbəbləri müəyyən etmək və uşaqların psixoloji və pedaqoji dəstəyi üçün şərtləri müəyyən etmək lazımdır.

Uşaqlarda nitqin qrammatik tərəfinin formalaşması üzrə aparılan korreksiya iş sistemində böyük əsas rol didaktik oyunlara verilir (uşaqların nitq qabiliyyətlərini inkişaf etdirmək, nitq inkişafındakı mövcud boşluqları və problemləri aradan qaldırmaq). Uşağın nitqinin qrammatik tərəfinin formalaşması daimi davamlı prosesdir. Bu, uşaqların nitqinin qrammatik quruluşunun inkişafının psixofizioloji əsaslarına uyğundur. Didaktik oyunlar uşaqları ardıcıl ifadələr tərtib etmək, fikirlərini düzgün formalaşdırmaq, izahlı nitqi inkişaf etdirmək, nitq və dil sahəsində axtarış fəaliyyətinə başlamaq, dil ümumiləşdirmələrini formalaşdırmaq bacarığını öyrədir.

Qrammatik cəhətdən düzgün nitqin formalaşmasının əsas vasitəsi xüsusi siniflərdə keçirilən təlimdir. Təbii ki, hər bir dərsdə müəllim uşaqların nitqindəki səhvləri düzəldə bilər və etməlidir. Qrammatik cəhətdən düzgün nitqin öyrədilməsi əyani materialla və ya material olmadan məşqlər və didaktik oyunlar vasitəsilə aparıla bilər . Vizual material kimi təbii obyektlər, oyuncaqlar, şəkillər və s.dən istifadə edilə bilər. Qrammatika üzrə görülən iş qısa müddət ərzində aparılmalıdır, çünki material mürəkkəb olur. Oyunlar və məşqlər, bir qayda olaraq, 5-10 dəqiqə verilir. Dərslər rahat, canlı keçirilməlidir; tərbiyəçi izah edərkən qrammatik terminologiyadan istifadə etməməlidir

Nitqin qrammatik tərəfinin korreksiya edilməsi zamanı aşağıda göstərilə metodlardan istifadə etmək olar.

### “Nə dəyişdi?”

Oyunun məqsədi: yer bildirən sözlərdən və onların mənalarından istifadə bacarıqlarını formalaşdırmaq.

İstifadə olunan vasitələr: kukla, uşaq masası.

Oyunun aparılma qaydası: Uşaqlar kukla ilə oynamağa dəvət olunur. Uşaqlara suallar verilir və öyrənilən ön sözdən asılı olaraq oyun hərəkətlərindən istifadə olunur.

- Kukla harada oturur? ( masanın üstündə)
- Kukla nəyin üstündə oturur? ( masanın üstündə)
- Kukla indi nəyin üstündə oturur? ( Döşəmədə ).
- Kukla nəyin altında oturur ? ( masanın altında ).
- Kukla nəyin yanında oturur? ( masanın yanında).
- Bəs indi kukla kimin yanında oturur? ( kitabın yaxınlığında ).

“Sehrli çanta”

Oyunun məqsədi: cinsdən istifadə etmək, cinsdəki sifətləri əlaqələndirmək bacarıqlarını formalaşdırmaq.

İstifadə olunan vasitələr: top, dovşan, alma, xiyar, vedrə, qurbağa, qaşıq.

Oyunun aparılma qaydası: “Sehrli çanta” gətirilir, oradan oyuncaqlar çıxarılır.

1. Uşaqlar onlara baxır və suallara cavab verirlər.

- Hansı pomidor? (Yumru, sulu , qırmızı.)
- Hansı top? (Mavi, rezin, yumru, gözəl, kiçik.)
- Hansı alma? (Dadlı, şirin, yuvarlaq, qırmızı, böyük.)
- Hansı qurbağa? (Yaşıl, soyuq, parlaq.)
- Hansı vedrə? (Plastik, sarı, kiçik, yüngül.)
- Hansı qaşıq? (Dəmir, kiçik, parlaq, çay.)

Sonra bütün oyuncaqlar bir daha uşaqlar tərəfindən diqqətlə yoxlanılır və çantaya qoyulur.

2. Mövzunun tərifi verilir və uşaqlar mövzunu təxmin edirlər.

“Kukla nə edir?”

Oyunun məqsədi: felin əmr formasının nitqdə istifadəsini və zamana görə dəyişməsini öyrənmək.

İstifadə olunan vasitələr: kukla.

Oyunun aparılma qaydası: Kukla gətirilir. Uşaqlar kukladan bir şey etməyi xahiş etməyə dəvət olunur.

- Kuklanın atlamasını istəyiriksə, ona necə deyə bilərik?
- *Kukla atla.*
- Bəs kuklanın oturmasını istəyirik?
- *Kukla, otur.*
- Bəs ondan bizimlə çay içməsini istəsək, ona necə deyəcəyik?
- *Kukla, otur. Bir çay iç.*
- Ona qələm almasını necə deyək?
- *Kukla, qələmi götür.*
- Kukla indi nə etdi?
- *Kukla atladı, oturdu, dövrə vurdu və çay içdi.*
- Kukla indi nə edir?
- *Fırlanır, çay içir, rəsm çəkir.*
- Kukla bundan sonra nə edəcək?
- *Çay içəcək, rəqs etədəcək, atlayacaq* .

“Peşələri adlandırın”

Oyunun məqsədi:__Təhlil və sintezi bacarığını inkişaf etdirmək.

İstifadə olunan vasitələr: Müxtəlif peşələri əks etdirən şəkillər.

Oyunun aparılma qaydası: Yetkin uşaqları aşağıdakı suallara cavab verməyə dəvət edir:

- Boruları kim qaynaqlayır? Qaynaqçı.
- Şüşəni kim qoyur? Şüşəçi.
- Kranda kim işləyir? Kran operatoru.
- Daşları kim qoyur? Mason.
- Bıçaqları kim itiləyir? Bülövçü.
- Saatı kim düzəldir? Saatsaz.

- Ekskavatorda kim işləyir? Ekskavator operatoru.

"Bu şeylər kimə lazımdır"

Oyunun məqsədi: İsmin hal halının formalarını düzəltmək.

İstifadə olunan vasitələr: İki dəst şəkil: bir dəst müxtəlif peşə sahiblərini, ikinci dəstdə müvafiq alət və əşyaları təsvir edir.

Oyunun aparılma qaydası: Müəllim uşaqlara müxtəlif peşə sahiblərini təsvir edən şəkillər verir və "Təyyarə kimə lazımdır?" Sualını verərkən obyektləri təsvir edən şəkilləri göstərir.

kizinci sinif şagirdləri daxil edilir. Adətən 11-13 yaşlı oğlan və qızları kiçik yeniyetmə, 13-15 yaşlı oğlan və qızları isə böyük yeniyetmə adlandırırlar. Amma biz yeniyetməlik dövrünə konkret sərhəd qoya bilmərik. Bu fərdlərə görə dəyişir. Bu dövr həm pedaqoji baxımdan çətinliklər, həm də psixoloji dəyişimlərlə diqqəti cəlb edir. Bu dövrdə uşaq şəxsiyyətindəki dəyişikliklər həm ailədə, həm məktəbdə, həm də cəmiyyətdə özünü biruzə verir.

Məsələn, məktəbdə uşaq yeni şəraitə düşür, onun üçün təlim materialı, dərsdə təlim işinin formaları mürəkkəbləşir. Eyni zamanda yeniyetmə öz həmyaşıdları və yaşlılarla ünsiyyətdə, məktəbdənkənar fəaliyyət növləri sahəsində yeni-yeni təcrübələr qazanır.

Yeniyetməlik dövrü həmçinin, təlimin müəyyən növünə yiyələnmək üçün zəruri olan həssaslıq və yüksək qavrama kimi qabiliyyətləri ilə diqqəti cəlb edir. Bu zaman yeniyetmə təlim fəaliyyətinin bütün növlərini dərk etməyə, dərs prosesində müstəqil iş formalarını həyata keçirməyə qadir olur.

Yeniyetmələrin psixi halı çox dəyişkən olur. Bu dövrdə fərdlərdə qeyri-sabit emosional vəziyyət özünü göstərir. Onlar çox tez-tez emosioal dəyişiklik yaşaya bilir. Enerjili, gümrah olan bir yeniyetmə bir az sonra yorğun hiss edə bilər. Yeniyetmələr hər bir duyğunu yüksək səviyyədə yaşayır. Sevinəndə çox coşqulu sevinir, qəmlənəndə də həddən artıq qəmlənirlər.

Yeniyetmənin iradi-emosional xüsusiyyətləri daha zəngin olur. Onların hissləri daha real xarakter daşıyır. Onlar dostluq, yoldaşlıq münasibətlərində açıqürəklilik edirlər, bir-birlərinin daha çox hüsn-rəğbətini qazanmağa can atırlar, sirrlərini bir-birlərinə deyirlər. Yeniyetmələr əxlaq normalarını, həyatda olan gözəllikləri qiymətləndirir, onlardan zövq alırlar. Onlarda əxlaqi, zehni, estetik hisslər sürətli şəkildə inkişaf edir.

Ümumiyyətlə, yeniyetmələrdə özlərinin də dərk etməkdə çətinlik çəkdiyi yeni xüsusiyyətlər meydana gəlir. İlk növbədə

yeniyetmələrdə müstəqilliyə hədsiz meyl özünü göstərir. Onlar asılılıq duyğusundan azad olmaq, azadlıq əldə etmək arzusunda olurlar. Yeniyetmələr öz həyatlarını öz imkanlarına uyğun şəkildə deyil, onlardan daha geniş şəkildə yaşamağa çalışırlar. Buna görə də valideynlər və digər böyüklər yeniyetmənin müstəqilliyə olan meylini müəyyən qədər məhdudlaşdırmalı, onları elə fəaliyyət növlərinə növlərinə cəlb etməlidirlər ki, bu proses onlarda çatışmayan müstəqillik, özünütənzimetmə, özününəzarət vərdişlərini formalaşdıra bilsin.

Bu dövrdə olan fərdlər depressiyaya çox meyilli olurlar. Yeniyetmələr çox həssas olduğu üçün bəzən ən adi hadisələr də onları depressiyaya sala bilir. Bəziləri bu vəziyyətdən tez bir zamanda çıxa bilir. Əgər bunun əksi olarsa, bu zaman intihara yönəlmə halları belə baş verə bilir. Depressiyaya səbəb özgüvənin qırılması, sevgi uğursuzluğu, məktəb və ətraf yoldaşları ilə arasında münasibət pozulmaları, pis rəftar, maddi vəziyyət və s ola bilər. Valideynlər çox zaman övladlarının seçimlərini bəyənmir və bunu sərt şəkildə dilə gətirirlər. Əslində isə bu düzgün yol deyil. Valideyn övladına daha mülayim şəkildə bunu izah etməyə çalışmalıdır. Çox valideynlər düşünür ki,, övlada sevgini bildirmək, dilə gətirmək lazım deyil və uşaq bu halda ərköyün olar.. Ancaq hər bir yaş dövründə bütün övladların ailə sevgisinə, ata, ana nəvazişinə, diqqətinə ehtiyacı var. Sevgi ilə böyüyən, sevgidən yoxsul olmayan uşaqlar daha gözəl yetişir, ətrafa, insanlara qarşı daha anlayışlı, mülayim, mərhəmətli olurlar.

## ƏDƏBİYYAT


1. Vəliyev M.V, Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
2. Kəmalə Qəhrəmanova, Yeniyetmələrdə mənəvi keyfiyyətlərin təşəkkülündə inam və dini etiqadın rolu. Bakı – 2007.

3. Çivilidağ, Aydın, Gelişim Süreci Odağında Ergenlik Psikolojisi, (Ankara:Nobel Yayınları 2013).

## AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ İMKANLARI

***Quluzadə Nigar Şair qızı***
***BDU-nun II kurs magistrantı***
***nigarquluzade5@mail.ru***

Hər bir insanın şəxsiyyət kimi formalaşması məktəbdən başlayır. Daha doğrusu, ilk insan cəmiyyəti məktəb hesab olunur. Bu baxımdan məktəblərdə təhsil prosesində şagirdlərdə vətənpərvərlik hisslərinin tərbiyəsi daimi olmalı və bu mövzunun təşkili və təbliği metodikanın əsas vəzifələrindən biri olmalıdır [1., s.42]. Qələmlə yazıb oxumağa başlayan şagirdlərin ilk sözləri “Ana” və “Vətən” dir. “Vətən” azadlığımız, şəxsiyyətimiz, şərəf və ləyaqətimizdir. Vətən alınmır, verilmir, dəyişdirilmir, satılmır, köhnəlmir, qocalmır, əbədidir. Vətənin müdafiəsi hər bir vətəndaşın borcudur və onu sevmək anamızı sevməklə eynidir. Vətən sevgisi daxildən gəlsə də, vətənpərvərlik hissi körpəlikdən aşılanmalı, vətənpərvərlik tərbiyəsi ailədən başlamalı, məktəbdə davam etməli və cəmiyyətdə inkişaf etməlidir. Milli kimliyin, uşaqlarda vətənpərvərlik hisslərinin tərbiyəsi, onlarda Vətən və Vətən sevgisinin formalaşdırılması hər bir müəllim üçün vacib məsələlərdən birinə çevrilməlidir.

Gənc nəslin vətənpərvərlik tərbiyəsi dövrümüzün aktual vəzifələrindən biridir. Belə ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasının istiqamətlərindən biri də məktəbəqədər və ümumi təhsil müəssisələrində tərbiyə işidir. Orta məktəblərdə vətənpərvərlik tərbiyəsi üçün geniş imkanlar

vardır. Məktəblərdə tədris olunan ədəbiyyat, tarix və məktəbəqədər fənlər şagirdlərə müvafiq biliklər verməklə yanaşı, milli kimliyin formalaşmasında və vətənpərvərlik ruhunda tərbiyə olunmasında da böyük təsir göstərir [2., s.223].

Biz təhsil müəssisələrində uşaqlara vətənpərvərlik hissi aşılamalıyıq. Bu müəssisələrdə uşaqlarda ailəsinə və evinə, öz ölkəsinin tarixinə və mədəniyyətinə, vətənin təbiətinə məhəbbət hissi aşılamaq lazımdır. Onu da nəzərə almaq lazımdır ki, hər bir uşaq ətrafdakı reallıqları öz hiss və emosiyalarının köməyi ilə dərk edir. Ona görə də gənc nəslin vətənpərvərlik tərbiyəsi kəndə, şəhərə və ölkəyə olan sevgi ilə başlamalıdır. Yalnız bundan sonra vətənə sevgi hissi inkişaf edəcək. Bu bir neçə dərsin nəticəsi deyil. Bir qayda olaraq, onlar uşaqlara sistematik, çox uzunmüddətli və məqsədyönlü təsir nəticəsində yaranır. Bu hissi evdə, sinifdə, tədbirlərdə və hətta oyunlarda uşaqlara aşılamaq lazımdır.

Ölkədəki vətənpərvərlik ruhunun əsas daşıyıcısı və aparıcı qüvvəsi kiçikdən böyüyə hərkəs olmalıdır. Sağlam gənclik hər bir millətin varlığının vacib şərtidir. Bu baxımdan məktəblərimizdə gənclərlə iş sahəsində görülən tədbirlər gənclərin vətənpərvərlik ruhunun daha da inkişaf etməsinə təkan verir.

Təhsil müəssisələrində hərbi-vətənpərvərlik tərbiyəsi planlaşdırılır və səmərəli şəkildə həyata keçirilir. Tibb öncəsi hazırlıq fənni gənclərə öyrədilməsində məqsəd şagirdləri vətənpərvərlik ruhunda tərbiyə etmək, gənc hərbçilərin orduda hazırlanmasını təmin etməkdir. Təlim prosesində tələbələrə qanuna hörmət, orduya rəğbət, Vətənə xidmət, insanlara sevgi kimi hisslər aşılanır [3., s.52].

Məktəbəqədər gənclərin hazırlığı fənni orta məktəblərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 may 1998 -ci il tarixli “Gənclərin ilkin hərbi hazırlığı haqqında Əsasnamə” yə uyğun olaraq tədris olunur. Fənnin mənimsənilməsi X və XI sinif şagirdləri arasında həftədə 2 saat, ildə 68 saat aparılır [3.,

s.61]. Tələbələr tədris ilində sıra hazırlığı, tüfəng və atəş hazırlığı, taktiki hazırlıq, hərbi topoqrafik biliklər, fövqəladə halların təsnifatı, hərbi idarələrdə ilkin tibbi yardımın göstərilməsi qaydalarını öyrənirlər. Hərbi qarderoblar dizayn işləri və bütün bölmələri əhatə edən praktik məşğələlər üçün əyani vasitələrlə təchiz olunmuşdur. Hətta 100-ə yaxın məktəbə elektron silah layihələrinə də start verilmişdir.

Hər il Nazirlər Kabinetinin 119 nömrəli fərmanına əsasən, Bakı şəhəri Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin metodistləri tərəfindən gənclərin peşə hazırlığı öncəsi rəhbərləri üçün cümə günləri seminarlar və metodiki görüşlər keçirilir. Bu seminar və görüşlərdə il boyu keçirilən mövzular müzakirə olunur. Metodistlər müəllimlərə mövzunun məzmununu, planlaşdırma və qiymətləndirmə qaydalarını izah edirlər.

Bu gün məktəblərimizdə 10-11-ci sinif şagirdlərinin hərbi təhsilə marağı yüksəkdir. Tələbələr praktikaya daha çox maraq göstərirlər. Bu baxımdan tələbələr, böyük həvəslə silahların natamam sökülməsi və yığılması, qaz maskalarının istifadəsi və yaralılara ilk tibbi yardım göstərilməsi qaydalarına açıq şəkildə riayət edirlər [1., s.84].

Məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsindən danışarkən "Şahin" hərbi-idman oyunlarını da unutmamalıyıq. Hər il altı nazirlik və idarənin iştirakı ilə "Şahin" hərbi-idman oyunlarının rayon, şəhər və respublika mərhələləri keçirilir. Müsabiqənin keçirilməsində məqsəd şagirdlərimizin hərbi xidmətə və hərbi məktəblərə marağını artırmaqdır. Müsabiqədə şagirdlər fiziki qabiliyyətlərlə yanaşı hərbi bacarıqlara da yiyələnirlər. Ulu öndər Heydər Əliyev müharibə şəraitində olan ölkədə gənc nəslin hərbi vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinə xüsusi diqqət yetirmiş və onu daha yüksək səviyyəyə qaldırmaq üçün məktəbin qarşısında duran əsas vəzifələrdən birini qoymuşdur.

## ƏDƏBİYYAT

1. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif nəşriyyatı, 2015,104 s.
2. S.M.Sadıqova. "Uşaqların hərbi-vətənpərvərlik tərbiyəsində abidələrin tərbiyəvi əhəmiyyəti". Hümanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2007, №2. Ss. 222-226
3. T. Paşayev. Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi. Bakı: Mütərcim, 2010, 302 s.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV-AZƏRBAYCANIN MÜASİR ELM VƏ TƏHSİL KONSEPSİYASININ BANİSİ KİMİ

***İsrafilzadə Əminə Şirvan qızı***
***BDU-nun II kurs magistrantı***
***emineiva1@gmail.com***

Heydər Əliyev Azərbaycan dövlətini və xalqını zamanın çətin sınaqlarından çıxararaq ölkənin bütün sahələrdə tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Xalqımız məhz onun sayəsində mənəvi dəyərləri layiqincə qoruyaraq, üçüncü minilliyə qədəm qoymuşdur.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Təsadüfi deyil ki, 1991-1993-cü illər ölkəmizin müasir

tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Bir tərəfdən də Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, ocümlədən elm və təhsilə diqqət və qayğı daha da artırıldı. Bu təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

Bu mərhələdə ulu öndər Heydər Əliyevin ölkənin rəhbərliyinə gəlməsi ilə respublikanın ictimai, siyasi, təsərrüfat, mədəni və təhsil həyatında da bir canlanma başlandı. Qeyd etmək lazımdır ki, ulu öndər hələ 1969-cu ildə birinci dəfə respublika rəhbərliyinə gəldiyi zaman xüsusi diqqət verdiyi sahələrdən biri də məhz təhsil sahəsi

idi. Artıq XX əsrin 70-80-ci illəri xalqımızın tarixində yalnız iqtisadiyyatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi ayrıca mərhələ təşkil edir. Həmin dövrdə gələcək müstəqilliyimizin təməli qoyulmuş, iqtisadi, sosial və mədəni potensial formalaşdırılmışdır. Bu mərhələdə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın iqtisadi-mədəni inkişafı, sənayenin, kənd təsərrüfatının, mədəniyyət, elm, təhsil və digər prioritet sahələrin idarə edilməsi üçün bacarıqlı və yüksəkixtisaslı kadrların hazırlanmasının vacibliyini mühüm vəzifə kimi qarşıya qoyaraq təhsilin inkişafına xüsusi qayğı göstərirdi.

1969-1978-ci illərdə orta ümumtəhsil məktəblərinin sayı 77 faiz artmışdır. 1979-cu ildə SSRİ-nin 43 şəhərinin 152 ali məktəbində 3315 nəfər azərbaycanlı təhsil alırdı. Ulu öndər ilk növbədə Azərbaycanın intellektual sabahını düşünmüş, sovetlər dövründə respublikada formalaşdırdığı zəngin elmi potensiala istinad edərək özünün mükəmməl elm və təhsil konsepsiyasını irəli sürmüş, milli tərəqqi baxımından strateji əhəmiyyət daşıyan bu sahənin problemlərini xüsusilə diqqət mərkəzində saxlamışdır. Ümumilli liderin elm və təhsilin konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhləmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin yüksək dinamizmlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir. Ümummilli Lider Azərbaycanda bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də uğurlu islahatların müəllifi kimi tanınmışdır.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Elmlər akademiyasının fəaliyyətində də canlanma, yeni istiqamətlər müəyyənləşdi. İlk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikasının Elmlər Akademiyasında keçirməsi də təsadüfi deyildi.

Həmin görüşdə Heydər Əliyevin söylədiklərinin bizcə, heç bir şərhə ehtiyacı yoxdur. "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, elm inkişaf etməlidir". Həmin vaxt deyilmiş bu sözlər elm və təhsilin perspektivini cızdı və Heydər Əliyev doğrudan da vədlərini yerinə yetirib ən çətin şəraitdə yaşayan dövlətdə təhsil islahatlarının başlanğıcını qoydu. O islahatları reallaşdıranlar da elə Heydər Əliyevin 1969-1982-ci illərdə elm və kadr potensialının yüksəldilməsini təmin etmək üçün həyata keçirdiyi tədbirlər nəticəsində yetişmiş yüksək ixtisaslı elm və təhsil nümayəndələri idi. İkinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin elm və təhsil sahəsində atdığı addımlardan ən əsası 15 may 2001-ci il tarixli fərmanıdır. Həmin fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqlənmişdi.

Yeni istiqamətlərə uyğun olaraq Heydər Əliyevin hakimiyyəti dövründə bir çox təhsil ocaqlarının adları dəyişdirildi. Milli Münasibətlər İnstitutunun adı dəyişdirilərək Beynəlxalq Münasibətlər, Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutunun adı isə Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu adlandırıldı. Demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycan dövləti üçün insan hüquqları və azadlıqları problemlərinə dair elmi tədqiqat işlərinin aparılması mühüm məsələlərdən biri idi. Bu məqsədlə Heydər Əliyevin sərəncamı ilə 1999-cu ilin sentyabrında AMEA İctimai Elmlər Bölməsi nəzdində İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu yaradıldı.

Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası

onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin bundan sonra da davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır.

Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq - Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Bu böyük insanın ideyaları bundan sonra da daim yaşayacaq, gələcək nəsillərə örnək olaraq qalacaqdır.

1998-ci ildə müstəqil Azərbaycan müəllimlərinin 1-ci qurultayı keçirildi. Xalqımızın böyük oğlu Heydər Əliyev qurultayda tarixi çıxış etdi. Bu çıxış təhsil işçilərinin qarşısında duran vəzifələrin həlli üçün tam bir proqram idi. Qurultayda təhsil tariximizdə ilk dəfə Respublika Təhsil Şurası yaradıldı. "Təhsil sahəsi xalqımızın bu günü,millətimizin,dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" deyən Ümumilli Liderimiz Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən fərman və sərəncamlar verdi. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli, "Dövlət dilinin tətbiq işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, "Azərbaycan əlifbası və Azərbaycan dili günü təsis edilməsi haqqında 09.08.2001- ci il tarixli bəyanat, "Azərbaycan Respublikasında dövlət dili haqqında" fərman və sərəncamlar təhsilimizi dünya standartları səviyyəsinə qaldırdı. Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının öyrədilməsinə, mükəmməl dərsliklər hazırlanmasına, xüsusilə Azərbaycan dilinin öyrədilməsinə, Dövlət dili statusunda təbliğinə diqqət artırıldı.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu möhtəşəm və uğurlu siyasət indi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 18 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, respublikanın hər yerində məktəb tikintisinin geniş vüsət alması bu günümüzün reallıqlarıdır. Məhz bu illər ərzində dövlət başçısının Azərbaycanın müasirləşdirilməsi siyasətinin tərkib hissəsi olaraq təhsil sahəsində də ciddi islahatlar həyata keçirilir. Respublikanın dövlət büdcəsində təhsil sahəsinə ayrılan xərclər ilbəil artır. Təkcə onu vurğulamaq kifayətdir ki, bu dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə ayrıca Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Bir sözlə, bu gün Azərbaycanda təhsil sisteminin daha da inkişafı üçün məqsədyönlü, irimiqyaslı işlər görülür.

# SOSİAL İŞ VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Rəna Məmmədova***

## ОСНОВНЫЕ ПЕРСПЕКТИВЫ ОРГАНИЗАЦИИ ДОСУГА МОЛОДЕЖИ

***Дамирова Эльвира***
***Магистрант 2 курса БГУ***
***vika_d-va@mail.ru***

Досуг одна из составляющих частей жизни любого человека, вне зависимости от пола, возраста, национальности и т.д. Досуг это часть времени, которая остается у человека, после того, как он выполнил свою трудовую деятельность, а также неприложные задачи.

Молодежный досуг подразумевает свободный выбор личностью досуговых занятий. Он является необходимой и неотъемлемым элементом образа жизни человека. Поэтому досуг всегда рассматривается как реализация, интересов личности связанных с рекреацией, саморазвитием, самореализацией, общением, оздоровлением и т.п. В этом заключается социальная роль досуга [2].

Можно вывести следующие основные характеристики досуга молодёжи:

- ярко выраженные физиологические, психологические и социальные аспекты;
- добровольность при выборе рода занятий и степени активности;
- свободная творческая деятельность;
- формирует и развивает личность;
- сфера удовлетворения потребностей личности;
- формирование ценностных ориентаций;

- инициирует творческую активность;

- является сферой самовыражения, самоутверждения, самореализации

молодого поколения

- способствует самовоспитанию личности.

Способы проведения досуга имеют большое разнообразие. Так, досуг подразделяется на активный и пассивный. Активный досуг направлен на восстановление сил человека, развитие личности. Он включает в себя следующее: посещение выставок, театров, музеев, чтение книг, туризм, товарищеские встречи, занятия спортом, общение со сверстниками, учеба и самообразование, творчество.

Под пассивным досугом чаще всего понимают отдых. Он служит для снятия утомления, восстановления сил человека.

В последнее время получает широкое распространение инновационные формы туризма, такие как волонтерский пикник, фитнес, мега-квесты, интернет соревнования, онлайн книги, электронные выставки. Для того, чтобы разобраться во всем многообразии форм проведения досуга, а также для помощи молодежи в выборе форм досуговой деятельности необходимо организовывать досуговое время. Это одна из важнейших задач современного общества и политики государства. В настоящее время острым вопросом стоит организация и координация технологий, форм и методов рационального использования свободного времени и досуга различных слоев населения. К данной проблеме надо подходить комплексно используя различные методы исследования внешней и внутренней среды такие как логико-интуитивные и эмпирические [1].

## ЛИТЕРАТУРА

1.https://moluch.ru/archive/70/12057/
2.https://infourok.ru/doklad-formy-i-sovremennye-napravleniya-raboty-po-organizacii-dosugovoj-deyatelnosti-molodezhi-5023503.html

## GƏNCLƏRİN SOSİAL MÜDAFİƏSİ SOSİAL SİYASƏTİN VACİB İSTİQAMƏTİ KİMİ

***Həsənli Zərifəxanım Fayiq qızı***
***ATMU magistrtan II kurs***
***Elmi rəhbər – prof.s.e.d Həsənov Rəfail Musa oğlu***
***zarifakhanimhasanli@gmail.com***

Gənclik anlayışının bir millətin, xalqın, dövlətin varlığının təməl daşı, dinamik güc və gələcəyin təminatı olaraq xarakterizə edən tətqiqatlardan tutmuş, gənclik dövrünün cinsi və fiziki inkişaf dövrü kimi ifadə edən araşdırmalara qədər bir çox fərqli şəkildə araşdırıldığı görülür. Gənclik insan həyatının ən aktiv və ən hərəkətli çağıdır. Bu məhsuldar dönəmin daha effektiv təşkili bizim prioritet hədəfimizdir. Şübhəsiz ki, gənclik dövrünün səmərəliliyinə və məhsuldarlığına birbaşa və ya dolayısı ilə təsir edən bəzi amillər var. Mütəxəssislər tərəfindən bu amillər müxtəlif tətqiqatlar keçirilərək araşdırılmış və müəyyənləşdirilmişdir. Bununla yanaşı, gənclər tərəfindən bir çox problemlər açıq şəkildə ifadə olunmuşdur. Vurğulamaq istərdim ki, gənclər və onların üzləşdiyi problemlər cəmiyyətin endogen və ekzogen amillərindən təsirlənən dinamik bir quruluşa malikdir. Belə ki, məhz bu səbəbdən bu sahədə fəaliyyət göstərən qurum və təşkilatların, həm kəmiyyətində, həm də görülən tədbirlərin keyfiyyətində artım geniş vüsət halı almışdır. Yuxarıda qeyd olunan səbələrdən dolayı, bu sahədə həyata keçirilən işlərin

effektivliyinin artırılması və koordinasiyası üçün, bir növ bütün bu tədbirlərin daha da irəli bir səviyyəyə çatdırılması məqsədi ilə bütöv və əhatəli sosial siyasətin təşkili üçün sosial tətqiqatlar aparılır. Məhz bu tətqiqatlar əsasında dövlətlər gənclər üçün inklüziv sosial siyasət tədbirlərini hazırlayırlar.

Gənclərin sosial müdafiəsi ilə bağlı ilk sosial siyasət tədbirləri minimum əmək qabiliyyəti yaşının və gənclər üçün iş saatının müəyyənləşdirilməsi üzrə həyata keçirilib. Ümumilkdə 20-ci əsrə nəzər yetirdikdə, həm qlobal, həm də regional səviyyədə sosial siyasət tədbirlərinin həyata keçirildiyini görə bilərik. Xüsusilə də, gənclərin işsizlik probleminin həlli yönündə beynəlxlaq təşkilatlar tərəfindən müxtəlif variantlarda təşəbbüslər başladılmışdır.

20-ci əsrdə həyata keçirilən sosial siyasət tədbirləri bununla yekunlaşmır. Belə ki, 20-ci əsrin 90-cı illərindən etibarən bir çox qərb ölkələrində gənclərin sosial müdafiəsi proqramlarında yeni yanaşma tətbiq olunmağa başlanır. Qəbul edilən yeni yanaşma keçmiş sosial müdafiə proqramlarından fərqli olaraq gənclərin problemlərinin həllinə "qoruyucu" yolla yanaşma yerinə, gənclərin bacarıq və qabiliyyətlərinin artırılması istiqamətində yeni layihələrin hazırlanmasını prioritet məsələ olaraq sosial siyasətin qarşısına qoymuşdur. Bu kontekstdə gənclərin daha güclü, daha istedadlı şəxsiyyətlərə çevrilməsi, onların davranış, şüur və həyatının irəliləyən vaxtlarında özünü göstərəcəyi nüansı araşdırılmağa başlanıldı. Gənclərin yaş xüsusiyyətlərindən asılı olaraq sosiallaşmaları olduqca vacib və dinamik xarakter daşıyır və gənclərin cəmiyyətin sosial həyatına qatılma addımları onların emosional, rasional, sosial, mədəni və digər sferalardakı inkişafı üçün mühim bir vasitə olaraq görülür.

Beləliklə, gəncliyin effektiv inkişafı səriştə, özgüvən, xarakter, münasibətlər və xeyirxahlıq olaraq müəyyənləşdirilən 5 ana mövzuya fokuslanmağa başlandı. Cəmiyyətdə daha güclü və bacarıqlı gənclərin olmasının ictimai iştirakçılığı

genişləndirəcəyi və bunun gənclərin inkişafına müsbət təsir edəcəyi qəbul edildi (Youth Civic Engagement, 2016, 16-18).

Bütün bu tədbirlərlə yanaşı Birləşmiş Millətlər Təşkilatı həmçinin inkişaf etməkdə olan ölkələrdə milli gənclər siyasətinin hazırlanması və həyata keçirilməsi proseslərinə dəstək verir. Milli siyasətlərdə diqqət mərkəzində olan əsas məsələlər; təhsil, məşğulluq, yoxsulluq, sağlamlıq, ətraf mühit, narkotik maddələrdən sui-istifadə, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlıq, asudə vaxt, qızların və gənc qadınların problemləri, iştirak, qloballaşma, informasiya texnologiyaları, HİV/AİDS, münaqişələr, nəsillərarası problemlər və hər bir ölkənin özünəməxsus gənclərlə bağlı problemləri kimi müəyyən edilə bilər (Building Capacity, 2007, 6-12).

Ümumiyyətlə gənclərin sosial müdafiəsi istiqamətində təşkil olunan sosial siyasət gənclərin inkişaf dövlərini və ehtiyaclarını, inkişaf edən və hər gün dəyişən cəmiyyətin qaydalarına uyğun şəkildə hazırlanmalıdır. Daha əvvəldə qeyd etdiyimiz kimi, hər şey sürətlə dəyişir və bu cəmiyyətdə gənclərlə bağlı sosial siyasətin əsas özəlliyi gəncləri maraqlandıran bütün sosial sahələri özündə cəmləşdirən və gənclərlə əlaqədar olan digər siyasi islahatların arasında koordinasiyanın düzgün qurulduğu bir sosial siyasət proqramının hazırlanmasıdır.

Müasir gənclər siyasəti gənclərin ictimai strukturda fəal iştirakına şərait yaratmalıdır. Onların şəxsi inkişafı üçün bərabər imkanlar və hər şeydən əvvəl gənclərin bütün vətəndaşlıq hüquqlarından istifadə etmələrinə şərait yaratması üçün, dövlət tərəfindən yeni sosial siyasət proqramının həyata keçirilməsi lazımdır.

## ƏDƏBİYYAT


1. "Gənclərin Vətəndaş İşləkliyi" (Youth Civic Engagement), 2016, 16-18;

2. “Potensialın yaradılması” (Building Capacity), 2007, 6-12;
3. UNDP Youth Strategy, 2014, 47.

## GƏNC AİLƏ VƏ ONUN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Mirzəyeva Ayişə***
***ADMİU-nun II kurs magistrantı***
***ayishamirzoeva@gmail.com***

Aparılmış pedaqoji psixoloji və sosioloji tədqiqatların təhlilində çıxış edib deyə bilərik ki, müasir elmlər sistemi gənc ailəyə bitmiş, hər bir elmi yanaşmanı təmin edəcək tərif vermir. Burada, gənc ailənin üzvlərinin xüsusən də ər və arvadın birgə həyat müddəti, onların yaş dövrü və onun möhkəmliyinə təsir edən amillər daha çox diqqət mərkəzinə gətirilir. Gənc ailənin ümumi prinsipləri, meyarları müəyyənləşdirilə bilmir. Burada, başlıca meyar gənclik dövrünün xüsusiyyətlərinə görə seçilir.

Müasir ailənin problemlərini təhlil edən mütəxəssislərin fikrincə, nigaha qədəm qoyan gənc oğlan və qızlar birgə həyat çətinliklərini münasib şəkildə həll etmək üçün zəruri olan sosial-psixoloji yetkinliyə malik deyil. Gənc ailənin çətinlikləri ondan başlayır ki, nigah bağlayan ər və arvad bu ailəyə ilkin ailədə formalaşmış həyat təcrübəsinin təsiri altında yaranan ailə həyatı təsəvvürlərini, sosial norma və həyat dəyərlərini gətirir. Bir-birinə uyğunlaşan gənc ər və arvad birlikdə rolların bölüşdürülməsi, başçılıq strukturu, psixoloji yaxınlıq səviyyəsi haqqında təsəvvürlərin yeni sistemini yaradırlar. Təzə evlənənlərin qarşılıqlı təsiri və münasibətlərinin xarakteri gənc ər-arvadın aşağıda göstərilən məsələlər haqqında fikir və yönəlişlərinin uyğunluq dərəcəsindən asılıdır [2, s.115]:

- ailənin əsas funksiyalarım yerinə yetirmək fikirlərinin üst-üstə düşməsi;

- qadınların peşə məşğulluğunun səviyyəsi barədə razılaşma;
- gənc ailədə münasbiətlər üslubu.

Gənc ailənin sosial-psixoloji xüsusiyyətlərinin və ailə münasibətlərinin araşdırılmasında etoloji yanaşma da mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətin mənbələri Ç.Darvinin "İnsanın mənşəyi və cinsi seçim" kitabının çap olunmasına gedib çıxır. Bu yanaşmanın nümayəndələri insanın davranışının gizli, instinkiv əsaslarında seçim edərək, müqayisəli etologiya metodları ilə işləyirlər.

Gənc ailənin formalaşmasında özünün nəzəri müddəaları ilə diqqəti çəkən müddəalardan biri də siesntist yanaşmadır. Burada, ailə münasibətləri şəxsiyyət və cəmiyyətin qarşılıqlı əlaqəsi sistemində nəzərdən keçirilir. Bu yanaşmanın yaradıcılarından U.Ceyms, Ç.Kuli, U.Tomas, F.Znaneski, T.Piaje, Z.Freyd və başqalarını göstərmək olar [4, s.46].

Siesntist sosial-psixoloji istiqamət olub başlanğıc anı şəxsiyyətlərarası münasibətlər, mən və başqası, yaxın münasibətlərin əhəmiyyətli xarakteri, ailə - "qarşılıqlı təsir göstərən insanların birliyi" kimi nəzərdən keçirilmişdir.

Gənclərin nigaha hazırlığı məsələlərinin tədqiqi, onun, yəni gənc ailənin psixoloji xüsusiyyətlərini müəyyən etməyə kömək edir.

Məlumdur ki, ailənin ən mühüm sosial funksiyalarından biri böyüməkdə olan nəsli – uşaq və gəncləri düzgün təbiyə etməkdir. Müasir ailənin bir çox problemləri gənclərin ailə-nigah münasibətlərinə hazır olmamasından irəli gəlir. Ailə münasibətləri əvvəlcə iki, sonra üç və nəhayət dörd nəfərin münasibətləri üzərində qurulur. Aparılan çoxlu sayda tədqiqatlar göstərir ki, indi ər-arvad arasında şəxsiyyətlərarası münasibətlərə, qarşılıqlı qayğıya, qarşılıqlı köməyə, ər-arvadın bir-biri üçün məsuliyyətinə nigahda getdikcə daha çox əhəmiyyət verilir. Bildiyimiz kimi, şəxsiyyətlərarası ünsiyyət mədəniyyəti üçün tələblər daim dəyişir. Anlaşılmazlıq,

biganəlik üzündən baş verən münaqişələr getdikcə daha çox olur və daha ciddi xarakter daşıyır. Bir qayda olaraq, müasir ailənin sabitliyini təmin edən amillər şəxsiyyətlərarası münasibətlərin uzun dövr ərzində tərbiyə edilməli olan xüsusiyyətləri ilə müəyyənləşdirilir [2, s.120].

Gənc ailənin sosial-psixoloji xüsusiyyətləri müəyyən yaş dövründə olan ailədən fərqlənir. Yaşlı adamın münasibətləri və bağlılığı daha fərqləndiricidir, dostluq əlaqələri ər-arvadlıq və ailənin şəxsiyyətlərarası münasibətləri əlavə kimi çıxış edərkən öz universallılığını itirir. Gənc ailələrdə sevgi münasibətləri daha cox üstünlük təşkil edir.

Qeyd etmək lazımdır ki, gənc ailələrdə ailə hissi, ailə həyatı haqqında təsəvvürlər ailə qurmamışdan əvvəl mövcud olur. Bu hiss ata, ana və uşaqların gündəlik ünsiyyəti prosesində əmələ gəlir. Onun formalaşmasında ailə ənənələri də mühüm rol oynayır. Bayramların və ad günlərinin birlikdə qeyd olunması, asudə vaxtın səmərəli keçirilməsi ailə qayğılarında hamının öz imkanları daxilində iştirakı – bunların hamısı ailə hissinin formalaşması üçün son dərəcə zəruridir. Gənc ailələrdə ailə hissinin əmələ gəlməsi o deməkdir ki, artıq insan özünə başqa adamların – ər, arvad, ata-ana və uşaqların gözü ilə baxır. Onların mənafeyi ilə yanaşma, öz xoşbəxtliyini onların həyatında axtarmağa başlayır. Ər-arvadların böyük əksəriyyəti belə hesab edirlər ki, onların xoşbəxtliyini əsasən vahid, mehriban, sevimli ailə, həyat yoldaşı və uşaqlar təşkil edirlər. Belə psixoloji nüanslar diqqətdən qaçırılmamalıdır.

Ailədə gümrahlıq, optimizm, mehribanlıq və dostluq ruhu hökm sürməlidir. Ailə anaya da, ataya da, uşaqlara da sevinc və fərəh bəxş etməlidir. Ata və ya ana hiss etməlidir ki, o həyat yoldaşına və uşaqlarına lazımdır, onun özü isə ailəsiz yaşaya bilməz, onu ailəsi sevir, o isə ailəsini sevir, onsuz ərin və uşaqların həyatı dolğun ola bilməz, onun şəxsi həyatının mənasını isə məhz həyat yoldaşı və uşaqları təşkil edir.

Bütün bunları ümumiləşdirsək belə nəticəyə gələ bilərik ki, gənc ailədə ər- arvad münasibətlərinin hərtərəfli formalaşması, ilk növbədə, ərin və arvadın nigaha qədərki ailədə gördükləri səhnələr, təsəvvürlər, formalaşmış ustanovkalar və s. mühüm rol oynayır [4, s.50].

Gənc ailələrdə ər-arvad münasibətlərinin formalaşmasına təsir göstərən mühüm cəhətlərdən biri də ailədə psixoloji iqlimin hansı səviyyədə olması məsələsidir.

Məlumdur ki, ailədə psixoloji iqlim ailə üzvlərinin birgə fəaliyyəti, onların şəxsiyyətlərarası münasibətlərinin qarşılıqlı təsiri nəticəsində yaranır. Fikrimizcə, burada iki cəhət əsas götürülməlidir [6, s.124]:

1. ailənin psixoloji iqlimi ata və ananın vasitəsilə uşaqlara sirayət edir. Uşaqların sağlamlığı ailənin psixoloji iqlimindən asılıdır;
2. ailənin psixoloji iqlimi müxtəlif formalarda atanın və ya ananın əməyi fəaliyyətində, ailə münasibətində əks olunur.

Gənc ailələrdə əlverişli psixoloji iqlimin yaranmasına ər də, arvad da, ata və ana da xüsusi diqqət yetirməlidir. Onlar bir-birinə həssas, qayğıkeş münasibət bəsləməli, özlərinin ata və ana rollarına həmişə məsuliyyətlə yanaşmalıdırlar.

Gənc ailələrdə ər-arvad münasibətlərinin formalaşmasına təsir göstərən əsas problemlərdən biri də məişət çətinlikləridir. Müasir dövrdə bu daha çox aktuallaşmışdır.

Ailənin məişət əməyi uşaqların əmək tərbiyəsi sahəsində də ən yaxşı məktəbdir. Bu cəhət xüsusi şəkildə qabardılmalı və əməksevərliyin insanın vətəndaş və ailə sahibi kimi başlıca xüsusiyyətlərindən biri olduğu göstərilməlidir.

Uşaqlar böyüdükcə, onların ailənin məişət əməyinə cəlb etmək, onları bu yolla ananın əməyini yüngülləşdirdiklərini başa salmaq lazımdır. Onlardan hər birinin evdə daimi vəzifəsi olmalıdır. Ata və ananın məişət məsələlərində könüllü əməkdaşlığı, qarşılıqlı köməyi uşaqlar üçün böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Uşaqlarda əməyə məhəbbət tərbiyə etmək – onların həyata, gələcək ailəyə hazırlanması deməkdir [1, s.65].

Qeyd etmək lazımdır ki, bütün bunlarla yanaşı, gənc ailədə ailədaxili münasibətlərin pozitiv istiqamətdə qurulması üçün hər iki gəncin ünsiyyətdə bir-birinə qarşı hörmət etməsi, səmimiyyət, bir-birini başa düşməsi və s. kimi qarşılıqlı münasibətlərdə adekvat olması lazımdır.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: 2008, 296 s.
2. Cabbarov R.V. Özünügerçəkləşdirən şəxsiyyətin psixoloji keyfiyyətləri // Psixologiya jurnalı, 2007, №4, s. 115-120.
3. Əzimov.Q.E.Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı: ADP-nin nəşri, 2004, 338 s.
4. Əhmədxanova Z.R. Ailə modellərinin nəzəri-psixoloji məsələləri// Psixologiya jurnalı, 2008, №4, s. 46-50.
5. Quliyev S.M. Ailə pedaqogikasının mühüm problemləri. Bakı: Nurlan, 2005, 416 s.
6. Mirzəyev İ.Ə. Ailənin praktik psixologiyası. Bakı: 2005, 312 s.
7. Берн Ц. Гендерная псхиология. М.:, 2004, 318 с.

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

***Bölmə rəhbəri: -  dos. Fazil Vahidov***

# BİLİKLƏR BAZASININ TƏSVİRİ MODELLƏRİ

***Nəsirova Ramilə Ramil qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
***ramilanasirova1999@gmail.com***

Bilik - praktiki fəaliyyət və professional təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir [1]. Biliklərin saxlanılması üçün biliklər bazasına ehtiyac duyulur. Biliklər bazası – adətən, ekspert sistemlərində istifadə olunan verilənlər bazasının bir növü; müəyyən sahədə insanların (mütəxəssislərin) topladığı biliklərdən ibarətdir.

Süni intellekt sistemlərinin meydana çıxması "biliklər bazası" adlanan yeni anlayış gətirdi [2]. Bu zaman əldə etdiyimiz biliyi üzərində işlədiyimiz problemə uyğun olaraq strukturlaşdırmaq üçün biliklərin təsviri modellərindən istifadə olunur. Biliklərin təqdim olunması bu sistemlərin əsas tədqiqat mövzusudur, biliyin necə təsvir olunması sistemin tez düzəlməyinə və ya məhvinə səbəb ola bilir.

Biliklərin təsviri modeli – ekspertlərdən alınmış, biliklərin müəyyən qaydalar formasında təqdim olunmasına xidmət edir. Biliklərin təsviri modellərinin təsnifatı aşağıdakı kimidir: [5]

- Semantik şəbəkə modeli
- Freym modeli
- Formal məntiqi model
- Produksion modelləri
- Relyasiya modeli.

**Semantik şəbəkə modeli.** Semantik şəbəkədə təbii dildə yazılmış mətndəki bilikləri əks etdirmək mümkündür [2]. Biliklərin təqdim olunması üçün mühüm sxemlərdən olan semantik şəbəkələr anlayışlar arasında münasibətlərin qurulması modelidir. Semantik şəbəkələrin intensional və ekstensional olmaqla iki tipi var. Birinci tip predmet oblastını konseptual səviyyədə təsvir etsə də, ikinci tip şəbəkələr konkret faktiki verilənlərlə yüklənir.

**Freym modeli.** Freym – obyektlər sinfini, hadisə və prosesləri təqdim etmək üçün lazım olan minimal informasiya strukturudur. Freymlər "şablon hallar"ın ifadə edilməsilə bilikləri alt strukturalara bölmək üçün istifadə edilən ilk verilən strukturudur. Bilik agenti yeni problemlə qarşılaşdığında sistemə zərər yetirmədən situasiyadan çıxmaq üçün bilik əldə etməlidir.

**Formal məntiqi modellər.** Formal məntiq və predikatlar məntiqi, insanın məntiqi nəticə çıxarmaq mexanizminə əsaslanır. Məlumdur ki,əgər dünyadakı bütün insanlar eyni dildə danışsaydılar, dünyada daha az anlaşılmazlıqlar olardı. Bu halları azaltmaq üçün tək yol biliyin təqdimatı zamanı istifadə ediləcək dili müəyyən konkret qaydalar şəklinə gətirməkdir. Dilin sintaksisini təyin etmək üçün həmin dildə hansı simvolların istifadəsinə icazə verildiyini və bu simvollardan istifadə edən leqal cümlələri bilmək kifayətdir. Dilin semantikasını müəyyən etmək üçün isə, daxil edilmiş leqal cümlələrin oxunuşunu, başqa sözlə desək onların mənalarını təyin etmək lazımdır.

**Produksion modellər.** Son illərdə tətbiqinə başlanan bu model "vəziyyət(şərait) - fəaliyyət" tipli qaydalar toplusudur. Burada İf-Then qaydaları adlandırılan produksion qaydalardan istifadə olunur. Produksion modellərdə hər bir produksiya şərt və fəaliyyət yaxud nəticə adlanan 2 hissədən ibarətdir. Şərtlər verilənlər bazasında ödənilməli olan şərtlərin, nəticə isə həmin şərtlər üzərindən yerinə yetiriləcək əməliyyatların toplusudur.

**Relyasiya modeli.** Obyektin onu səciyyələndirən cəhətlərə, göstəricilərə, xüsusiyyətlərə bir sözlə, kriteriyalara münasibətinə əsasən qoyulur. Bəzən bu münasibəti dəqiq ifadə etmək mümkün olmur və təbii dilimizin linqvistik ifadələrindən (çox, az, bir qədər, zəif və s. sözlərindən) istifadə etməli oluruq və bu da biliklərin təsviri üçün qeyri-səlis relyasion modelin istifadəsini zəruriləşdirir. Bu halda obyektin cəhətləri nə dərəcədə ödəməsi [0,1] intervalında təyin edilmiş mənsubiyyət funksiyası ilə ifadə olunur. Bu cəhətlərin, xüsusiyyətlərin obyektə uyğunluğunu əks etdirən mənsubiyyət funksiyası relyasion matrisdə təsvir edilir. Matrisin elementləri fk(x) O[0,1], x obyektinin k kriteriyasını nə dərəcədə ödəməsini, ona nə dərəcədə uyğun gəlməsini və adekvat olmasını ifadə edir.

Təhlil prosesindən belə nəticəyə gəlmək olar ki, ekspert sistemlərində biliklərin təsviri modellərinin təqdim olunması üçün, ekspertdən alınmış biliklər qaydalar şəklində, həmçinin müəyyən üsullarla verilməlidir.

## ƏDƏBİYYAT


1. Verilənlərin və biliklərin strukturu və modeli (mühazirələr). (Y.Abbasova)
2. İNTELLEKTUAL SİSTEMLƏR VƏ TEXNOLOGİYA-LAR, Bakı 2016, “MSV NƏŞR“ nəşriyyatı, Dərs vəsaiti. (Balayev R.Ə., Əlizadə M.N., Musayev İ.K.)
3. https://azkurs.org/suni-intellektin-inkisaf-merheleleri.html?page=9
4. https://az.m.wikipedia.org/wiki/Bilikl%C9%99r_bazas%C4%B1
5. https://az.m.wikibooks.org/wiki/Bilikl%C9%99r_bazas%C4%B1/Bilikl%C9%99rin_t%C9%99svir_modeli

# İNTELLEKTUAL SİSTEMLƏRİN LAYİHƏLƏNDİRİLMƏSİ MƏRHƏLƏLƏRİ

***Abbasova Gülər Rasim qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
***guler.rasimqizi@mail.ru***

İntellektual sistemlər konkret bir sahəyə aid məsələləri bacarıqla həll edən proqram və ya texniki sistemdir [1]. Nüvəsi biliklər bazası olan bu sistem təbii dilə yaxın olmaqla yanaşı yüksək dil səviyyəsində təsvir olunmaqdadır. İstənilən intellektual sistemin əsası biliklər bazasıdır [2].

Sistem o zaman intellektual adlanır ki, təkcə informasiyaya girişin parametrlərini dəyişmir, həmçinin özü öz davranış üsulunu dəyişdirə bilir.

İntellektual sistemlərin ən çox yayılmış növü ekspert sistemləridir [3]. Ekspert sistemlər - konkret predmet sahəsində az təcrübəli mütəxəssislərə qərar qəbul etməkdə dəstək olurlar.

İntellektual sistemlərin layihələndirilməsi prosesində süni intelekt metodlarından istifadə edilərək intellektual məsələlər həll olunur [3]. Sistemin yaradıcısı olan insan (mühəndis) , uzun müddət ərzində ekspertlə birgə fəaliyyət göstərir.

Mühəndisin layihələndirilmə prosesinə başlamazdan əvvəl qarşıya qoyulmuş məqsədə çatması üçün aşağıdakı suallara cavab verməsi mütləqdir.

- Bu tətbiqdən kim istifadə edəcək?
- İstifadəçilər hansı kontekstdə işləyir?
- Onlar hansı tapşırığı yerinə yetirməyə çalışırlar?

Bu suallara cavab tapdıqdan sonra görüləcək işlərin həcmi və əməktutumundan asılı olaraq 3-6 nəfərdən ibarət qrup təşkil edilir. Yaradılacaq intellektual sistemin funksiyasından, istifadə ediləcəyi sahədən və alət vasitələrinin növündən asılı olaraq süni intellekt sisteminin hazırlanması prosesi beş mərhələyə bölünür [3]:

1. Həll olunacaq məsələlərin xarakteristikaları və xüsusiyyətlərinin müəyyən olunması.

2. Qərar qəbul olunması prosesində ekspertin işlədiyi biliklərin tipinin müəyyən olunması.

3. Biliklərin təqdimatı və qərarların çıxarışı mexanizminin müəyyən olunmasının rəsmiləşdirilməsi üsulunun təyin olunması.

4. Biliklərin təsvir olunması dilinin hazırlanması və ya seçilməsi.

5. Sistemin testdən keçirilməsi [3].

Layihələndirmə prosesində çatışmamazlıqlar olduğu halda digər mərhələlərə müraciət edilir. Beləki, süni intellekt sistemində biliklər olmadığı halda IV mərhələyə, ekspert tərəfindən seçilmiş biliklər təqdim olunmadığı halda isə III mərhələyə qayıdılır və alternativ model və ya biliklərin təqdim olunma sxemi seçilir [3].

İntellektual sistemlərinin layihələndirilməsi prosesi ağır insan əməyini əvəz edən cihaz və maşınların yaradılması üçün imkan yaradır. Hal-hazırda intellektual sistemlərin layihələndirilməsi faktiki olaraq bütün sahələrdə istifadə olunur. Buna misal olaraq istehsalın idarə edilməsi, marketinq və satışın idarə edilməsi, maliyyə menecmenti, bank sahəsi, ticarət və s kimi sahələri göstərmək olar.

## ƏDƏBİYYAT

6. İntellektual informasiya sistemlərində qərar qəbuletmə üsulları. Dərslik. Bakı, "İqtisad universitetti" nəşriyyatı, 2002. (Abbasov Ə.M., Qasımov V.Ə., Quliyev R.A.)

7. Verilənlərin və biliklərin strukturu və modeli (mühazirələr). (Y.Abbasova)

8. İNTELLEKTUAL SİSTEMLƏR VƏ TEXNOLOGİYA-LAR, Bakı 2016, “MSV NƏŞR“ nəşriyyatı, Dərs vəsaiti. (Balayev R.Ə., Əlizadə M.N., Musayev İ.K.)

9. https://az.m.wikipedia.org/wiki/S%C3%BCni_intellekt
10. https://az.m.wikipedia.org/wiki/Ekspert_sisteml%C9%99r
11. https://experience.sap.com/fiori-design-web/designing-intelligent-systems/

# EKSPERT SİSTEMLƏRİNİN LAYİHƏLƏNDİRİLMƏSİ MƏRHƏLƏLƏRİ

***Məmmədzadə Sevinc***
***Lənkəran Dövlət Universiteti magistrantı***
***memmedovaasevinc588@gmail.com***

Ekspert sistemlər - konkret predmet sahəsində mütəxəssis biliklərinin özündə əks etdirən və az kvalifikasiyalı istifadəçilərə qərara gəlməkdə məsləhətçi olan mürəkkəb kompleks proqramlardır [1]. Ekspert sistemlər süni intellekt sahəsində yaradılmış ən mükəmməl intellektual sistemlərdən biridir. Ekspert sistemi-qərarın qəbul edilməsi məsələsinin həlli üçün hər hansı formal şəkildə təqdim olunan və bir və ya bir neçə ekspertin biliyini istifadə edən kompüter sistemidir.

Ekspert sistemlər verilənlər və biliklərin inteqrasiyası şəklində inkişaf etdirilir. Bu sistem elə insan-maşın kompleksidir ki, onlar müəyyən sahəyə uyğun professional göstəricilərə əsaslanaraq daxili məntiq vasitəsilə baxılan problemin həllini təmin etməyə malikdir.

Ekspert sistemlərinin əsas üstünlyü bilik və məlumatların yığılması və uzun müddət saxlanmasıdır.İnsandan fərqli olaraq ekspert sistemləri istənilən informasiyaya obyektiv yanaşırlar kı, bu da aparılan təcrübənin keyfiyyətini artırır. [2] Ekspert sistemləri qurularkən 6 layihələndirmə mərhələsindən keçir.

1.İdentifikasiya mərhələsi-ekspert sistemlərində bilik əldə etmənin ilk mərhələsidir. Burada məsələlər, işin məqsədi, ekspert və istifadəçi tipləri müəyyən edilir. Bu mərhələyə

iştirakçının, problemin xarakteristikasının, resurs və məqsədlərin identifikasiyası altmərhələləri daxildir.

-İştirakçı identifikasiyası adətən sahə eksperti və bilik mühəndisi arasındakı qarşılıqlı əlaqədir.

-Problem identifikasiyası müxtəlif problem aspektləri, onların tərif və xüsusiyyətləri, alt problemləri üzrə qeyri-rəsmi fikir mübadiləsi daxildir.

-Resursların identifikasiyası ekspert üçün əvvəlki problem həllərindən qazanılmış təcrübələr,nümunələr və sahə üzrə dərsliklər, bilik mühəndisi üçün ekspert sistemin qurulmasında lazım olan instrumental alətlər və təqdimatlar resursdur.

-Məqsədlərin identifikasiyası hədəfi problemin müəyyən olunmuş məqsədlərindən ayırmaq lazımdır, çünki arzu edilən və iqtisadi-texniki baxımdan mümkün olan yanaşmaların xarakterizə olunmasında məhdudiyyətlər yarana bilər

2.Konseptualizasiya mərhələsi- Bu mərhələdə,instrumental vasitələr seçilir,əsas anlayışlar formallaşdırılır, biliklərin təqdim və təsvir olunma üsulları müəyyən edilir. Habelə, həll metodları və manipulyasiya vasitələrinin qiymətləndirilməsi həyata keçirilir.

3.Formalaşdırma mərhələsi- Bu mərhələyə seçilmiş əsas anlayışların təqdimat üsulu,bilik mühəndisinin təklif etdiyi formal dildə bilik axını,alt problemlərin təsvir olunma formaları daxildir.

4.İcra mərhələsi- Bu mərhələdə artıq biliklər bazasının doldurulması tam həyata keçirilir,növbəti mərhələlərə ötürülməsi lazım olan son məhsul alınır.

5.Yoxlama mərhələsi- Sistem bilik bazası və nəticə çıxarma mexanizmindəki əksiklikləri müəyyən etmək üçün bir neçə dəfə testdən keçirilir.

6.Təcrübi istismar mərhələsi- İstifadəçi sistem ilə rahat dialoq quraraq istifadəsində heç bir çətinliklə qarşılaşmazsa,tələbə uyğun prototipin hazırlandığı formal

olaraq açıqlanır.Əgər sistemdə nasazlıq olarsa sınaq yoxlamaları həyata keçirilir.

Ekspert sisteminin digər proqram sistemlərindən əsas fərqləri yalnız verilənlərin deyil,həm də biliklərin, eləcə də mövcud biliklərin əsasinda nəticələrin və yeni biliklərin çıxarılması üçün xüsusi mexanizmlərin istifadə edilməsindən ibarətdir [3].

Ekspert sistemlərinin təşkil olunduğu biliklər ekspertdən alınmış biliklərdir və bu sistemlər ekspertin qərar qəbuletmə bacarığını təqlid edən kompüter sistemləridir. Ekspert sistemlər mühakimə yolu ilə biliklərdən istifadə edərək kompleks problemləri həll edən və nəticə çıxarma mexanizminə malik olan mükəməll sistemlərdir.Tezisdə ekspert sistemlərinin layihələndirilmə mərhələsindən danışarkən bura identifikasiya, konseptualizasiya, formalizasiya, reallaşma və digər mərhələlər haqqında ətraflı məlumat qeyd olunub.

## ƏDƏBİYYAT

1. https://az.wikipedia.org/wiki/Ekspert_sisteml%C9%99r

2. Intellektual sistemlər və texnologiyalar,Bakı 2016,"MSV NƏŞR" nəşriyyatı, Dərs vəsaiti.(Balayev R.Ə, Əlizadə M.N, Musayev İ.K)

3. Intellektual İnformasiya Sistemlərində Qərar Qəbuletmə Üsulları,Bakı 2003 Dərslik (Ə.M.Abbasov, V.Ə.Qasımov,R.A.Quliyev)

# İNTELLEKTUAL TEXNOLOGİYALARDA RƏQƏMSAL KÖMƏKÇİLƏRİN TƏTBİQİ VƏ FAYDALARI

***Səlimova Sara Riyasət qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
***saraselimova62@gmail.com***

Rəqəmsal köməkçilər, həmçinin proqnozlaşdırıcı çatbot kimi tanınan, adətən internet üzərindən istifadə edilən, insanlarla söhbəti simulyasiya edən qabaqcıl kompüter proqramlarıdır.

Rəqəmsal köməkçilər ilə Çatbotları qarışdırmaq olmaz. Çatbotlar insanların rəqəmsal cihazlarla sanki real insanla ünsiyyətdə olduğu kimi qarşılıqlı əlaqədə olması üçün yazılı və ya şifahi insan söhbətini simulyasiya edən və emal edən kompüter proqramlarıdır. Rəqəmsal köməkçilər isə daha mürəkkəb qarşılıqlı əlaqəni danışıq üsulu ilə idarə edə bilən təkmilləşdirilmiş çatbot növüdür.

Rəqəmsal köməkçilər necə işləyir? Bütün rəqəmsal köməkçilər eyni qabiliyyətlərə malik deyil. Rəqəmsal köməkçi bir çox mənbədən məlumatları götürür və kontekstdə yerləşdirir. Qabaqcıl təbii dil emalı ona dediyiniz və ya yazdığınız sözləri təhlil etmək və sonra dəqiq cavablar yaratmaq imkanı verir. Təkmilləşdirilmiş rəqəmsal köməkçilər mürəkkəb cümlələri başa düşə və çoxhissəli sorğu və ya sual daxilində müxtəlif hissələri ayıra və dəqiq cavab qaytara bilər. Daha təkmil rəqəmsal köməkçilər isə sizinlə asan başa düşülən şəkildə söhbət etmək üçün çoxlu tapşırıqları və mürəkkəb sualları emal edə bilirlər. Bu rəqəmsal köməkçilər keçmiş hərəkətlərinizə əsaslanaraq seçimlərinizi anlamaq və öyrənmək üçün süni intellektdən istifadə edirlər. Davranışlarınız haqqında proqnozlar vermək, tarixçənizə və seçimlərinizə əsaslanaraq

tövsiyələr vermək üçün sizin haqqınızda öz anlayışlarından istifadə edə bilərlər.

Beləliklə, rəqəmsal köməkçi ilə işləmək ehtiyaclarınıza uyğunlaşdırılmış fərdi təcrübəyə çevrilir. Rəqəmsal köməkçilər inkişaf etmiş süni intellektdən, təbii dilin emalından, təbii dilin maşın tərəfindən başa düşülməsindən istifadə edərək getdikcə təkmilləşir və fərdiləşdirilmiş, danışıq təcrübəsi təqdim edirlər. İstifadəçinin tarixçəsini, üstünlüklərini və digər məlumatları öyrənməklə rəqəmsal köməkçilər mürəkkəb suallara cavab verə, tövsiyələr verə, proqnozlar verə və hətta söhbətlərə başlaya bilərlər. Bugünkü rəqəmsal köməkçilər insanlar üçün evlərə, avtomobillərə və digər yerlərə rahatlıq və əyləncə gətirir. Müəyyən məqsədlər üçün, məsələn, evin istiləşməsini və ev təhlükəsizliyini idarə etmək üçün istifadə edildikdə, onlar həm də insanların pullarına qənaət edə və onları yorucu işlərdən azad edə bilərlər.

Müəssisələr rəqəmsal köməkçilərdən xüsusən səmərəliliyin artırılması, işçilərinə və müştərilərinə daha yaxşı köməklik göstərilməsi üçün istifadə edirlər. Rəqəmsal köməkçilərdən istifadə etməklə biznes sahibləri daha çox xidmətlər təklif edə bilirlər. Müəssisələr daha müntəzəm yardım masası və ya müştəri xidməti sorğularını idarə etmək üçün çatbotlardan istifadə edərək işçilərinə və müştərilərinə daha çox xidmət göstərə bilirlər. Rəqəmsal köməkçilər bizneslərə canlı nümayəndələrin vaxtı və xərcləri olmadan müştərilər və işçilərlə şəxsi şəkildə əlaqə saxlamağa imkan verir. Rəqəmsal köməkçilər lazımsız tapşırıqların öhdəsindən gəlmək və ya vacib tapşırıqları yerinə yetirmək üçün lazım olan vaxtı qısaltmaqla, daha kritik işlərin yerinə yetirilməsi üçün işçiləri azad edirlər. Müştərilər və işçilər rahat mesajlaşma proqramlarında təbii söhbətlər etməyi, eləcə də onların suallarına sürətli və dəqiq cavablar almağı yüksək qiymətləndirirlər.

Rəqəmsal köməkçilər həmçinin qarşıdan gələn hadisələri təxmin edə və xatırlatmalar verə bilirlər. Məsələn, istifadəçilərə forma təqdim etməli olduqlarını və ya hesabat üçün son tarixin yaxınlaşdığını bildirirlər.Ən populyar rəqəmsal köməkçilər artıq müxtəlif kompüterlərdə və mobil cihazlarda quraşdırılmış və istifadəyə hazır hala gətirilmişdir. Bunlara aid olaraq android smartfonlarında Google Assistant və ya Mycroft, iPhone və iPad-lərdə Siri Samsung telefonlarında Bixby kimi rəqəmsal köməkçilərin adlarını çəkə bilərik. Amazon Echo və Google Home kimi ağıllı dinamiklər də rəqəmsal köməkçinin məşhur nümunələridir. Microsoft Windows 10 istifadəçiləri Microsoft-un kompüter üçün rəqəmsal köməkçisi olan Cortana ilə də tanış ola bilərlər.

Rəqəmsal köməkçilərin tətbiq edilməsində davamlı irəliləyişlər o deməkdir ki, gələcəyin rəqəmsal köməkçiləri daha da "ağıllı" olacaq, daha təbii söhbətləri təmin edə biləcək, daha mürəkkəb suallara cavab verəcək və daha dərin tövsiyələr verəcəklər. Süni intellektin inkişafı və gələcək 5G texnologiyası ilə birləşdirildikdə, tövsiyələr və proqnozlar daha sürətli gələcək və rəqəmsal köməkçilər, ehtimal ki, yüksək dəqiqlikli video konfrans kimi qabaqcıl xüsusiyyətləri özündə birləşdirə biləcəklər. Çox güman ki, nəhayət bir çox insanın evdə, işdə və ya getdikləri hər yerdə ünsiyyət qura biləcəkləri rəqəmsal köməkçisi olacaqdır. Rəqəmsal köməkçilər bizi daha yaradıcı və yenilikçi olmağa, strateji ideyalar tapmağa və mürəkkəb fəaliyyətlərə daha az vaxt sərf etməyə kömək edəcəkdir. Cibimizdə daşıyacağımız köməkçilər vasitəsilə gündəlik idarə olunan adi, lazımsız işlərə daha az vaxt ayıra biləcəyik.

Tezisdə intellektual texnologiyalarda tətbiq edilə bilən rəqəmsal köməkçilərin təhlili aparılmışdır. Rəqəmsal köməkçilərin intellektual texnologiyalarda tətbiqi insanların mürəkkəb fəaliyyətlərini sadələşdirməyə, gündəlik etməli olduqları zəruri işləri daha qısa müddətdə yerinə yetirməyə

kömək edir. Qarşıdan gələn hadisələri təxmin etmək, proqnozlar və tövsiyələr verməklə insanların vaxtlarına və pullarına qənaət etmələrinə səbəb olur.

## ƏDƏBİYYAT

1. Müasir informasiya sistemlərinin idarə edilməsi,
Bakı: 2016, (Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B.)
2. Rəqəmsal kitabxanalar, qabaqcıl metodlar və texnologiyalar, rəqəmsal kolleksiyalar (Bayramova N.S., Buxştab A.A., Ev-teeva N.N)
3. Müasir informasiya sistemlərinin idarə olunması (Vendrov A.M.)
4. https://wikifaz.icu/wiki/Personal_digital_assistant
5. https://wikifaz.icu/wiki/Virtual_assistant
6. https://mspoweruser.com/az/tag/digital-asisstants/

## ВНЕШНЕЭКОНОМИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ОРГАНИЗАЦИЯ ЕЕ ТАМОЖЕННОГО РЕГУЛИРОВАНИЯ

***Алиева Фарида Шакир гызы,***
***магистрант II курса БГУ***
***farida.aliyeva.19977@gmail.com***

Ещё со времен А. Смита ведется полемика между сторонниками фритредерства и протекционизма. Точки зрения различны; как и аргументы за и против внедрения тех или иных аспектов данной политики. Некоторые экономисты, помимо выступившего инициатором теории абсолютных преимуществ, есть также и сторонник теории сравнительных преимуществ - Давид Риккардо, и еще чикагской школы Пол Самуэльсон и др., которые поддерживают концепцию свободы торговли с единственным актуализирую-

щим ее элементом – отсутствием каких-либо препятствий или барьеров. Ведь если материальные и товарные потоки циркулируют между экономиками без какого-либо затруднения, это способствует «ритмичному биению сердца» мировой экономики. Однако оппоненты – Джон Стюарт Милль (либерализм), Фридрих Лист (институционализм), Джон Мейнард Кейнс (Кейнсианство, государственное регулирование экономики) выступают за протекционизм и в качестве аргумента в его пользу указывают на необходимость поддержки национального производителя и обеспечения достаточного размера поступлений в бюджет, предотвращение влияния иностранной рабочей силы на национальный рынок и защиту от структурной безработицы. Рассмотрим этот вопрос поподробнее.

Существует инструментарий по построению тех или иных моделей и даже прогнозированию ВЭД эконометрическими методами, в том числе экстраполяции. По мере того как улучшается состояние экономики, вырабатываются всё новые методы и прежние совершенствуются, многие из них являются продуктом использования кросс-методов из различных дисциплин. Так, например, экономико-математическое моделирование сочетает в себе две научные дисциплины. Список можно продолжить, но мы остановимся на этом и разберём, что заложено в основе того или иного метода – это модели; например, «затраты-выпуск», «стохастические», «динамические» и «гравитационные» - они применяются в зависимости от поставленных целей и используемых параметров.

Что касается внешнеэкономической деятельности АР, она складывается под влиянием помимо общепринятых (динамика курсов валют, размер учётной ставки процента и уровня цен), также и факторов, часто упускаемых из внимания, но могущих обладать высоким уровнем значимости в рассматриваемых моделях.

Если говорить о формировании той или иной конкретной модели по прогнозированию ВЭД АР, то нужно чётко определить, что является главной задачей, которая будет решена при внедрении этой модели в экономику. При этом учитываются следующие функции, которые та или иная модель может выполнить: информативная; ориентирующая; организационно-управленческая.

Информативная функция есть базовая и характерна для любой модели – её суть ясна. Что касается второй функции, она выполняет задачу выявления параметров внешнеэкономической деятельности, которых следует придерживаться при разработке тех ими иных стратегий проникновения на новый рынок или сотрудничество по другим аспектам. Третья же функция имеет административное содержание и лишь способствует своевременному реагированию и привнесению в модель новых корректировок или включения тех или иных параметров или же просто мониторинг результатов и отчет перед государством – это делается с целью повышения эффективности осуществления ВЭД и безопасности всех протекающих операций и в плане налаживания новых связей.

В рамках нашей экономики важность представляет управленческая функция постольку поскольку в условиях динамичного развития экономики нашей страны возникает потребность в гибкой координации тех или иных товаро-, ресурсо-, информационных и прочих потоков, что при выборе верной модели прогнозирования ВЭД станет для экономики Азербайджана поддающимся администрированию и даже направлению в то русло, которое будет способствовать повышению качества работы той или иной модели. Интерес представляет изучение возможностей прогнозирования потока иностранных инвестиций и механизмы, выработанные в ведущих экономиках стран мира. Положительное сальдо торгового баланса выливающееся в превы-

шении экспорта над импортом, не достигается лишь путём наращивания экспорта; здесь играет большую роль качественно высокое функционирование экономики, отвечающее потребностям граждан - физических лиц и нуждам предприятий-резидентов (а также и нерезидентов) на территории данной страны.

АР находится на пороге превращения в государство, способное экспортировать не только свои товары за границу, но и предоставлять финансирование и даже запускать инвестиционные проекты. Поэтому вся деятельность в ВЭД должна опираться как на потенциал к привлечению инвестиций, так и возможности их экспорта в третьи страны.

## ЛИТЕРАТУРА

1. Гейдаров К.Ф., Ибрагимов Т.Т.. Таможенное дело: экономический суверенитет и безопасность. Баку. 1999, 129с.

2. Гейдаров К.Ф., Гасанов Дж. Г., «Таможенная служба Азербайджана», Баку, 1998г., 113 с.

3.Гейдаров К.Ф. На пути к институциональной модели успеха. Журнал "Возрождение - XXI век", апрель 1999, с.34-42.

4.Таможенно-тарифное регулирование внешнеэкономической деятель-ности Азербайджана. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Cənablarının anadan olmasının 80 illiyinə həsr edilmiş Elmi-Praktiki Konfransın materialları. Вакы, «Елм», 2003. 0,75 ç.v.

# MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA İQTİSADİ ARTIMIN ROLU VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

*Abbasov Təbriz Sudeib oğlu*
*BDU-nun doktorantı*
*abbasovtabriz.aze@gmail.com*

Milli iqtisadiyyat institusional sistemlə tənzimlənən, ölkədə təşəkkül tapmış iqtisadi, siyasi və ideoloji qaydalara cavab verən, sahə və regional mühitlərdə strukturlaşdırılmış ölkə miqyaslı iqtisadi fəaliyyətdir. Beynəlxalq iqtisadi sistemdə vəziyyətini müəyyən edən milli iqtisadiyyatın inkişaf səviyyəsi əhalinin həyat keyfiyyətinin yüksək səviyyəsini təmin etmək, ölkənin milli təhlükəsizliyini, beynəlxalq əmtəə, xidmət və kapitallar bazarlarında rəqabətə davamlılığını, o cümlədən iqtisadi artımı təmin etmək məqsədilə milli sərvətdən istifadə dərəcəsi ilə qiymətləndirilir (6, s.48).

İqtisadi artım dedikdə əhalinin tələbatını ödəmək üçün məhsul və xidmətlərin əvvəlki dövrə nisbətən çox və keyfiyyətli istehsal olunması nəzərdə tutulur. İqtisadi artım iqtisadiyyatın yalnız kəmiyyət tərəfini deyil, keyfiyyət tərəfini də özündə əks etdirir. İqtisadi artımın əsas göstəriciləri əvvəlki dövrə nisbətən ümumi milli məhsul və ya xalis milli məhsulun faizlə artımı və ya onların adambaşına düşən kəmiyyətidir. Bu göstəricilər sırf kəmiyyət göstəriciləridir. Bunlar eyni zamanda, iqtisadiyyata keyfiyyət cəhətdən də təsir edir (4, s.343).

İqtisadi artım milli iqtisadiyyatların inkişafında mərkəzi yer tutur, çünki onun vasitəsilə məhdud resurs və hədsiz insan tələbinin artması arasında olan ziddiyyət aradan götürülür. Səmərəli iqtisadi artımın məqsədləri:

- tələbin daha dolğun ödənilməsi;
- gələcəyə inam və sosial sabitlik;
- əhalinin həyat səviyyəsinin yüksəldilməsi;
- əhalinin təhsil və mədəni səviyyəsinin yüksəldilməsi;

- əhalinin orta ömür müddətinin uzadılması;
- səhiyyə xidmətlərinin yaxşılaşdırılması:
- əhalinin müxtəlif təbəqələri arasında həyat səviyyəsində olan mövcud fərqlərin azaldılması;
- tam məşğulluğun təmin olunması (təbii işsizliklə yanaşı);
- ətraf mühitin müdafiəsi;
- cinayətkarlığın azaldılması və s. (3, s.120)

Milli istehsalın iqtisadi artımı dedikdə elə inkişaf səviyyəsi nəzərdə tutulur ki, məhdud resurslar və məlum məkan sərhədində iqtisadi fəaliyyətin nəticəsində ölkənin milli gəliri artmış olsun. İqtisadi artım nəzəriyyəsi, məşğulluq nəzəriyyəsi ilə əlaqədardır. Lakin onların funksional vəzifələri müəyyən qədər fərqlənir. Belə ki, məşğulluq nəzəriyyəsi belə bir suala "Nə etmək lazımdır ki, mövcud istehsal fondlarından tam istifadə olunsun" cavab verirsə, iqtisadi artım nəzəriyyəsi sualı belə qoyur: "Tam məşğuliyyət şəraitində necə etmək olar ki, istehsal güclərinin va ya ÜDM-in həcmi artmış olsun".

Nə üçün iqtisadi artıma mühüm iqtisadi məqsəd kimi baxılır? Bu sualın cavabını belə izah etmək olar ki, əhalinin hər nəfərinə düşən ümumi məhsulun artması həyat səviyyəsinin yüksəlməsidir. Məhsulun real həcminin artması xərclərin minimumlaşdırılması prinsipinə cavab verərək maddi bolluq yaradır. Bununla da artımla inkişaf edən iqtisadiyyat beynəlxalq miqyasda və ölkə daxilində sosial iqtisadi problemlərin həllinə və yeni istehlak tələblərinin ödənilməsinə imkan verir. Artımla inkişaf edən iqtisadiyyat, illik real məhsulun artımı ilə müşayiət olunur. Bu isə öz növbəsində mövcud istehlak tələbinin ödənilməsinə və yeni proqramların tətbiqinə şərait yaradır. Əhalinin əməkhaqqısının yüksəlməsi onların firavan həyat tərzini genişləndirir (1, s.208).

İqtisadi inkişafın iki mühüm tərəfi olan iqtisadi artım və iqtisadi tsikl, ümumi müvazinətin əks olunmasında qarşılıqlı əlaqədə olur və iqtisadi dinamikanın əks etdirilməsində vəhdət halını alır. İqtisadi artımın bu və ya digər şəraitdə iqtisadi tsikl

ilə birləşməsi iqtisadi aktivliyi əks etdirir. Aydın olduğu kimi iqtisadi aktivlik birdən-birə heç cür baş verə bilməz. Çünki aktivlik üçün iqtisadi şaraitin yaradılması ümumi müvazinətin gedişatından asılıdır. Daha doğrusu, müvazinətin yaranması müəyyən tərəddüdlü proseslərin gedişatı ilə əlaqədar olduğundan iqtisadi artımın uzun, qısa müddətlərdə və ya dalğavari olaraq baş verməsinə səbəb olur. Məsələnin mahiyyətinə bir qədər dərindən vardıqda aydın olur ki, iqtisadiyyatdakı tərəddüdlü proseslərin gedişatı bir qayda olaraq təbii va əmək resurslarından, kapital va texniki-tərəqqi amillərindən asılı olsalar da, lakin burada istehsalın mövsümü xarakteri, demoqrafik vəziyyət əsas kapitalın yeniləşməsi prosesində ciddi rol oynayır. Belə ki, istehsalın tərəddüdlü hala düşməsi, başqa sözlə il ərzindəki iqtisadi aktivliyə təsir göstərən mühüm amillərdən biri də mövsümlükdür. Ümumi formada götürdükdə isə iqtisadi inkişafın tərəddüdlü hərəkətini aşağıdakı qrafik formasında göstərmək olar:

**İqtisadi inkişafın tərəddüdlü hərəkəti**

Qrafik




1

*Mənbə: Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi*

Göründüyü kimi iqtisadi aktivlik müəyyən dövrlərdə tərəddüdlü hərəkət edir. Bu dövr tərəqqi (zirvə) və tənəzzül (aşağı nöqtə) arasında tərəddüd edir. Müəyyən dövr ərzində iqtisadi artımın tərəddüdlü hərəkətinə diqqət yetirilərsə bu prosesin senaye, kənd təsərrüfatı, tikinti ve s. sahələr üzrə fərqli olduğunu görmək mümkündür. İqtisadi artımın tərəddüdlü vəziyyətə düşməsi və ya kəsikli hərəkəti demoqrafik sahədə baş verən dəyişikliklərdən də asılıdır. Buna misal olaraq aclıq, yoluxucu xəstəlikləri və ya müharibənin baş verdiyi şəraitdə ölüm va doğum sahəsinde kəskin dəyişiklikləri göstərmək olar. Belə hallarda ölənlərin sayı durmadan artır. Lakin doğum səviyyəsi həddindən artıq aşağı düşür. Bu isə öz növbəsində uzun müddət həm əhalinin sayına, həm də məşğul olanların sayına ciddi təsir göstərir ki, bu da iqtisadi inkişafın dinamikasını ləngidir (1, s.211-213).

İqtisadi artımın dövlət tənzimlənməsi birbaşa və dolayı formada həyata keçirilir. Birbaşa tənzimləmədə dövlət tərəfindən iqtisadiyyatın sahələrinə, ölkənin bölgələrinə və müəyyən müəssisələrə yönələn ünvanlı maliyyələşdirmələr nəzərdə tutulur. Bura büdcə və qeyri-büdcə fondlarından subsidiya və subvensiyaları daxildir. Dolayı təsir vasitələrinə pul kütləsinin tənzimlənməsi, dövlətin vergi və kredit siyasəti, valyuta kursu və gömrük rüsumlarının dəyişməsi aiddir. İqtisadi artıma yönələn dolayı təsir vasitələri bazar mexanizmini dağıtmır, onunla ziddiyyət yaratmır. Keçid iqtisadiyyatı ölkələrində dövlət tənzimlənmə tədbirlərinin birbaşa vasitələrdən dolayılara keçməsi məqsədəuyğundur. Dövlət, indikativ planlaşdırmaya, investisiya iqliminin yaxşılaşdırılması vasitəsilə elmin inkişafına, innovasiyaların yaradılmasına və tətbiqinə şərait yaratmalıdır. Eyni zamanda dövlət, xüsusi investisiyaların cəlb olunması vasitəsilə

bilavasitə dövlət tədbirlərinin payının azaldılmasına nail olmalıdır (3, s.121,122).

Qeyd etdiyimiz kimi, hər bir milli iqtisadiyyatda iqtisadi artımın təmin olunması qarşıya qoyulan əsas vəzifədir. İqtisadi artımı coğrafi determinizmə və ənənədən asılılığa bağlayanlar bu suala cavab verə bilmirlər ki, necə olur ki Sinqapur və Malayziya eyni hövzədə yerləşdikləri halda fərqli iqtisadi artım templərinə malik olurlar. Eyni zamanda resursların iqtisadi artımı təmin edən əsas amil olmasını da əsaslandırmaq çətindir. Belə ki, Dünya Bankının məlumatına əsasən Kanada və Konqo Respublikası təbii resurslarla eyni dərəcədə təmin olunub. Lakin adambaşına düşən ÜDM həcminə görə Kanada Konqo Respublikasını dəfələrlə üstələyir. Harvard Universitetinin professoru Rikardo Hausmana görə iqtisadi artımda əsas məsələ kollektiv bilik və bacarıqlardır. Çünki texnologiya hamı üçün əlçatandır, əsas bu texnologiyalardan istifadə etməyi bacaran insanların olmasıdır. Beləliklə, kollektiv bilik və bacarıqları çox olan dövlətlər daha kompleks məhsullar istehsal edirlər. Harvard Universitetinin hesabladığı Kompleksilik indeksi məhz bu prinsipin üzərində dayanır. Əgər milli iqtisadiyyatın kompleksilik səviyyəsi milli gəlir səviyyəsindən aşağıdırsa iqtisadi artım zəifləyəcək. Bu baxımdan, milli iqtisadiyyatlar kompleksilik indeksini milli gəlir səviyyəsinə uyğunlaşdırmaq və onu aşmaqla iqtisadi artımı sürətləndirə bilər (5, s.157,158).

Bütün bunlardan əlavə, qeyd etmək lazımdır ki, iqtisadi artıma təsir edən amillər artımın xarakterindən, yəni kəmiyyət və keyfiyyətindən asılı olaraq iki qrupa bölünür:

- Ekstensiz amillər
- İntensiz amillər

Ekstensiv artım amillərinə mövcud texnologiyanın səviyyəsinin saxlanılması şəraitində kapitalın həcminin artırılması, istehlak olunan xammal, material və yanacağın həcminin artırılması aid edilə bilər. İntensiz təsir amillərinə

elmi texniki tərəqqi, miqyasdan qənaət, işçilərin təhsil və professional səviyyəsinin artması, resursların mobilliyinin artırılması və bölüşdürülməsinin yaxşılaşdırılması, istehsalın idarə edilməsinin təkmilləşdirilməsi, qanunvericiliyin müvafiq təkminləşdirilməsi aiddir. Deməli, bu qrupa istər amillərin özlərini, istərsə də onların istifadə prosesini keyfiyyətcə təkmilləşdirən vasitələr daxildir.

İqtisadiyyatın inkişafında ekstensiv artım amilləri üstünlük təşkil etdikdə o ekstensiv, intensiv artım amilləri üstün olduqda isə intensiv inkişaf tipli adlanır. Ekstensiv tipli inkişafda iqtisadi artıma istehsal amillərinin kəmiyyətcə artırılması, intensivdə isə onların keyfiyyətcə təkmilləşdirilməsi və yaxşı istifadə edilməsi ilə nail olunur. Ekstensiv artım şəraitində onun amilləri arasında nisbətlərin dəyişməsi nisbətən bərabər baş verir. Bu halda maksimum məhsul buraxılışı başlıca olaraq iqtisadi resursların vəziyyəti, kapital və əməyin məsrəflərinin uzlaşmasından asılı hesab olunur. Deməli, texniki tərəqqinin səviyyəsindən o, yalnız müəyyən dərəcədə asılıdır. Bu öz əksini keçən əsrin 20-ci illərində Amerika alimləri X.Kobba və P.Duqlasın irəli sürdükləri istehsal funksiyasında öz əksini tapmışdır. Burada əmək və kapitalın bir-birini qarşılıqlı əvəzetməsi nəzərdə tutulmuşdur. Texniki tərəqqiyə isə çox səthi və sadə, yəni təhsil və ixtisasın, istehsalın təşkili və idarəedilməsinin səviyyəsi kimi baxılmışdır (2, s.431).

Kobba-Duqlas istehsal funksiyası aşağıdakı kimidir:

$$V=AL^{\alpha}K^{\beta} \qquad \text{Düstur 1}$$

Burada *V*- dəyər ifadəsində istehsal həcmi;

*L* - əməyin məsrəfləri;

*K* - dəyər ifadəsinde əsas fondlar;

*A* - mütənasiblik əmsalı, onun ölçüsü K, L ve V-dən asılıdır;

α, β - elastiklik əmsalları.

Sonralar bir çox iqtisadçıların (B.Uoll, E.Denison, R.Solou) tədqiqatlarında Kobba-Duqlas formulası modernləşdirilmiş və oraya digər artım amillərinin daxil edilməsi ilə inkişaf etdirilmişdir. Həmin amillərə əsas kapitalın yaşı, istehsalın miqyası, isçilərin ixtisası, iş həftəsinin davamiyyəti aid edilə bilər. Elmi-texniki tərəqqinin iqtisadi artmın aparıcı ünsürü olduğunu keçən əsrin 50-ci illərində Massaçuset Texnologiyalar İnstitutunun professoru R.Solou müəyyən etmişdir.

Qeyd edək ki, elmi-texniki tərəqqinin nailiyyətlərinin inkişafı və mənimsənilməsi nəticəsində intensiv artım amilləri üstünlük təşkil edir. Lakin real həyatda ekstensiv və intensiv tipli iqtisadi artım xalis formada mövcud deyildir. Ona görə də, ektensiv və ya intensiv tipli iqtisadi artmın üstünlük təşkil etdiyini demək düzgündür. Bəzən iqtisadi artımın müstəqil amili kimi istehsalın genişləndirilməsi prosesinin başlıca katalizatoru olan məcmu tələb göstərilir. İqtisadi artıma mane olan səbəblərə adətən resurs və ekoloji məhdudiyyətlər, geniş spektirli sosial məsrəflər, eləcə də hökümətin qeyri-səmərəli apardığı iqtisadi siyasət aid edilə bilər (2, s.432).

İqtisadi artımın hərəkətverici qüvvələri dedikdə isə, istehsalın şəxsi amili ilə əlaqədar olan hadisə və proseslər nəzərdə tutulur. Bunlar şəxsi amilə bu və ya digər dərəcədə təsir göstərərək iqtisadi artımın kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olur. İqtisadi artımın hərəkətverici qüvvələrinə adətən ziddiyyətlar, bəhsləşmə və iqtisadi mənafeləri aid edirlər. İqtisadi artımın hərəkətverici qüvvələrinə qeyri-iqtisadi amilləri də aid etmək olar. Bu amillər, yəni əlverişli əmək şəraiti, mənəvi amillər, idarəetmədə isçilərin iştirakı istehsalın şəxsi amilinə psixoloji təsir edərək, iqtisadi artıma daha sürətləndirici təsir göstərir (4, s.346, 348).

## ƏDƏBİYYAT

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2012, 508 s.
2. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.H. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010, 508 s.
3. Əzizova G.A. İqtisadiyyatın tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2015, 204 s.
4. Kərimov E.N, Osmanov B.O. İqtisadi nəzəriyyə. Bakı: Vətən, 2010, 630 s.
5. Qasımlı V.Ə. İqtisadi artım. Bakı: AzPrint MMC, 2021, 234 s.
6. Qradov A.P. Milli iqtisadiyyat. Bakı: İqtisad Universiteti, 2008, 275 s.

## NATAMAM AİLƏLƏRDƏ YAŞAYAN UŞAQLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***p.ü.f.d. Nuriyyeva Məlahət Rafiq qızı***
***BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi***
***nuruyeva.malahat@bsu.edu.az***

Ailə uşağın bir şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli rol oynayır. Məhz ailədə uşaqlar sosial münasibətlərə - ailədaxili münasibətlərə qoşulur, onların vasitəsi ilə insan, mənəvi sərvətlər haqqında anlayışlara yiyələnir, cisim və hadisələrə qiymət verməyi, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir. Uşaqların xarakterinin, ideya və mədəniyyət sərvətlərinin əsasları da ailədə formalaşır. Ailə uşaqların yaşadığı, sevməyi, nifrəti, sevinməyi, şəfqət göstərməyi öyrəndiyi dəyərlər dünyasıdır. Onun üzvü olmaqla o,

valideynləri ilə ona müsbət və mənfi təsir edə biləcək müəyyən münasibətdə olur. Bütün bunların təsiri ilə uşaq ya mehriban, səmimi, ünsiyyətli, ya da qorxaq, kobud, ikiüzlü, yalançı kimi böyüyür. Uşaqların gələcək kişi və qadın kimi formalaşmasının əsasları da məhz ailədə qoyulur. Lakin heç də bütün ailələrdə uşaqların bir şəxsiyyət kimi formalaşması üçün sağlam şərait mövcud olmur. Bu baxımdan natamam ailələrdən olan uşaqların şəxsiyyəti xüsusilə diqqəti cəlb edir.

Ailənin özünəməxsus funksiyaları vardır: təsərrüfat-iqtisadi, reproduktiv, tərbiyə, emosional, bərpaedici və s. Bu funksiyaların uğurla həyata keçirilməsi ailə möhkəmliyinin başlıca şərtidir.Ailənin funksiyaları qarşılıqlı əlaqədədir.Onlar hər şeydən əvvəl ailənin sosial mahiyyətini əks etdirir.Ailənin funksiyaları ictimai-tarixi xarakter daşıyır.Onların məzmunu sosial amillərlə ailəyə cəmiyyət tərəfindən verilən tələblər,ailə hüququ və əxlaqi, mədəni normalar, cəmiyyətin ailəyə göstərdiyi real yardım və s. ilə müəyyən olunur

Ailə daxilində uşaqların inkişafı ilə bağlı K.Yunq öz işində qeyd etmişdir ki, uşağın şəxsiyyətinin formalaşmasında ailə və valideynlərin həll edici rolu vardır. Yunqun bildirdiyi kimi "uşaqlarda orta məktəb yaş dövrünə qədər sinirsəl və psixi pozuntular demək olar ki, yalnızca valideynlərin psixi sferasının pozuntusu ilə əlaqəlidir". Yunqun fikrincə uşaqda sinir patologiyası inkişafına valideynlərin psixi vəziyyəti, problemləri, və həyat tərzi ciddi təsir göstərir. Valideynlər demək olar ki, həmişə uşaqda ya nevrozun birbaşa təşəbbüskarı, ya da onun vacib komponenti olurlar. E.Eriksona görə şəxsiyyət xüsusiyyətlərinin uşağın valideynləri ilə münasibətinin inkişafın müxtəlif mərhələlərində təsirini müəyyənləşir.

Erikson qeyd edirdi ki, yeniyetmə yaşda şəxsiyyətin identifikasiyası və ya rolların qarışdırılması o vaxt formalaşır

ki, uşağın qarşısında onun sosial rollarını dərk etmək tapşırığı olur (oğul və ya qız, şagird, dost və s.). Əvvəlki mərhələlərdə inkişaf etmiş müsbət keyfiyyətlər uğurlu psixososial identifikasiya şansını artırır. Heç kimə inanmayan, utancaq və qətiyyətsiz yeniyetmədə yüksək günahkarlıq hissi və natamamlıq hissi ilə identifikasiya problemləri yaranır.

Ailənin strukturuna görə sadə və mürəkkəb olmaqla 2 tipə ayrılır: Mürəkkəb ailə 3 vəya daha çox nəsildən baba, nənə, ata, ana və uşaqlardan ibarətdir. Nuklear ailə sadə ailədir. Belə ailə 2 nəsildən ata, ana və uşaqlardan ibarətdir. Nuklear ailə əsas ailə tipidir. Uşaqların sayına görə nuklear ailənin 3 tipin fərqləndirilər:

-Çoxuşaqlı;

-Orta uşaqlı;

-Az uşaqlı.

Bununla yanaşı natamam və tam ailələri də fərqləndirilər. Əgər ailədə ər və arvad birlikdə yaşayırsa belə ailə tam ailə hesab olunur. Əgər ər və ya arvad vəfat etmiş, yaxud boşanmışsa bu zaman ailə natamam ailəyə çevrilir.

Natamam ailə-müasir ailənin əsas tiplərindən biridir.Natamam ailə-qismən natamam əlaqəli,ənənəvi olan ana-ata-övlad münasibətlərinin olmadığı kiçik qrupdur.

Natamam ailə boşanma, nigahdankənar uşağın dünyaya gəlməsi, valideynlərdən birinin dünyasını dəyişməsi və ya onlardan birinin ayrı yaşaması nəticəsində yaranır. Bunlarla əlaqədar olaraq natamam ailənin növbəti formalarını fərqləndirirlər:

-Yetim qalmış uşaqlar olan ailə;

-Nigahdankənar doğulmuş uşaqlar olan ailə;

-Boşanmış ailə;

-Dağılmış ailə.

Ailədə kimin uşağın tərbiyəsi ilə məşğul olmasından asılı olaraq fərqləndirirlər:analı və atalı natamam ailə. Ailədə nəslin sayına görə fərqləndirilir: natamam sadə-bura

daxildir ana(ata) bir uşaqla və ya bir neçə uşaqlarla,natamam geniş-bura isə daxildir ana(ata) bir uşaq və ya bir neçə uşaqlarla və başqa qohumlar.Verilən təsnifatlardan axırıncısı natamam ailələr içərisində çoxluq təşkil edir.

Yetim qalmış natamam ailə-valideynlərdən birinin ölümü nəticəsində yaranır. Baxmaya-raq ki,yaxın insanın ölümü onun ailəsi üçün çox böyük zərbədir, ailənin sağ qalan üzvləri ailənin bütünlüyünü saxlamağı bacarmalıdırlar.Bu cür ailələrdə qohumluq əlaqələri itmir:həlak olmuş(dünyasını dəyişmiş) ər və yaxud arvad tərəfdə olan qohumlar ilə qarşılıqlı münasibət saxlanılır, hansılarki, ailə üzvü olaraq qalırlar.

Tam ailələrə nisbətən natamam ailədə böyüyən uşaqlarda bir sıra xarakter xüsusiyyətləri özünü büruzə verir: həyəcanlılıq, itaətkarlıq, ürəyiyumşaqlıq, həssaslıq, ruh düşgünlüyü, onlar nisbətən qayğısız olurlar.Tez-tez onlar ailədəki situasiyalardan həzz almadıqlarını nümayiş etdirirlər. Natamam ailədə böyüyən uşaqlar az da olsa özlərini cəsarətli, şad və sakit hesab edirlər.

Natamam ailələrdə böyüyən oğlan uşaqlarının həddindən artıq zəif olmaları və yüksək narahatlıq hissinin olmasına daha çox diqqət yetirilir. Ailədən nümunə götürüləsi kişinin olmaması ilə bağlı tənha ana öz rolunu dəyişərək oğluna bu çatışmamazlıqları kompensasiya etməyə çalışır. Ancaq bu münasibətlər strategiyasının dəyişilməsi ağır nəticələr verir: qadın uşağa ana məhəbbəti dözümlülük və isti münasibəti, ata fuksiyalarına aid olan kişi xarakterinin ciddiliyini , tələbkarlığı və avtoritarlığı ilə bağlı olan hissləri verə bilməz. Nəticə etibarı ilə uşaq nəinki atadan eyni zamanda anadan məhrum olur. Oğlanların emosional vəziyyəti qızlara nisbətən daha aşağıdır və şəxsiyyətin təcrid olunma hissi ilə bağlıdır. Oğlanlar ünsiyyətdə çətinlik və tənhalıq hissini daha çox hiss edirlər. Natamam ailələrin uşaqları

valideynlərin boşanma səbəbini onların arasında sevgi hisslərinin olmaması və bir-birlərinə qarşı olan xəyanətdə görürlər.

Beləliklə natamam ailələrdəki uşaqlar haqqında olan nəzəriyyəni nəzərdən keçirdikdə belə bir qənaətə gəlmək olar ki, belə ailələrdən olan ailələrdən olan uşaqların hər birinin tərbiyəsinə fərdi yanaşmaq lazımdır. Demək olar ki, bütün müəlliflər belə bir qənaətə gəlirlər ki, ailələrdə atanın yəni kişi cinsinin nümayəndəsinin olmaması uşaqların psixoloji cəhətdən düzgün inkişafına mane olur.

Sübut olunub ki, valideynlərlə münasibətdə identifikasiya prosesi oğlanlarda 5-7 yaş arası, qızlarda isə 3-8 yaş arasında baş verir. Elə atalar vardır ki, onlar işdə özlərini hökmlü və qərarlı aparırlar ancaq ailədə isə qadına bənzər hərəkətlər edərək tamamilə öz arvadlarına tabe olurlar. Uşaq bunu hiss edir, atanın iki mənalı hərəkətlərini görür və öz atasına oxşamaq istəmir. Bu o deməkdir ki, belə olduğu halda uşağın öz cinsinin nümayəndəsi ilə olan identifikasiya prosesi pozula bilər.

Göründüyü kimi, valideynin rolu çoxplanlıdır. Onlar uşağın lap körpə yaşlarından bir şəxsiyyət kimi formalaşmasında böyük rol oynayırlar.

Təəssüflə qeyd etməliyik ki, uğursuzluğun tam formada özünü göstərdiyi natamam ailələrdə uşaq şəxsiyyətinin formalaşması üçün neqativ psixoloji iqlim yaranır. Belə ailələrdə uşaqlar emosional və psixoloji gərginlik keçirir, onlar özlərinə və ailəsinə görə ətrafdakıların qarşısında xəcalət, özünün bugünü və gələcəyinə görə qorxu hissləri keçirirlər.

## ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. Bakı: Maarif, 1989, 312 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Maarif, 1989, 642 s.
3. Алмазов Б.Н. Психология проблемного детства / Б.Н.Алмазов. - М.: Дата Сквер, 2009. -248с.
4. Карабанова О.А. Психология семейных отношений и основы семейного консультирования / О.А. Карабанова. - М.: Издат. центр «Академия», 2004. - 324с.

## MÜNDƏRİCAT

## FƏLSƏFƏ VƏ FİLOLİGİYA BÖLMƏSİ

***Ataşlı Təhminə.*** Azərbaycan və türk dillərində Oğuzlara aid edilən ad bildirən sözlər ................................................3
***Кулиев Самир.*** Об актуальности проблем современной тюркской философской мысли ..........................................6
***Эфендиев Фикрет, Исламов Ислам.*** О проблемах научного поиска ..................................................................10
***İsazadə Leyla.*** Əli Bəy Hüseynzadənin ictimai-siyasi görüşlərinin təkamülü ...........................................................13
***Hacıyeva Səlimə.*** Mark Tvenin yaradıcılığında uşaq Obrazları...........................................................................16

## PSİXOLOGİYA BÖLMƏSİ

***İsmayılova Ayşən.*** Orta məktəbdə sosial-psixoloji atmosferin şagirdlərə təsiri................................................23
***Abdullazadə Günel.*** Xüsusi təhsil məktəblərində əqli inkişafsızlığı olan şagirdlərin peşə – əmək hazırlığının formaları..........................................................................26
***Babazadə Aytən.*** Posttravmatik stressin yaratdığı fəsadlar....29
***Джабарова Малейка.*** Психологическая характеристика школьников с гиперактивностью и дефицитом Внимания ..................................................................39
***Əhmədli Nərgiz.*** Hiperaktivlik və diqqət defisitliyi olan kiçik məktəbyaşlı uşaqların psixo-pedaqoji xüsusiyyətləri ..................................................................42
***Elnarə Şəfiyeva, Ağayeva Kəmalə.*** Bullinq və beyində gedən dəyişikliklər..............................................................44
***Kərimova Jalə.*** Məktəbəqədər təhsil müəssisələrində koxlear implantlı eşitmə pozulması olan uşaqlarda kommunikativ vərdiş və bacarıqların inkişaf etdirilməsi........51

***Mehdiyeva Nazpəri.*** Ekspressiv alaliya zamanı intonasiyanın inkişafı üçün istifadə olunan əsas metodlar......55
***Mustafayeva Tellixanım.*** Əqli geriliyi olan uşaqların əyani-obrazlı təfəkkürünün formalaşdırılması........................58
***Nuriyeva Nişan.*** Gender məsələlərinin psixologiyada nəzəri – tarixi təhlili..........................................................60
***Quliyeva Samirə.*** Eşitmə pozulması olan uşaqlarda disqrafiyanın aradan qaldırılması metodları ...........................64
***Qəhrəmanova Sevda.*** Psixi inkişafləngiməsi olan uşaqların klinik təsnifatı və psixo-pedaqoji xüsusiyyətləri.....66
***Исмайылова Гюльниса.*** Определение дистанционного образования и причины развития дистанционного образования..............................................................70
***Yükmen Adıyaman.*** Həyəcan terapiyasında EMDR tətbiqi...72
***Məmmədov Samir.*** Müasir dövrdə ailədaxili münasibətlərə təsir göstərən amillərin təhlili..........................74
***Həsənli Şəbnəm.*** Tranzitiv cəmiyyətdə nəsillərarası münaqişələr..........................................................................78
***Məmişov Daşqın.*** Nitqin qrammatik strukturun formalaşdırılması ................................................................ 81
***Аббасзаде Фарах.*** Психологические особенности протекания беременности ..................................................87
***Махмудова Эльнора.*** Отношение онкологов к суицидальной активности больных злокачественными новообразованиями..............................................................93

## PEDAQOGİKA BÖLMƏSİ

***Abdullayeva Şahnaz.*** Şagirdlərin milli və ümumbəşəri dəyərlərə məhəbbət ruhunda tərbiyəsində ingilis dili dərslərinin rolu..........................................................97
***Həsənova Aytac.*** **44** günlük Vətən müharibəsi gənclərdə şərəf və ləyaqət hisslərini formalaşdırmağın mərkəzi kimi..........100
***Санг Жике.*** Современные педагогические технологии в образовании ..........................................................104

***Məmmədli Zəhra.*** Ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsinin qarşIsInda duran vəzifələr........110
***Cavadova Nənəxanım.*** Yeniyetmə yaşının psixoloji xüsusiyyətləri..........................................................................112
***Quluzadə Nigar.*** Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsinin həyata keçirilməsi imkanları ..............................................115
***İsrafilzadə Əminə.*** Ümummilli lider Heydər Əliyev – Azərbaycanın müasir elm və təhsil konsepsiyasinin banisi kimi.........................................................................118

## SOSİAL İŞ VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Дамирова Эльвира.*** Основные перспективы организации досуга молодежи.........................................124
***Həsənli Zərifəxanım.*** Gənclərin sosial müdafiəsi sosial siyasətin vacib istiqaməti kimi............................................126
***Mirzəyeva Ayişə.*** Gənc ailə və onun sosial-psixoloji xüsusiyyətləri ........................................................................129

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

***Nəsirova Ramilə.*** Biliklər bazasının təsviri modelləri.........134
***Abbasova Gülər.*** İntellektual sistemlərin layihələndirilməsi mərhələləri.............................................137
***Məmmədzadə Sevinc.*** Ekspert sistemlərinin layihələndirilməsi mərhələləri.............................................139
***Səlimova Sara.*** İntellektual texnologiyalarda rəqəmsal köməkçilərin tətbiqi və faydaları .........................................142
***Алиева Фарида.*** Внешнеэкономическая деятельность и организация ее таможенного регулирования...............145
***Abbasov Təbriz.*** Milli iqtisadiyyatın inkişafinda iqtisadi artimin rolu və ona təsir edən amillər ................................149
***Nuriyyeva Məlahət.*** Natamam ailələlərdə yaşayan uşaqların psixoloji xüsusiyyətləri......................................................156

Texniki redaktor: **V.K.MUSAYEVA**

Gənc tədqiqatçıların Respublika
elmi-praktik konfransının materialları
(20 oktyabr 2021-ci il)
**III hissə**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Emil Salayev

Çapa imzalanıb: 25.05.2022.
Nəşrin formatı: 60x84 1/16.
Şərti çap vərəqi: 10.
Tiraj: 100.
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26

Tel.: 055 850-98-69